HACI ETİBAR ƏHƏDOV

# LƏNKƏRANIN MƏTBUAT SALNAMƏSİ

BAKI – 2025

Az
Ə95

***Redaktor***

Şəddat CƏFƏROV,
Azərbaycanın ilk poliqrafçı alimi, Azərbaycan, Rusiya
Yazıçılar Birliklərinin və Jurnalistlər birliyinin üzvü

**ƏHƏDOV Etibar Əliağa oğlu.**
LƏNKƏRANIN MƏTBUAT SALNAMƏSİ,
Bakı, "OL" MMC, 2025, səh. 144

Kitabda Lənkəran mətbuatının yaranması və inkişafından, müstəqillik dövründə qəzet və jurnalların nəşri tarixindən, jurnalist Hacı Etibar Əhədovun təsisçi və baş redaktoru olduğu “Lənkəranın səsi” və “Aşkarlıq” müstəqil qəzetlərində istifadə edilmiş janr və forma zənginliyindən söz açılır.

Kitaba Lənkəran mətbuatının tarixi, nəzəri və təcrübi məsələlərinə həsr edilmiş materiallar, dostlarının müəllif haqqında xatirələri də toplanmışdır.

**© E.Əhədov, 2025**

# I BÖLMƏ

# MİLLİ MƏTBUATIMIZIN LƏNKƏRAN NƏŞRLƏRİ



Sovet hakimiyyəti dövrünədək ana dilində xüsusi mətbuat orqanının yaradılması Lənkəranın maarifpərvər, vətənpərvər ziyalılarının da diqqət mərkəzində olub. Araşdırmalar göstərir ki, lənkəranlı ziyalılar hələ bolşevik inqilabınadək Azərbaycanda, Yaxın Şərqdə və digər yerlərdə çap olunan qəzet və jurnallarla əlaqə yaradıb, ictimai həyatın müxtəlif sahələrini əks etdirən yazıları oxuculara çatdırıblar. Maraqlıdır ki, maarifpərvər ziyalı Mirzə Ağəli Əliyev Hindistanın Kəlküttə şəhərində çıxan "Həblül-mətin" (Qırılmaz kəndir), Misirdə nəşr olunan "Cehrənüma", İranda çıxan "Nasiri", habelə Tiflisdə nəşr olunan "Şərqi-rus", Bağçasarayda çıxan "Tərcüman" qəzetləri və "Molla Nəsrəddin" jurnalı ilə müntəzəm əlaqə saxlamışdır. Tədqiqatçılar M.A.Əliyevi "Molla Nəsrəddin"in fəal müxbirləri sırasında da göstərirlər *(M.Paşayev. Molla Nəsrəddin və onun iştirakçıları, Azərbaycan SSR EA Əlyazmaları fondunun əsərləri, II cild, B., 1963, səh. 126).*

Azərbaycan nəsrinin istedadlı nümayəndələrindən və rus mətbuatının ilk azərbaycanlı müxbirlərindən olan Məmmədəli Səfiyev Lənkəranın mədəni, sosial həyatı ilə bağlı çoxlu məqalələrin, publisistik yazıların müəllifidir. Xüsusilə, "Zaqafqazski vestnik" və "Kafkaz" qəzetlərində Lənkəranda baş verən mühüm ictimai-siyasi, mədəni-məişət məsələləri haqqında müxtəlif janrda yazıları çap olunmuşdur.

Ədəbiyyatşünas İ. Yenikolopovun yazdığına görə, M.Səfiyev Zaqafqaziya şeyxülislamı, M.F.Axundovun dostu Molla Əhməd Hüseynzadə Salyaninin bacısı oğludur. O, ərəb, fars dillərini və rus dilini mükəmməl bilmiş, XIX əsrin 50-ci illərində Lənkəranda yaşayıb işləmiş, 1869-1877-ci illərdə Bakıda quberniya idarələrində tərcüməçilik etmişdir.

Teymurbəy Bayraməlibəyov Lənkəran qəzasının etnoqrafiyasına dair iki elmi əsərin müəllifidir. Etnoqrafik, tarixi və iqtisadi mövzularda 50-dən çox məqaləsi, topladığı əfsanə, nağıl və lətifələri "Kaspi" qəzetində, "Qafqaz tədris dairəsi" məcmuəsində dərc olunmuşdur.

Dövrün tanınmış ziyalılarından Mirzə İshaq Mövsümzadə, İsmayıl Qənbərli, Hüseyn Atakişiyev, Müzəffər Nəsirli kimi maarifpərvər ziyalılar da öz yazıları ilə siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

Lənkəranda inqilaba qədər "Rəhbər", "Rıbnoye delo", "İzvestiya Muqanskoqo İspolnitelnoqo komiteta", "Hürriyyət" qəzetləri çap olunmuş və bunlar Lənkəran qəzasında ictimai-siyasi şüurun inkişafında əhəmiyyətli rol oynamışlar. Hamısının da ömrü az olmuş, 1 və ya 2 il fəaliyyət göstərmişdir.

Lənkəranda Azərbaycan dilində ilk çap edilən qəzet "Lətaif" olmuşdur. Nazim Axundovun məlumatına görə, 1917-ci ildən nəşrə başlayan bu qəzet həftəlik vərəqə olmuş, "Məharət" qiraətxanasında buraxılmışdır. Naşiri Mirzə Zeynalabdin Təbrizi, redaktoru Mirmurtuza Talışinski olmuşdur. "Lətaif" 200 tirajla çap olunmuş, cəmi 6 nömrəsi çıxmışdır.

İnqilabın yüksəliş illərinin təsiri altında Lənkəranda 1919-cu ilin iyun-iyul aylarında "İzvestiya Muqanskoqo İspolnitelnoqo Komiteta" həftəlik qəzet fəaliyyət göstərmişdir. İki səhifədən olan qəzet Muğan ölkə kəndli, fəhlə və əsgər deputatları Soveti İcraiyyə Komitəsinin orqanı idi. Qəzet Sovet hakimiyyəti uğrunda mübarizə aparan inqilabçıların fəaliyyətini əks etdirmişdir. Neçə nömrəsinin çıxdığı müəyyən edilməmişdir. 3-cü nömrəsi Lənkəran tarix-diyarşünaslıq muzeyində saxlanır.


Годъ изданія 1-й
ИЗВѢСТІЯ
МУГАНСКАГО ИСПОЛНИТЕЛЬНАГО КОМИТЕТА
№ 3. г. Ленкорань Четвергъ 3 Іюля 1919 года
Памяти погибшихъ товарищей.
ПРОЩАЙ НАШЪ ТОВАРИЩЪ ТЫ ЧЕСТНО ПРОШЕЛЪ СВОЙ ТЯГОСТНЫЙ ПУТЬ БЛАГОРОДНЫЙ!
ОБЪЯВЛЕНІЕ.
Въ горной лѣсной части Ленкоранскаго уѣзда образовывается поселокъ на чисто коммунистическихъ началахъ, численностью до двухъ тысячъ домовъ.
ПРИКАЗЪ № 11.

*"İzvestiya Muqanskoqo İspolnitelnoqo Komiteta"*

Ötən əsrin 20-ci illərində mətbuatımız kommunist ideologiyasının təsiri altında fəaliyyət göstərib, bununla da Azərbaycan jurnalistikasının yeni dövrü başlanır.

Lənkəranın ictimai-siyasi, iqtisadi həyatında xüsusi yeri olan indiki "Lənkəran" qəzeti 1931-ci il yanvarın 21-də "Qızıl Talış" adı ilə nəşrə başlayıb. İlk redaktoru Lənkəran Rayon XDS İcraiyyə Komitəsinin sədri Böyükağa Mirsalayev olmuşdur. Çox keçməmiş o, repressiyaya uğramış, 20 may 1931-ci ildə Əli Razi Şəmsizadə qəzetin redaktoru təsdiq edilmişdir. Qəzet 5 dekabr 1931-ci ildən, 64-cü nömrədən "Sıə Toloş" adı ilə Azərbaycan və talış dillərində buraxılmışdır.

İqbal Əbilovun məlumatına görə, "Sıə Toloş" qəzeti ilə yanaşı, Lənkəranda "Şura Ozorboyconı" (Sovet Azərbaycanı) və Lənkəran Maşın-Traktor Stansiyası siyasi şöbəsinin orqanı kimi "Tolışi kolxozçi" (“Talış kolxozçusu”) qəzetləri də çap olunmuş və bu qəzetlər 1935-1936-cı illərdə "Sıə Toloş" qəzetinə birləşdirilmişdir.

"Sıə Toloş" əvvəllər Azərbaycan və talış dillərində, 22 sentyabr 1938-ci ildən Azərbaycan dilində nəşr edilmişdir. Sonralar "Sosialist subtropikası" (23.02.1939-16.06.1957), "Leninçi" (16.06.1957-22.09.1990) və "Lənkəran" (22.09.1990-cı ildən) adı ilə buraxılmışdır.

İndiki "Lənkəran" 1962-ci ildən rayonlararası qəzetə çevrilmiş, 6 aprel 1965-ci il tarixli büro qərarına əsasən yenidən Lənkəran Rayon Partiya Komitəsi və rayon XDS İcraiyyə Komitəsinin orqanı kimi fəaliyyət göstərmişdir.

Sonrakı illərdə Rəzzaq Kazımov (31.07.1931-06.02.1933), Əmrəli Mirzəyev (06.02.1933 - 15.05.1940), Əbil Fərəcov (15.05.1940 - 23.06.1941), Rəcəbəli İsmayılov (23.07.1941 - 23.08.1942), Qulam Məmmədov (23.08.1942-03.09.1951), İman Əliyev (03.09.1951 - 22.10.1951), Şükufə Qasımova (22.10.1951 - 08.04.1953), Kərim Rzayev (08.04.1953 - 10.09.1958), Əliş Nəbili (10.09.1958 - 08.12.1961), Əyyub Rzayev (08.12.1961 -

01.01.1962), Tofiq Həsənov (01.01.1962-03.07.1965), Nəcəf Şıxəliyev (03.07.1965 - 20.02.1971), Şəkər Aslan (20.02.1971 - 15.08.1992), Etibar Əhədov (15.08.1991 - 15.12.1993), Həzi Əliyev (16.12.1993 - 19.11.2003), İltifat Əhmədov (20.11.2003 - 2017) qəzetin redaktoru işləmişlər.

2017-ci il fevral ayından isə qəzetin redaktoru Əlimərdan Əliyevdir.

## LƏNKƏRANDA ÇAPXANALAR VARDI...

İnqilabdan əvvəl ayrı-ayrı şəxslər tərəfindən Lənkəranda çapxanalar yaradılmışdı. Belə çapxanalar məhdud imkana malik olsa da, hər halda təməl qoyulmuşdu. 1918-ci ildə qvardiya polkovniki Miri bəy Talışxanovun Veravul kəndində təşkil etdiyi çapxanası Şıvkunovun ermənilərdən təşkil olunmuş quldur dəstəsi tərəfindən dağıdılmış, evdəki kitablara isə od vurulmuşdur. Özünə də aman verilməmiş, vəhşicəsinə qətlə yetirilmişdir.

1931-ci ildə rayon qəzetinin fəaliyyətə başlaması ilə əlaqədar Lənkəranda mətbəə açılmış və 1995-ciilədək fəaliyyət göstərmişdir. Qəzet ilk illərdə Lənkəran mətbəəsində həftədə bir dəfə iki səhifəlik buraxılıb. Şükufə Qasımovanın redaktorluğu dövrdə, 1952-ci ildə respublikada birinci olaraq Lənkəranda qəzet dörd səhifədə, həm də həftədə üç dəfə çıxmış, çap maşınları yenilənmişdir. Ş. Qasımova sonralar "Sovet kəndi" qəzetində fəaliyyətə başladı.

"Lənkəran" qəzeti 1995-ci ildən Bakı mətbəələrində ayda bir və ya iki dəfə səkkiz səhifədə çap olunur.

Səfail Məmmədov, Əbdülmanaf Cəfərov, Kərim Heydərov və başqaları müxtəlif illərdə Lənkəran mətbəəsinin direktoru işləmişlər.

## Qəzetə kadr ehtiyatı kimi baxılırdı

1971-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində oxuyarkən kafedra müdirimiz Əliş Nəbili Lənkərandan olduğumu biləndə “Leninçi” (indiki “Lənkəran”) qəzetinin redaktoru kimi fəaliyyət göstərdiyi illərdən danışdı. Dedi ki, redaksiyanın əməkdaşlardan Rza Kərimin ciddi görkəmi, Əyyub Rzayevin şən gülüşləri, çevik qələmi, Rəşid Həsənovun bir-birinə caladığı papiros tüstüsündən qaralan dodaqları, Yusif Yusifovun, Yədulla Səfərovun, Nəcəf Şıxəliyevin, Həzi Əliyevin şən və şirin zarafatları, hər birinin özünəməxsus yaradıcılıq dəsti-xətti, Vaqif Hüseynovun şeir rübabı, odlu publisistikası kino lenti kimi gözlərim önündə canlanır.

Uzun illər "Leninçi" (indiki "Lənkəran") qəzetində çalışmış məsul katib Yaşar Rzayev və şöbə müdiri Hüseynağa Qəniyev müxtəlif rayonlarda partiya komitələrinin birinci katibi, redaktor müavini Yədulla Səfərov rayon Sovetində şöbə müdiri, məsul katib Həbib Səfərov, Ramiz Hüseynov, Ağasəlim Nəsirov şəhər Partiya Komitəsində şöbə müdiri, Barat Kərimov rayon Xalq Nəzarəti Komitəsinin sədri, Qüdrət Cəfərov şəhər Partiya Komitəsində təlimatçı, Şamil Şabanov sovxoz direktoru, Məmmədhüseyn Əliyev Yazıçılar İttifaqı Lənkəran bölməsinin məsul katibi, Vaqif Hüseynov Masallı rayonunda "Çağırış" qəzetinin redaktoru, Asif Quliyev "Sovet kəndi" qəzetinin redaktoru, Əyyub Rzayev "Sovet Astarası" qəzetinin redaktoru, Hacıbala Əbilov şəhər Komsomol Komitəsinin birinci katibi, sonralar rayon Sovetinin sədr müavini, Kamal Rəhmanov Milli Məclis mətbuat şöbəsinin referenti, Sevda Əlibəyli "Söz" jurnalının baş redaktoru, Etibar Əhədov və Esmira Ağayeva Lənkəran Dövlət Universitetinin mətbuat xidməti rəhbəri, Xudaverdi Cavadov "Respublika həyatı" qəzetinin redaktoru və s. vəzifələrdə fəaliyyət göstərmişlər.

Tanınmış qələm sahiblərindən İsmayıl Şükürov, Yusif Abıyev, Səlim Ağayev, Mirhafiz Abbas, Manaf Manafov müxtəlif illərdə qəzetin aparıcı müxbirləri olmuşlar. 70-80 - ci və sonrakı illərdə Qüdrət Cəfərov, Barat Kərimov, Kamal Rəhmanov, Xudaverdi Cavadov, İltifat Əhmədov, Esmira Ağayeva, Ağaddin Babayev, Aygün Fərəcova, Pərvanə Əliyeva, Natiqə Ağayeva, Nurlan Nəsirli, fotomüxbirlərdən Əsəd Mayılov, Hacağa Səlimov, Əhmədağa Kərimov, Yaşar Məmmədov, Gülağa Cəfərov, Əyyar Bədəlov, makinaçılardan Şeyda Qasımova, Əzizə Rəhmanova, Nərminə Əliyeva, Ceyran Bayramova, korrektorlardan Adilə xanım, Mirkazım Dadaşov, İltifat Əhmədov, Rafiq Rəhimli, Mehman Əliyev və başqaları dövrün tarixini yaşadanlar arasında olmuşlar.

Fəaliyyətə başladığı gündən yüzlərlə fəhlə-kəndli müxbiri redaksiya ilə yaxından əlaqə saxlayaraq onun səhifələrində maraqlı imzalarla çıxış edirdilər. Ştatdankənar müxbirlərdən Səfər Rüstəmov, Vəliağa Əzimov, Azad Zülaloğlu, Miryəhya Hətəmov, Zakir Bağırov,İsabala Xankişiyev, Qardaşxan Fərziyev, Kazım Abbasov, Sehran Əliyev və başqaları sevimli qəzetləri ilə müntəzəm əlaqə saxlayaraq, müxtəlif mövzularla çıxış edirdilər. Qəzetin şöbə müdiri Qüdrət Cəfərov, səhifələyici Nəsibə Salmanova, ştatdankənar müxbir Səfər Rüstəmov mətbuatdakı fəaliyyətinə görə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunmuşlar. Qəzetin redaktoru Şəkər Aslan "Əməkdə fərqlənməyə görə" medalına layiq görülmüşdür. Linotipçi və səhifələyicilərdən Dünyaxanım Kərimova, Güloğlan, Lətifə Rufullayeva, Bənövşə Feyzullayeva, Ərşəgül İsmayılova, Ələsgər Əliyev, çap ustalarından Asif Axundov, Qabil Abbasov, Mürüvvət Ağammədov, Səfər Səfərov, Məmmədağa Cabbarov və başqaları gecəni gündüzə qataraq qəzetin vaxtında ərsəyə gəlməsində bilik və bacarıqlarını sərf edirdilər. Qəzetin korrektorlarından İltifat Əhmədov "Lənkəran"ın redaktoru oldu. Rafiq Rəhimli Azərbaycan Dövlət Gənc

Tamaşaçılar Teatrının ədəbi-dram hissə rəhbəri, Əməkdar mədəniyyət işçisidir. Fotoqraf Gülağa Cəfərov "Kredo" qəzetinin redaktoru, müxtəlif saytların təsisçisidir. Zakir Bağırov, Mirkazım Dadaşov, Mehman Əliyev, Pərvin Hüseynli, Sehran Əliyev və başqaları müxtəlif illərdə qəzetdə fəaliyyət göstərmişlər. Redaksiyanın xadiməsi Fəxrəndə xanım kollektivin hər bir üzvünə analıq qayğısı göstərirdi. Qəzetin fəaliyyətə başladığı gündən baş mühasib olmuş Mirzə Gülhəsən Məmmədov, sonralar Hakim Mirzəcanov, Naibə Mirzəyeva sənədlərin səhvsiz və operativ hazırlanmasında səylərini əsirgəmirdilər. Bu gün isə qəzetin mühasibat işlərini İlham Abbasov aparır.

## İllər tarixə dönür

Dəyişən çox şey var. Hər şey öz axarı ilə gedir. Aradan illər keçsə də heç nə yaddan çıxmayıb. Yolum hər dəfə bu yerlərdən keçəndə ötən illər yada düşür. Bura şəhərin mərkəzi hissəsi idi. 1931-1983-cü illərdə "Leninçi" (indiki "Lənkəran" qəzeti) bu yerdə yerləşirdi. 1853-1920-ci illərdə isə bura İran dövlətinin konsulluğu olub. Sonralar redaksiyanın yerləşdiyi binanın yerində ilk doqquzmərtəbəli yaşayış binası ucaldıldı. Bundan sonra redaksiya şəhərin Bala Məmməd küçəsi, 9 saylı binada - Lənkəran meşə idarəsinin yaxınlığında qərar tutdu. Bu gün isə Heydər Əliyev prospektində - Lənkəran statistika idarəsinin binasında yerləşir.

Qəzet bütün dövrlərdə həqiqət carçısı olmuş, xalqın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. Qatı çoxdan saralmış səhifələri vərəqlədikcə hiss edirsən ki, qəzet ictimai-siyasi hadisələrin gərgin olduğu bütün dövrlərdə Azərbaycan həqiqətlərinin oxuculara çatdırılmasında, milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasında və təbliğində, gənclərimizin hərbi-vətənpərvərlik ruhunda

tərbiyəsində, cəmiyyəti düşündürən problemlərin əks etdirilməsində, yeni cəmiyyət quruculuğunda fəal iştirak edib.

Qəzetdəki bəzi məqamlara diqqət yetirək:

### Məsul katibi niyə uzaqlaşdırdılar

1932-ci ildə qonşu Masallı rayonunda "Yeni həyat" qəzeti nəşrə başlayanda Lənkərandan olan Bəşir Hüseynovu oraya işləməyə göndərmişdilər. Qəzetin növbəti nömrəsi çıxanda məsul katibi qəflətən DTK rayon şöbəsinə çağırırlar. Axşam çap edilmiş qəzetin rubrikası kiminsə tərəfindən dəyişilmiş, "Yaşasın sosializm!" əvəzinə "Yaşamasın sosializm!" sözləri ilə çap edilmişdi. Bəşir Hüseynov işində dəqiq və məsuliyyətli idi. Qəzetin redaktoru və məsul növbətçi ilə birgə imzalamış olduğu nüsxə işdəki seyfində saxlanırdı. Həmin nüsxə DTK-ya təqdim edildikdən sonra Bəşir Hüseynov bəraət aldı. Amma nahaqdan üç ay həbsdə qalması səhhətinə mənfi təsir göstərmişdi. Sonralar o, Lənkəran dəmiryol stansiyasında müxtəlif vəzifələrdə işlədi.

Oğlu Ramiz Hüseynov müxtəlif illərdə qəzetin korrektoru, şöbə müdiri, məsul katibi və redaktor müavini, o cümlədən Lənkəran Şəhər Partiya Komitsəi ideologiya şöbəsinin müdiri işləmişdir.

### “Lənkəran”, yoxsa “Elin səsi”

“Lənkəran" qəzetinin redaktoru işlədiyim illər ölkədə ictimai-siyasi hadisələrin gərgin olduğu dövrə təsadüf edib. 90-cı illərin əvvəllərində hadisələrdən baş çıxarmaq o qədər də asan deyildi.

Lənkəran Xalq Cəbhəsinin fəalları Qarabağ hadisələrinə etiraz olaraq 1990-cı ilin yanvarın 11-də yerli hakimiyyət


ЕЛ КУЧУ—СЕЛ КУЧУ!

ЕЛИН СӘСИ

АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИ ЛӘНКӘРАН ШӨ'БӘСИНИН ГӘЗЕТИ

№ 2 16 ЈАНВАР 1990-чы ИЛ. Гиjмәти 10 гәпик.

orqanlarının, bir gün sonra isə Lənkəranda çıxan "Leninçi" (indiki "Lənkəran") qəzetinin fəaliyyətini dayandırdılar. Əvəzində Xalq Cəbhəsi Milli Müdafiə Komitəsinin orqanı kimi "Elin səsi" bülleteni buraxmaq qərara alındı. Qəzetin redaktoru Şəkər Aslan təklif etdi ki, bülletenlə birlikdə "Leninçi" qəzeti də buraxılsın. Lakin təklif qəbul edilmədi. "Elin səsi"nin ilk sayı 12 yanvar 1990-cı ildə Lənkəran mətbəəsində, A-3 formatında, 99 nüsxə ilə bir səhifəlik həcmində buraxıldı. Bülletenin ilk sayında DQMV-də baş verən hadisələrlə əlaqədar AXC Lənkəran şöbəsinin və Müvəqqəti Müdafiə Komitəsinin respublika əhalisinə və Lənkəran kommunistlərinə müraciətləri, həmçinin Lənkəran Şəhər İcra Hakimiyyətində və Xalq Cəbhəsində keçirilən tədbirlər öz əksini tapırdı. Lənkəranda baş verən 26 yanvar hadisələrindən sonra "Leninçi" qəzeti fəaliyyətini bərpa etdi.

1994-cü ildən sonra “Elin səsi”qəzetinin daha bir neçə nömrəsi çıxmışdır. Qəzetin sonuncu, 46-cı nömrəsi 1996-cı il sentyabrın 1-də buraxılmışdır.

## Yaddan çıxmayan həqiqətlər

"Lənkəran" qəzetinin redaktoru işlədiyim dövrdə əli-qolu sarğılı orta yaşlı bir kişi gəlmişdi. Dedi ki, məni bu hala DİN-in Xüsusi Təyinatlı dəstə salıb. "Şərq" kafesində yeyib-içəndən sonra yediklərinin haqqını istəyəndə məni, yeməkpaylayanı və gözətçini bu hala salıblar. "Yedilər, döydülər…" *(“Lənkəran” qəzeti,14.10.1993)* sərlövhəli yazı qəzetdə çap olunandan sonra redaksiyaya DİN-in Xüsusi Təyinatlı polis dəstəsindən bir neçə nəfər gəlmişdi. Yüksək çinli polis qəzet əməkdaşlarına tərəf hərəkət edəndə başqa birisi qabağını kəsib kənara çəkdi.

Belə hadisələr cəbhəçilər dövründa az olmamışdı. Qəzetdə şair Allaherdi Zeynalovun "Azərbaycan" şeirini dərc etmişdik. Şeirdə Azərbaycanı parçalamaq istəyən nadanlar kəskin tənqid olunurdular. Hədə-qorxuya görə ailəliklə başqa yerdə sığınacaq tapdıq. Sonra qonşular dedilər ki, iki silahlı sizi axtarırdı.

## Müstəqillik dövründə mətbuat

Mətbuatımız xalqa həmişə bağlı olmuş, onun istək və arzularına çıraq tutaraq "Əkinçi" ənənələrini davam etdirmişdir. Bu gün Azərbaycanın hər yerində olduğu kimi, Cənub bölgəsində, o cümlədən Lənkəranda mətbuatın inkişafına diqqət xeyli artmışdır. Mətbuatımız demokratik fikrin, azad sözün tribunasına çevrilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Lənkəran ziyalıları təşəbbüs qaldıraraq özlərinin yeni mətbuat orqanlarını yaratmağa cəhd etmişlər. Nə yaxşı ki, müstəqillik illərinin ilk dövründən yadigar qalmış və müxtəlif adlarda çap olunmuş qəzetlər, jurnallar, bülletenlər bu gün mətbuat tariximizdə əhəmiyyətli yer tutur. "Lənkəranın səsi", "Elin səsi", "Şəm", "Çeşmə", "Ailə", "Aşkarlıq", "Prizma", "Fakt+ fakt", "Bizim təbib", "Veteran yolu", “Respublika həyatı”qəzetləri, "Şəfəq", "Söz", "Məşəl" jurnalları və s. belə mətbuat orqanlarından idi.

**"Şəm"** bülleteni 1990-1992-ci illərdə, ayda bir dəfə, 2 və ya 4 səhifəlik həcmində Lənkəran mətbəəsində çap olunurdu. Qeydiyyatdan keçmədiyindən mətbuat haqqında qanununa uyğun




olaraq sayı 99-dan keçmirdi. Bülletenin hər sayı ayrı-ayrı xeyriyyəçi-ziyalının redaktorluğu ilə çap olunurdu. Hacı Mirsalam Babayev, Hacı Mirsayad

Babayev, Hacı Mirhaşım Talışlı, Asif Cavadov, Səmədağa Səmədzadə və başqalarının fəallığı ilə çıxan bülletendə Lənkəran şairlərinin yaradıcılığı öz əksini tapırdı. Bülletendə əsasən əruz vəznində qəzəllər verilirdi.

**"Çeşmə"** qəzeti 1990-cı il aprelin 1-dən, dörd səhifəlik həcmində Bakıda çıxırdı. Dövrün ictimai-siyasi hadisələrini əks etdirən qəzet ilk gundən oxucuların diqqətini çəkmişdir. Qəzetin təsisçisi və yaradıcısı Sakin Məmmədzadə idi.

1995-ci ildə fəaliyyəti dayanmışdır.




**"Lənkəranın səsi"** qəzeti bu sətilərin müəllifinin təsisçiliyi və redaktorluğu ilə çap olunmuşdur. Demokratik xarakter daşımış, səhifələrində Lənkəranda gedən sosial-iqtisadi, mədəni-quruculuq, əhalinin həyat tərzi haqqında materiallar öz əksini tapmışdır.

İlk sayı 21 mart 1994-cü ildə Masallı rayon mətbəəsində, sonrakı sayları Lənkəranda və Bakıda buraxılmışdır. Cəmi 7 sayı çıxmışdır. Axırıncı sayı 1994-cü il noyabrın 17-də buraxılmışdır.




**"Ailə"** müstəqil qəzetinin ilk sayı 1994-cü ildə kiçik formatda 16 səhifəlik həcmində, 5 min tirajla çap olunmuşdur. Qəzetin səhifələrində ailə-məişətsələləri əsas yer tutmuşdur.

Təsisçisi Hökümə Turhidə, redaktoru vaxtı ilə “Lənkəran” qəzetinin foto müxbiri işləmiş Əhmədağa Kərimli idi.

Cəmi 6 nömrəsi çıxmışdır.

**"Aşkarlıq"** müstəqil qəzeti ayda iki dəfə, Azərbaycan və talış dillərində çıxır. Səhifələrində ara-sıra rus dilində də müxtəlif mövzuda yazılar dərc edilir. İlk sayı 23 avqust 1995-ci ildə Lənkəran mətbəəsində çap olunmuşdur. 1999-cu ilin fevral ayından Bakıda buraxılır. Təsisçisi və baş redaktoru Hacı Etibar Əhədovdur.Qəzet fəaliyyətə başlamasının 20 və 30 illiyi

münasibətilə Azərbaycan Jurnalistlər Birliyinin Diplomuna layiq görülmüşdür (2015,2025).

Lənkəranın "Palıdlı Sahil" istirahət mərkəzində Milli Məclis Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəblinin təşəbbüsü ilə qəzetin 20 illiyi qeyd edilmişdir (21.07.2015).


Prizma
9 May - alman-faşist işğalçıları üzərində Qələbə günüdür
YALTA - 1945
Dağlar oğlu
Lənkəranla İskəndərun qardaşlaşdı

**"Prizma"** qəzetinin ilk sayı 7 mart 2003-cü ildə çıxmışdır. Qəzetdə respublikaının cənub bölgəsində aparılan quruculuq işləri, ictimai-siyasi hadisələr, həyat tərzi, sosial bəlalar haqqında materiallar dərc edilmişdir.

Təsisçisi Maqsud Məmmədov, baş redaktoru Ağaddin Babayev olmuşdur. 2007-ci ildə Açıq Cəmiyyət İnstitutu Yardım Fondu xeyriyyə təşkilatının dəstəyi ilə 3 min tirajla çap olunub.

Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətli rol oynayan "Veteran yolu" qəzetinin ilk sayı 30 yanvar 2008-ci ildə çap olunmuşdur. Təsisçisi və baş redaktoru Səftər Rzayev Qarabağ döyüşlərinin iştirakçısı, Çernobıl əlili idi. Qəzetin 13 sayı çap olunub.


Həkimin üç silahı var: söz, bitki, bıçaq. İbn-Sina
BİZİM TƏBİB
№ 01 (00-01)
30 YANVAR 2008-ci il
TİBBİ, ELMİ-PUBLİSİSTİK QƏZET
Qiyməti 60 qəpik

**"Bizim təbib"** Lənkəranda çıxan müstəqil, tibbi, elmi-publisistik qəzet olmuş, ilk sayı 2008-ci il yanvarın 30-da 1000 tirajla Bakıda, "Çap evi" mətbəəsində çap edilmişdir.

Təsisçisi və baş redaktoru Azəbaycan Jurnalistlər Birliyi Lənkəran bölməsinin sədri Şəfahət (Şəfi Şəfahət) Həsənovdur.


İSTİ SU
İSTİSU
qəsəbəsi
80

Maraqlıdır ki, Lənkəranın kənd və qəsəbələrində yaşayıb fəaliyyət göstərən qələm sahibləri də müstəqil qəzet buraxmağa səylər göstərmişlər. **"İstisu"** Lənkəranın İstisu qəsəbəsində yaradılmış ilk müstəqil qəzetdir. İlk sayı 2012-ci il avqust ayında 1000 nüsxə ilə Bakının "Mətbuat evi" nəşriyyatında çap edilmişdir.

Rayonun İstisu qəsəbəsində və qonşu yaşayış məntəqələrində yayılmışdır.

Ayda bir dəfə 1000 tirajla çap edilmişdir, cəmi 10 sayı buraxılmışdır.

Təsisçisi və baş redaktoru Yaşar Zeynalovdur.


LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

Lənkəran Dövlət Universiteti təhsil və elm mərkəzi olmaqla, həm də bölgənin böyük mədəniyyət mərkəzidir
Heydər ƏLİYEV

LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİNİN QƏZETİ

Qəzet 1998-ci il yanvar ayından çıxır • 15 sentyabr 2007-ci il • Qiyməti 20 qəpik

Cənub bölgəsində yeganə ali məktəb olan Lənkəran Dövlət Universitetində (LDU) qəzet 1998-2000-ci illərdə "Tələbə", 2000-2006-cı illərdə "LDU-press" adı ilə fəaliyyət göstərmişdir. Kiçik formatda 8 səhifə həcmində işıq üzü görən tələbə qəzetinə müxtəlif illərdə Nəzakət İbadova, Vüsal Nəsirli və başqaları redaktorluq etmişlər. 1998-2006-cı illərdə 60-dək nömrəsi çap olunmuşdur. Qəzet 2007-ci il sentyabrın 15-də "Lənkəran Dövlət Universiteti" adı ilə LDU mətbuat xidmətinin rəhbəri Etibar Əhədovun redaktorluğu ilə yeni formatda Bakıda nəşr edilmişdir. 2008-ci ildə fəaliyyəti dayanmışdır.

2000-ci ildən "Lənkəran Dövlət Universitetinin Elmi xəbərləri" jurnalı humanitar, riyaziyyat və təbiyyat elmləri üzrə seriyalarla nəşr olunur.




Lənkəranda qəzetlərlə yanaşı, ədəbi-bədii jurnallar da fəaliyyət göstərir.

Rayonda ilk ədəbi-bədii jurnal olan "Şəfəq" Yazıçılar Birliyi Lənkəran bölməsinin təşəbbüsü ilə çıxmışdır. İlk sayı 1991-ci ilin iyun ayında Lənkəran mətbəəsində 500 nüsxə ilə çap edilmişdir. İlk redaktoru Məmmədhüseyn Əliyevdir. 1997-ci ildən redaktoru İltifat Saleh, sonralar Yazıçılar Birliyi Lənkəran bölməsinin sədri Qafar Cəfərli olmuşdur.




1993-cü ildən "Söz", 1998-ci ildən "Məşəl", 2012-ci ildən "Yaşıl çay" jurnalları da nəşr olunur.

**"Söz"** ədəbi-bədii, publisistik jurnalının ilk sayı 1993-cü ilin mart ayında çıxmışdır. Naşiri və ilk baş redaktoru Şəkər Aslan olmuşdur. 1995-ci ildən Sevda Əlibəylinin redaktorluğu ilə nəşr edilir.







İldə 4 sayı çıxır.

**"Məşəl"in** ilk sayı 1999-cu ildə çap edilib.

Təsisçisi Nəzir Şabandır. Hacıməmməd Quluzadə (1999-2011), Əliməmməd Ağazadə (2011-ci ildən) jurnalın redaktoru olmuşlar.

"Yaşıl çay" 2012-ci ilin oktyabr ayından çap olunub.Təsisçisi və baş redaktoru Araz Yaqubov, redaktoru Sərraf Talıbovdur.

2014-cü ildə fəaliyyətinin bir illiyi Lənkəran Heydər Əliyev Mərkəzində qeyd edilmişdir.

Bu gün Lənkəranda teleradio jurnalistikası da əhəmiyyətli yer tutur. Lənkərana radio xətti 1937-ci ildə çəkilmişdir. Bir il sonra radio verilişləri redaksiyası təşkil edilmişdir. Radionun ilk baş redaktoru Müzəffər Nəsirli olmuşdur (1938-1940).

Radonun fəaliyyəti 2000-ci illərdə dayandırılmışdır.

1991-ci ildən müstəqil Lənkəran televiziyası fəaliyyət göstərir. 2007-ci ildən "Cənub"TV adlanır. 2008-ci il oktyabrın 8-də televiziya kanalının dördmərtəbəli yeni binası istifadəyə verilmişdir. Açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmişdir.

***

Faktlar göstərir ki, yerli mətbuatın tarixi və fəaliyyəti hələ lazımınca öyrənilməmiş, ya da mətbuat tariximizdə öz geniş əksini tapmamışdır. Diqqəti bu məsələyə yönəltməklə Lənkəranın mətbuat tarixinə az da olsa nəzər çaldıq. Amma bu istiqamətdə tədqiqata, araşdırmalara ehtiyac çoxdur.

# II BÖLMƏ

# "LƏNKƏRANIN SƏSİ"



*1978-ci il*

"Lənkəranın səsi" ilk növbədə öz ətrafına dövrün tanınmış ziyalılarından yazıçı Məmmədhüseyn Əliyev, şair Şəkər Aslan, jurnalist Kamal Rəhmanov, Xalq artisti Qabil Quliyev, publisistlərdən Hacıbala Əbilov, Əlimərdan Nəsirov, Xanhüseyn Səfərov, Şaban Şəfiyev, Hüccətulla Məmmədov kimi ziyalılar, maarif və mədəniyyət işçilərinin qəzetə yol tapması böyük kəşf idi. Dərin müşahidə qabiliyyətinə malik olan bu şəxslər rayondan kənarda da tanınır, Lənkəranın ictimai-mədəni həyatında bilk və bacarıqları ilə tanınmışdılar. Məmmədhüseyn Əliyev Yazıçılar Birliyi Lənkəran bölməsinin sədri, respublikanın Əməkdar incəsənət xadimi idi. Şəkər Aslan 22 ilə yaxın "Leninçi" (indiki "Lənkəran") qəzetinin redaktoru olmuşdu. Hər ikisi SSRİ Yazıçılar İttifaqının üzvü idi, kitabları Moskvada çap olunmuşdu. Kamal Rəhmanov Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdi, Hacıbala Əbilovun, Hüccətulla Məmmədovun, Şaban Şəfiyevin, Xanhüseyn Səfərovun müxtəlif nəşriyyatlarda kitabları çap olunmuşdu.

Qəzetin birinci nömrəsi Lənkəranda deyil, Masallı rayon mətbəəsində 2 min tirajla çap olundu, 4 səhifədən ibarət idi. Baş redaktoru Etibar Əhədov, redaktor müavini Kamal Rəhmanov, məsul katibi Əlimərdan Nəsirov idi.

Qəzet öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası və "Kütləvi İnformasiya vasitələri haqqında" Qanuna uyğun qurmuşdu. "Oxucu ilə üz-üzə" baş məqaləsində yazılırdı: "İndiki mətbuat bolluğunda yeni qəzet təsis etməyimiz təsadüfi deyil. Dövr mətbuat orqanlarından işimizə, inkişafımıza kömək edən problem yazılar, kəsərli söz, gələcəyimiz naminə dəyərli fikirlər, ağıllı, ümumi işə xeyir gətirən təkliflər tələb edir. Belə bir vaxtda işıq üzü görən qəzetimiz ilk nömrəsindən başlayaraq sözün həqiqi mənasında xalqın əsl tribunasına, demokratik fikir və rəy tribunasına çevriləcək" *(21.03.1994, № 1)* .

Daha sonra baş məqalədə qeyd olunur: "Lənkəranın səsi" müstəqil ictimai-siyasi qəzetdir, heç bir tribunaya, heç bir quruma xidmət etmir. Buna baxmayaraq, ölkəmizdə demokratiyanın fikir rəngarəngliyinin daha da inkişafı naminə müxtəlif ictimai-siyasi təşkilat, hərəkat, partiya və qurumlarla əməkdaşlıq edəcək, onların fikir və rəylərini yaşadacağıq" *(Yenə orada, səh.1).*

"Lənkəranın səsi" ilk nömrəsindən başlayaraq diqqəti cəlb edən maraqlı yazılarla çıxış etmişdir. "Lənkəran, yoxsa 26-lar?" məqaləsində oxucu redaksiyaya müraciətlə yazırdı: "Eşitdiyimə görə, bir vaxt Lənkəranın adını dəyişdirmək istəyiblər. Bu barədə nə deyə bilərsiniz?". Oxucunun sualına tarix elmləri namizədi Firudin Əsədovun araşdırmasından aydın olur ki, Azərbaycanı KP MK-nın 1923-cü il sentyabr ayının 24-də keçirilmiş iclasında Lənkəran şəhərinə "26-lar" adının verilməsi haqqında məsələ qaldırılıb. Mirzəyanın təklifi qızğın müzakirəyə səbəb olmuş, Əli Səməd oğlu Məmmədovun ciddi səyi nəticəsində bu iş baş tutmamışdır."

Qəzetin sonrakı nömrələrində Əli Məmmədov haqqında məlumat verilərkən bildirilir ki, o, 1901-ci ildə Lənkəranda anadan olmuş, Moskvada Sverdlov adına Kommunist Universitetini bitirmiş, Lənkəranda və Gəncədə, daha sonralar respublika Daxili İşlər və Ədliyyə komissarlıqlarında məsul rəhbər vəzifələrində işləmiş, 1937-ci ildə repressiya qurbanı olmuşdur.

Yazıçılar Birliyi Lənkəran zona şöbəsinin məsul katibi, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyev Lənkəranda yeni qəzetə təbrik məktubunda yazırdı: "Qəzet o zaman güclüdür, o zaman qüdrətlidir ki, ictimai tribunaya çevrilir, oxucunu mənəvi ehtiyac və istəklərin ifadəçisi kimi döyüşkən və uğurlu istiqamətə yönəldə bilir".

Akademik Əlyar Səfərli qəzetin birinci sayında oxuculara müraciət edərək ürək sözlərini belə ifadə edir: "Arzum budur ki, yeni qəzet yeni-yeni dəyərli gözəl məqalələri ilə bizi sevindirsin,

sağlam və demokratik ruhlu qüvvələri öz ətrafında birləşdirsin" *(21.03.1994, № 1).*

"Söz" jurnalının baş redaktoru, şair Şəkər Aslan ürək sözlərini belə ifadə edir: "Lənkəranda buraxılan "Leninçi" qəzetinin 22 il redaktoru olmuşam. O vaxt redaktor istədiyini dərc edə bilmirdi. Ürəyimizdə bir senzor oturtmuşdular. Hər şey kommunist ideologiyasının təbliği ilə məşğul idi.

İnanıram ki, "Lənkəranın səsi" qəzetində ürəkləri tərpədən yazılar lərc olunacaq. Ancaq və onun redaktorunun, nə də əməkdaşlarının başı bundan ötrü ağrımayacaq. İlk addımından bu qəzetə cəsarət, obyektivlik və bədiilik arzulayıram!" *(21.03.1994, № 1).*

"Lənkəranın səsi" müstəqillik dövründə Lənkəranın ilk ictimai-siyasi qəzet idi. İlk nömrədən başlayaraq ətrafına toplanmış müxbir-ziyalılar qəzetin fəaliyyət dairəsini, istiqamətini, xətti-hərəkətini müəyyən edərək, onun təsir dairəsini daha da genişləndirmişlər.

Yaradıcı gənclərin, demokratik ruhlu ziyalıların, işgüzar adamların yüksək, demokratik ruhlu yazıları əhalinin ruh yüksəkliyini artırırdı. Qəzetin təsir dairəsi genişləndikcə ona inam da artmışdı.

Qəzetin mövzu dairəsi geniş və rəngarəng idi. Tənqid hədəfi dövlətçiliyin, müstəqilliyin, yeni cəmiyyətin inkişafına, elmin, mədəniyyətin tərəqqisinə yönəldilmişdi.

Qəzetin çapında maddi, texniki çətinliklər vardı. Lənkəran mətbəəsində qəzetin çapına imkan verilmirdi. Qəzetin 3-cü nömrəsindən sonra Masallı mətbəəsində də çapına qadağa qoyuldu. Səbəb kəskin, ciddi, siyasi yazılar, yumoristik məqalələr, satirik şeirlər idi. Qəzetin "Redaksiyaya məktublar" rubrikasında dərc olunan "Qızınmadıq istisinə" satirirk yazıda oxucu Azad Ağayev yazır: " Qonşum Canəli Əhmədovu Azadlıq meydanında görüb ayaq saxladım. Üzü şəhər İcra hakimiyyətinə tərəf olduğundan məni görmürdü. O, əllərini gah binaya

tərəf uzadır, gah da ovuşdura-ovuşdura öz-özünə dodaqaltı nəsə deyirdi Ürəyimə min fikir dolaşdı. Odur ki, soruşdum:

-Sirr deyilsə, bu soyuq havada buralarda nə eləyirsən?

-Qızınıram, ay qonşu.

Deyəsən zənnim düz çıxırdı. Qonşumun adamlarına xəbər eləmək üçün götürülmək istəyəndə tez əlimdən tutdu.

-Dayan, a qonnşu, oradakı tüstünü görürsən?

İcra hakimiyyəti binasından burula-burula qalxan qara tüstünü deyirdi. Cavab gözləmədən söhbətə özü davam etdi. Yaşadığımız Nizami küçəsinə qış düşəndən istilik verilməyib. Odur ki, hər gün səhər tezdən burada dayanıb icra hakimiyyətindən qalxan tüstünün istisinə əllərimi, canımı qızdırıram. Dünya gör-götür dünyasıdır, ay qonşu. Nə qədər ki, binamızın adamları xəbər tutmayıblar, sən də gəl yanımda qızın"- *(21.03.1994, № 1).*

Qəzetin birinci nömrəsi 2 min tirajla çap olunmuşdu. O dövr üçün bu tiraj rayon üçün az rəqəm hesab olunurdu. Onun da yarısının yayılmasına imkan verilmədi. Buna baxmayaraq, qəzet mütərəqqi ziyalılar tərəfindən rəğbətlə qarşılanır, yayılmasına kömək göstərilirdi.

Tələt Sadıqov, Muğdad Səfərov və başqa sahibkarlar qəzetin sədaqətli köməkçisi kimi abunənin təşkilində və yayılmasında təbliğatçımıza çevrilmişdilər.

Qəzet Lənkəranın ictimai-siyasi vəziyyətinin yeni tələblərə uyğun qurulması istiqamətində mübarizəyə kömək işində böyük işlər görürdü. Qısa vaxt ərzində Lənkəranda dəyərli təşəbbüslər irəli sürüldü. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, mədəni-kütləvi tədbirlərin canlandırılması, əhalinin iqtisadi-sosial vəziyyəti istiqamətində qaldırılan məsələlər və s. qəzetin yaxından iştirak etdiyi və düşündürdüyü məsələlər idi.

Qarabağın azadlığı uğrunda mübarizə qəzetin baş möv-

zusuna çevrilmişdi. Demək olar ki, "Lənkəranın səsi" hər nömrəsində torpaqlarımızın azadlığı, müstəqilliyimizin qorunması uğrunda canını fəda etmiş şəhidlərimiz haqqında oçerk və digər mövzuda publisistik yazılar, poeziya nümunələri verilirdi. Gənclərimizin torpaqlarımızın bölünməzliyi uğrunda keçdiyi şanlı mübarizə bu gün tariximizə çevrilmişdir.

Qəzetin ilk sayında "Görüşə iki gün qalırdı" (səh.1-4) oçerki Daxili İşlər Nazirliyinin zabiti, Qarabağ şəhidi Ramiz Mustafayevə həsr olunub. "Qardaşın qardaş haqqında hekayəti" Qarabağ şəhidi Natiq Manafov (1994, №2, səh.4), Azərbaycan Bayrağı ordenli, hərbçi-zabit Anar Əliyev (1994, № 3, səh.1), "Qoşa qəbir" publisistik yazı Kərgəlan kəndindən olan Qarabağ şəhidi Nicat Əliyev (1994, № 4, səh.2) haqqındadır. Şaban Şəfiyevin "Əsgərin dili açıldı" (29.04.1994, № 2), sərhədçi Xalid Mahmudova həsr edilmiş "Axtarış" (№3, səh.2) publisistik yazılarında qəhrəman gənclərimizin həyat və fəaliyyətindən söz açılır. Fuad Quliyevin "Ölümlə həyat arasında" siyasi mövzuda qələmə alınmış publisistik yazıda müharibə dövrünün mühüm vəzifələri göstərilməklə, həm də arxanın və cəbhənin vahid birliyi oxuculara çatdırılmışdır *(1994, №2, səh.1-2)*.

Şair Ağamir Cavad "Lənkəranın səsi", qədəmlərin mübarək!" şeirini qəzetin ilk sayının çapdan çıxması münasibətilə yazıb. Müəllif yazır: "Gəlişin Novruz gününə düşdü. Elin ən gözəl bayram günündə sən də öz müjdənlə şəhərimizə xoş ovqat gətirdin. Səhifələrində bizi xoş xəbərlərlə sevindirən təbəssüm payını da daddıq...(29.04.1994).

Yerlərdə oxucu konfranslarının keçirilməsi qəzetin ziyalılılarla əlaqəni daha da möhkəmləndirmişdi. "Lənkəranın səsi" nömrədən-nömrəyə fəaliyyətini genişləndirirdi. Hiss olunurdu ki, qəzet xalqa daha yaxın olmuşdur.

Qəzetin 3-cü sayında "Azadlıq bayrağı" sərlövhəli yazıda deyilir: "Onu ilk dəfə Lənkəranda 14 yaşlı Elşad Hüseynov

qaldırıb". Aslan Aslanov yazırdı: "1991-ci ildə respublikamızın müstəqilliyi bərpa edildikdən sonra həmin üçrəngli bayraq Lənkəran şəhəri, Səttarxan küçəsindəki 171 nömrəli binanın qarşısında qaldırıldı" *(1994,№ 3, səh.2).*

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Hüseynqulu Məmmədovla müsahibə qəzetin 3-cü səhifəsində verilib, "Xalq həqiqəti bilməlidir" müsahibəsində sabiq icra başçısı son illərdə Lənkəranda baş verən ictimai-siyasi vəziyyətə münasibətini açıqlayır, hakimiyyətdə olduqları dövrdə yol verdikləri nöqsanlardan, buraxdıqları səhvlərdən danışır.

Lənkəran şəhər Sovetinin deputatı Hafiz Mirzə ilə müsahibə "Azərbaycanı demokratik prinsiplər, mütərəqqi islahatlar xilas edəcək" sözləri ilə başlayır, hadisələrə münasibətini bildirir. Qəzetin qaldırdığı iqtisadi, sosial problemlər ictimaiyyəti düşündürən, narahat edən məsələlərdən idi. Ölkədə müharibə getdiyi bir dövrdə əhalinin iqtisadi vəziyyəti yaxşı deyildi: işsizlik, qıtlıq, rüşvətxorluq artmışdı. Çörək çatışmazlığı yaranmışdı. İş o yerə çatmışdı ki, adamlar sübh tezdən dəmiyol vağzalına çıxıb çörək gətirən qatarın gəlməsini gözləyirdilər. Elektrik işığı fasilələrlə verilirdi, qaz, su problemi yaranmışdı, çoxmərtəbəli binalarda, təhsil ocaqlarında istilik sobaları fəaliyyətini dayandırmışdı. Yollar bərbad vəziyyətə düşmüşdü.

Qəzetin qaldırdığı sosial problemlər ictimaiyyətin diqqət mərkəzində idi. Bu və ya digər mövzularda redaksiyaya daxil olan xəbər və məktubların sayı artmışdı.

Qəzetin növbəti saylarında müxtəlif rubrikalarla bir-birindən maraqlı yazılar öz əksini tapmışdır. "Lənkəranlıdır, Rusiyada yaşayır" rubrikasında Rusiyanın Çerepavets Şəhər Daxili İşlər Şöbəsinin baş leytenantı Sadiq Məmmədovun həyat və fəaliyyəti öz əksini tapır. E.Əhədov Rusiyada olarkən həmyerlimizlə görüşərək yazmışdır: "Sadiq Vətəndən uzaqlarda yaşasa da, doğma Azərbaycanın adını həmişə uca tutub" ***(1994, № 3).***

"Bir cənub şəhərində" başlığı altında verilən xəbər və məktublarda (1991, №4, səh.1) günün reallıqlarından söz açılır. Onların əksəriyyətində müəllifin imzası yoxdur. Bu da ondan irəli gəlirdi ki, məktub müəllifləri düşəcəkləri hər hansı vəziyyətdən ehtiyat edir, ya da daşıdıqları vəzifəni itirəcəklərindən çəkinirdilər. "Atüstü müsahibə" yazısında jurnalist Zahir Əmənov yazır: "Rayonlardakı sovxoz direktorlarının bir neçəsi satdıqları yemin yerini doldurmaq üçün Beyləqan-İmişli zonasından ot almaqdan qayıdarkən İmişlinin geniş düzənliklərində çadır şəhərciyi yanında xarici jurnalistlərlə rastlaşırlar.

Jurnalistimiz: "Bu geniş düzənləri, torpaqları görərkən öncə hansı duyğuları keçirdiniz?" sualına direktorlardan biri belə cavab verir:

-Nə fikirləşəcəm. Bu torpaqların yarısını versələr mənə, 6 sotuğun 100 min rubldan satıb yem də alaram, inək də alaram, hələ bir-iki şirkət də açaram" *(1991, № 4, səh.4)*.

Qəzetin həmin səhifəsində oxuculardan Səyyad Həsənov "Kobud sürücü", İsabala Xankişiyev "Böyüyə hörmət etsən…", Z. İsmayılova "Çörək əldə satılanda", Fərid Hüseynov və İxtyar Hüseynov "Dərslik baha olanda", Qulam Şəfiyev "Yararsız bina - köhnə məktəb" yazılarında rastlaşdıqları, şahidi olduğu nöqsanları göstərməklə iradlarını bildirirlər.

Qəzetin cəmi 7 nömrəsi çıxmasına baxmayaraq, ətrafına çoxlu sayda oxucu toplamışdı. Qəzetin 1-ci nömrəsində 51 məktub verilmişdisə, 2-ci nömrədə redaksiyaya daxil olan məktubların sayı 60-a çatırdı. Sonrakı nömrələrdə də məktublar ardıcıllıqla davam edirdi.

Qəzetlə əməkdaşlıq edənləri beş qismə ayırmaq olar:

1.Daimi çıxış edənlər:

Kamal Rəhmanov, Hacıbala Əbilov, Şaban Şəfiyev, İsabala Xankişiyev, Əlimərdan Nəsirov, Hüccətülla Məmmədov;

2.Tanınmış imzalar:

Şeyx Allahşükür Paşazadə, Şəkər Aslan, Məmmədhüseyn Əliyev, Əlyar Səfərli, Qabil Quliyev, Samid Qulamov;

2.Hərdənbir yazanlar:

Ağamir Cavad, Camal Paşa, Aslan Aslanov, Maqsud Məmmədov, Miryəhya Hətəmov;

4. İmzasız çıxış edənlər:

Qəzetin səhifələrində imzasız yazılar da var.

Əslində baxanda qəzetin hər nömrəsi canlı tariximizdir, illər keçdikcə yaddaşımızda dərin izlər buraxıb.

Respublikada ictimai-siyasi vəziyyətin çox gərgin olduğu bir dövrdə müxbirlər təkcə Lənkəranda deyil, bölgənin ətraf rayonlarında da baş verən hadisələrə öz münasibətini bildirirlər. Dərin müşahidə qabiliyyətinə malik olanlar peşəkar qələmi və yorulmaz axtarışları ilə olduqca maraqlı, bənzərsiz fakt və məlumatlar ortaya qoyurdular. Zəfər Orucoğlu, Rövşən İmanov (Lerik), Həsənağa Əliyev, İsa İbadov, Asif Abbaszadə (Masallı), Hacıbala Əbilov, Əlimərdan Nəsirov, İltifat Əhmədov, Ağaddin Babayev, Azad Zülaloğlu, Sərraf Talıbov (Lənkəran), Sakitağa Kərimov (Astara) və başqaları yazdıqları məktublarında təkcə quru statistik məlumatlar deyil, daha çox diqqəti cəlb edən maraqlı təhlillər yer alırdı.

Bu sətirləri yazarkən Cəlil Məmmədquluzadənin sözləri yada düşür: "Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olur-gedir, amma söz qalır". Doğrudan da qiymətli sözlər kitabxanalarda, arxivlərdə, xatirələrdə heç vaxt ölmür. "Lənkəranın səsi" qəzeti də millətin görən gözü, döyünən qəlbi idi. Cəmi 7 nömrəsi çıxsa da, özündən sonra yaddaşlarda bir iz qoyub getdi.

"Aşkarlıq" bu qəzetin davamı oldu.

# III BÖLMƏ

# "AŞKARLIQ" – 30 YAŞLI QƏZET



## QƏZETİN BAŞLICA MÖVZULARI

Lənkəranın yazılı salnaməsinə çevrilmiş "Aşkarlıq" qəzetinin ilk sayının işıq üzü görməsindən 30 il keçir. Qəzet 30 illik fəaliyyəti dövründə həyatımızın bütün sahələrinə nüfuz edərək Lənkəranın tarixi salnaməsinə çevrilmişdir. Qəzet təkcə Lənkəranda deyil, respublikamızın digər mətbuat orqanları arasında da aktuallığı və oxunaqlığı ilə seçilmişdir. Səhifələri vərəqlədikcə hiss edirsən ki, ötən dövrdə qələm sahibləri sözün gücündən, qələmin qüdrətindən bacarıqla istifadə edərək nəsillərə örnək ola biləcək zəngin irs qoyub getmişlər. Həqiqət isə belədir: milli mətbuatımız, o cümlədən "Aşkarlıq" qəzeti bütün dövrlərdə xalqa yaxın olmuş, onun istək və arzularına çıraq tutmuşdur. Qəzetin əməkdaşları tarix boyu Azərbaycan dilinin saflığını, jurnalist peşəsinin şərəf və ləyaqətini qorumuş, mətbuatımızın ən yaxşı ənənələrini yaşatmışlar.

"Aşkarlıq" respublikamızın cənub bölgəsində ilk müstəqil qəzetlərdən biri olmaqla 1995-ci ildən fəaliyyət göstərir. Həmin ilin avqustun 23-də ilk nömrəsi işıq üzü görən qəzet ötən 30 il ərzində dövlətçiliyimizin, milli ideologiyamızın keşiyində dayanaraq cəmiyyətin, çoxsaylı oxucuların tribunasına çevrilmişdir.

"Aşkarlıq" ilk illərdə təkcə Lənkəranda deyil, respublikamızın müxtəlif bölgələrində, o cümlədən Naxçıvan, Bakı, Sumqayıt, Zaqatala, Qax, Salyan, Biləsuvar Cəlilabad, Masallı, Astara, Lerik, Yardımlı kimi şəhər və rayonlarda da yayılmış,

çoxsaylı mətbuat orqanları arasında özünəməxsus yer tutmuşdur. Qəzet respublikada yeganə mətbuat orqanıdır ki, üç dildə - Azərbaycan, talış və rus dillərində çap olunur, əsasən abunə yolu ilə, ayda iki dəfə səkkiz səhifə həcmində 1000 tirajla yayılır.

"Aşkarlıq" müstəqillik dövründə milli mətbuat salnaməsində öz yerini şərəflə tutan, bölgə mətbuatının inkişafında mühüm xidmətləri olan bir tribunadır. Qəzetin ilk nömrəsi 2 min tirajla Lənkəran mətbəəsində çap olunub, 4 səhifədən ibarət olub. Respublika Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır *(Şəhadətnamə, № 459)*. Baş məqalədə qəzetin vəzifə və məqsədləri açıqlanmışdır. "Aşkarlıq işığında" adlanan baş məqalədə yazılır: "… Bilirik ki, indiki dövrdə şərəfli söz yükünü daşımaq asan deyil.

Azərbaycan xalqının bugünkü həyatını obyektiv işıqlandırmaq, milli ideologiyamızın formalaşmasında, müstəqil dövlətimizin möhkəmlənməsində fəal iştirak etmək kimi vəzifə biz mətbuat işçilərinin üzərinə düşür…

Qəzetimizin səhifələrində həyatımızın bütün sahələrini işıqlandıracağıq. Respublikamızda ictimai-siyasi vəziyyət, sosial problemlər, adamların istək və arzuları ilə bağlı yazılar qəzetdə həmişə öz əksini tapacaq…

Qəzet o zaman qüdrətli və ictimai tribunaya çevrilir ki, oxucunun mənəvi ehtiyacı, istək və arzuları burada öz əksini tapsın. "Aşkarlıq" indiki qəzet bolluğunda sözün əsl tribunasına çevriləcək."

22 il "Lənkəran" qəzetinin redaktoru işləmiş şair Şəkər Aslan "Aşkarlıq" qəzetinin ilk sayının çapdan çıxması münasibətilə kollektivi təbrik edərək yazırdı: "Arzu edirəm ki, "Aşkarlıq" uzun ömürlü bir qəzet olsun! Onun səhifələrində hər söz üçün məsuliyyət duyulsun. ! " *("Aşkarlıq", 23.08.1995)*.

Şəkər Aslan fikirlərini yeni yazdığı "Söz azadlığı" şeiri ilə tamamlayır və deyir:

*Sözlə alqışladıq biz Azadlığı,*
*Sözün də gül kimi öz ətri, iyi…*
*Artdıqca ölkədə söz azadlığı,*
*Artsın hər kəlmənin cavabdehliyi.*

Elə həmin nömrədə "Astara" qəzetinin redaktoru Sakitağa Kərimov, "Xalq qəzeti"nin müxbiri İsaq Əmənullayev və "Həyat" qəzetinin bölgə müxbiri Tofiq Hüseynov qəzetin ilk nömrəsinin çapdan çıxması ilə əlaqədar ürək sözlərini yazmışlar.

Sonrakı səhifələrdə Şaban Şəfiyevin məktublarında Qarabağ şəhidləri Fərail Əliyev və Ədalət Hüseynov haqqında söz açılır. "Aktual söhbət" rubrikası ilə "Cinayətkarlara aman yoxdur" mövzusunda Lənkəran polis şöbəsinin rəisi, polis polkovniki Allahverdi Əliyevlə, Əlillərin sosial müdafiə fondu Lənkəran şöbəsinin müdiri Qəhrəman Hüseynovla müsahibələri verilmişdir. Publisist Hacıbala Əbilovun "Haradasan Uruzbəy?!" yazısı Çeçenistanın Qroznı şəhərindən olan dostunun fədakarlığından, doğma el-obasına bağlılığından danışılır.

Həmin nömrədə Xanhüseyn Səfərovun "Bəd yuxu" yumoristik hekayəsi, şair Hüccətülla Məmmədovun şeirləri, "Günümüz, güzəranımız" rubrikası ilə problem yazılar da maraq doğurur.

Qeyd etmək lazımdır ki, qəzetin birinci nömrəsində Lənkəranın ictimai, sosial mədəni həyatından bəhs edən 11 xəbər, Hirkan Universitetinin rektoru, professor Tarıverdi Əzizovla müsahibə, müxtəlif mövzuda elanlar və s. yazılar dərc olunmuşdur.

İlk nömrədən hiss olunur ki, qəzet öz fəaliyyətini "Azərbaycan Respublikasının Konstitusiyası və Kütləvi İnformasiya Vasitələri haqqında" Qanuna uyğun olaraq qurmuşdur. Təsadüfi deyildir ki, ilk nömrədən başlayaraq, qəzetdə oxucuları düşündürən, maraqlandıran, narahat edən məsələlərdən

söz açılır, konkret faktları üzə qoyur. Nəşrə başladığı ilk günlərdən başlayaraq, qəzet öz ətrafına professorlar Əjdər Ağayev, Məsudi Dövran, o cümlədən publisist və müxbirlərdən Hacı İdris Cəfərov, Həsənağa Əliyev, Hacıbala Əbilov, Hacı Mirnağı Həsənov, Xudaverdi Cavadov, Əlisəfa Həsənov, İltifat Əhmədov, Şaban Şəfiyev, Etibar İsmayılov, Yəhya Hətəmov, Azad Zülaloğlu, Asif Abbaszadə, İldırım Şükürzadə, Əliağa Eynullayev, Fikrət Ağazadə, şairlərdən Hüccətulla Məmmədov, Elşad Səfərli, Nadir Müzəffər, Nurəddin Rəhimov, Nadir Əhmədov kimi istedadlı qələm sahiblərini öz ətrafına toplamışdı.

Qəzetin 7 oktyabr 1995-ci ildə çap olunmuş ikinci nömrəsi Lənkəran Şəhər İcra Hakimiyyətinin sərəncamları ilə açılır. 2-ci və 3-cü səhifələrdə oxuculara "Günün mövzusunda" rubrikası ilə müxbirlərin yumoristik yazıları çatdırılır. "Poeziya guşəsi"ndə professor Məsud Dövran və fransız dili müəllimi Nadir Əhməd yeni şeirləri ilə oxucuları tanış edirlər. Sonrakı səhifələrdə Lənkəran notariat kontorunun müdiri Zəkülla Əmənov müxbirin şəxsi və ümumi mülkiyyət haqqında suallarını cavablandırır. 4-cü səhifədə ad günləri, idarə və təşkilatlardan elanlar dərc olunub

Qəzetin 3-cü (21.X.1995) və 4-cü (04.XI.1995) saylı nömrələri Milli Məclisə deputatlığa namizədlər Hüseynağa Qəniyev və Yaşar Rzayevə həsr edilməklə, onların həyat və fəaliyyəti, proqramları seçicilərə çatdırılır.

Bununla yanaşı, qəzetin həmin nömrələrində Lənkəranı əks etdirən xəbərlər, şeir və qəzəllər, müxtəlif publisistik yazılar, o cümlədən xeyriyyəçi-sahibkar Ayaz Məmmədov haqqında "Tişə ustası" oçerki verilmişdir. Oçerkdə qəhrəmanın həyatı, fəaliyyəti, eyni zamanda el-oba üçün gördüyü xeyirxah işlər öz əksini tapmışdır. Müəllif E.Əhədov yazır ki, Ayaz el-obaya bağlı adamdır, ömrünün mənasını xalqa xidmətdə görür.

Qəzetin əksər materialları 2,5 kvadrata yığılmış, səhifələr 5

sütuna bölünərək "Xalqın səsi - haqqın sədası" başlığı ilə çapa verilmişdir.

"Aşkarlıq" 8 mart 1999-cu il tarixdən başlayaraq 8 səhifə həcmində çapdan çıxır. Bu nömrədə "Sirli-soraqlı dünya" rubrikası ilə Biləsuvarlı Hacı Mirsultan Mirsultanovun həyat yolu və xeyriyyəçilik hərəkatı öz əksini tapmışdır. Bundan sonra qəzetin formatı dəyişilmiş, gah 2, gah 2,5, gah da 3 və ya 4 kvadrata yığılaraq 3 - 4 və ya 5 sütuna bölünmüşdür.

Qeyd edək ki, qəzetin bu nömrəsi çox çətinliklə başa gəlmişdir. Qəzetin baş redaktoru yazır ki, "Bir qış gecəsində "Aşkarlıq" qəzetinin çapına gedərkən metrodan çıxanda necə olursa yolu azır. Nə qədər axtarsa da üz tutduğu ünvanı tapmır. Torpaq yolla hara getdiyini kəsdirə bilmir. Yağış ara vermir. Maşın da görünmür ki, saxlatdırsın. Nağıllarda yazıldığı kimi, az gedir, çox gedir, amma zil qaranlıqdan çıxa bilmir. Bakının şimal küləyinin təsirindən ağacların yerə əyilib qalxması, vəhşi heyvanların səs verə-verə yanından ötüşməsi onda bir anlığa vahimə yaradır. Qabaqda insan hənirtisi eşidəndə ürəklənib səsini qaldırır. Qabaqdakılar bir andaca özünü kolluğa atıb yoxa çıxırlar. Hiss edib ki, qoyun oğrularıdır, çünki onların arxasında qoyun mələrtisini aydın eşitmişdi. Uzaqdan elektrik işığı gəlirdi. İşığı nişan alır, nə qədər yol getdiyini bilmir, amma səhərə yaxın özünü geniş bir yol ayrıcında görür. Həmin gün "Aşkarlıq" qəzetinin yeni sayını əlinə alanda bütün yorğunluğu yoxa çıxır. Xasiyyəti belədir. Mətbuatda çalışdığı ötən illər ərzində qəzetin hər sayını səbirsizliklə gözləyir. Özünün dediyi kimi, daim qəzetlə yaşayıb, qəzetlə nəfəs alıb…"

"Lənkəran" qəzetinin redaktorluğundan kənarlaşdırıldıqdan sonra bir müddət işsiz qalmışdı. Amma qələmini yerə qoymamış, Lənkəranın iqtisadi, sosial-siyasi və mədəni həyatına aid saysız-hesabsız oçerk və publisistik yazıları təkcə Azərbaycanda deyil, həmçinin MDB respublikalarının müxtəlif mətbuat orqanlarında, o cümlədən Moskvada çıxan "Pravda",

"İzvestiya", "Trud", "Selskaya jizn", "Qlasnost" qəzetlərində, "Oqonyok", "Sovetskaya jizn" jurnallarında çap olunmuşdu. Müxtəlif mətbuat orqanlarından aldığı qanorarla ailəni dolandırmışdı.

## QƏZET JANRLARI VƏ ONLARA VERİLƏN TƏLƏBLƏR

“Aşkarlıq" adi kütləvi informasiya vasitəsi deyil, eyni zamanda Azərbaycan müstəqil mətbuatının inkişafı və möhkəmlənməsi istiqamətində az da olsa köməyi dəyən etibarli bir tribunaya çevrilmişdir. Qələm sahibləri ötən 30 il ərzində istək və arzularını aydın, doğru, düzgün şəkildə yol göstərən bir çıraq olmuşlar.

Qəzetin oxucu auditoriyası aydan-aya, ildən-ilə genişlənib. İlk illər Lənkəranda, sonralar qonşu rayonlarda, çox keçməmiş Naxçıvan, Sumqayıt, Quba, Xaçmaz, Sabirabad rayonlarında və digər yerlərdə müxbir postları yaradıldı. Onlarla telefon əlaqəsi yaradırlır, sonra da qəzet nüsxələri müxtəlif nəqliyyat vasitələri ilə fəal müxbirlərə çatdırılırdı. Qəzetin çapı üçün vəsait ailə büdcəsindən yığılırdı. Vəsait çatışmayanda yaxın dost, qohum-əqrabaların köməyindən istifadə edilirdi. Təsadüfi deyildir ki, yazıçı Hacı Hafiz Mirzə "Olaylar" qəzetində yazırdı: "Aşkarlıq" qəzetinin yeganə sponsoru da Hacı Etibar Əhədovun özüdür. Kimsənin üzərində dili və iddiası olmasın deyə, heç kəsdən maliyyə vəsaiti ummur və istəmir. Aldığı təqaüdlər, mükafatlar, ailəsinin qənaət toplantıları bu qəzetin əsas maliyyə qaynağıdır. Nə vaxtsa əmək haqqı vermək problemi olmasın və ya adına kənar sözlər gətirməsin deyə qəzetə başqa kimsəni işə götürməyib. Olan az sayda abunə də şərti xarakter daşıyır. Min nüsxə ilə çap olunan qəzetin böyük hissəsi paylanılır, Azərbaycanın digər yerlərində yaşayan soydaşlarımıza, hətta

Rusiyaya da göndərilir. Hacıların, Kərbəlayıların tez-tez ehsan verdiklərini, imkansızlara əl tutduğunu, yardımlar etdiyini çox eşitmişdik, amma illər boyu qəzet ehsan edən Hacı yəqin ki, bütün dünyada bir nəfər olar. O da lənkəranlı, "Aşkarlıq" qəzetinin baş redaktoru Hacı Etibar Əhədovdur."

Hacı Hafiz Mirzə daha sonra yazır: "Hər bir qəzet həm də onu dərc edən redaktorun simasıdır. "Aşkarlıq" qəzeti də büsbütün baş redaktorun mətbu obrazıdır" deyə bilərik. Qəzetin yazdığına görə, qəzetin ofisi Hacının ailəsi ilə birlikdə yaşadığı kiçik mənzili, əsas işçisi isə kiçik oğlu Araz olub. Araz Lənkəranda kompüter tədrisini və nəşriyyat işini mükəmməl bilən bəlkə də yeganə şəxs kimi tanınır. Yerli müəlliflərin bir çoxunun kitablarının və qəzetlərin yığımını bu gün də məhz Araz həyata keçirir. "Aşkarlıq"ın baxımlı və düzgün yığılmasında Arazın az xidməti olmayıb.

"Aşkarlıq" hər şeyi açıq-aşkar və olduğu kimi göstərməyə çalışır. Çalışır ki, özünü qərəzdən, məddahlıqdan və diqtələrdən qoruya bilsin. Qəzetin bir vəzifəsi də əsl həqiqəti aşkar etmək, üzə çıxartmaq, xalqa çatdırmaqdır. "Aşkarlıq" bu missiyaya köklənib, amma daha çox xoş olan, müsbət emosiya doğuran həqiqətləri üzə çıxartmağa çalışıb. Bu da daha çox baş redaktor Hacı Etibarın özünün şəxsi xarakterindən doğan təzahür idi. Lənkəranda onu xoş siması və işıqlı fikirləri ilə tanıyırlar. Hacı imanlı, düzgün, doğruçu və ədalətli kışidir. Hacı sözü pula satmaz, Hacının sözü kimsədən qorxmaz və Hacı öz sözünü dəyişməz! Yerli yazarlar daha yaxşı bilir ki, Hacı Etibar nə qədər təmkinli, səbrli, müdrik bir kişidir! Onun öz həyatına aşkarlıq prizmasından baxdıqda qəzet səhifələrinə və kitablara sığmayacaq qədər zəngin, maraqlı, kədərli və həm də fəxarət dolu hadisələrlə qarşılaşırsan" *(Hafiz Mirzə. "Olaylar", 09. 2015)*

Milli mətbuatımızın 135 illiyinə həsr edilmiş konfransda Dövlət Dəstəyi Fondunun nümayəndələri, bölgədə buraxılan qəzetlərin redaktorları iştirak edirdilər. İcra hakimiyyətinin o

dövrdəki başçısı T. İbrahimov çıxışında qeyd etdi ki, Lənkəranda mətbuat həmişə fəal olmuş, xüsusən də müstəqillik illərində onun rolu artmışdır. Deyildi ki, jurnalistlər cəmiyyətimizdəki bütün proseslərində yaxından iştirak edir və mətbuat - dövlət münasibətləri də inkişaf yolundadır *(21.07.2010)*.

**QƏZETDƏ XƏBƏR.** "Aşkarlıq" öz səhifələrində diqqəti cəlb edən xəbərlərə geniş yer ayırıb. Qəzetin hər nömrəsində müxtəlif mövzuda və müxtəlif formada xəbərlər dərc olunub. Xəbərlərin tematikası dövrünə görə zəngin, forması rəngarəngdir. Qəzet çalışır ki, xəbərlər operativ, dövrün istiqamətinə uyğun olsun. "Aşkarlıq"da verilən xəbərlər cəmiyyətə, kütlələrin siyasi-mədəni inkişafına, gənclərin mənəvi tərbiyəsinə xidmət edir. Belə xəbərlər kütlələrin qüvvəsini birliyə, səfərbərliyə səsləyir.

"Tərəqqi və yüksəlişin təməli" *(18.02.2011)* adı ilə dərc olunmuş xəbər Lənkəranda "İnkişafın Azərbaycan modeli" kitabının müzakirəsinə həsr edilmişdir.

İcra hakimiyyətinin təşkil etdiyi "dəyirmi masa"da Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov açaraq bildirdi ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi strategiyası bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilir.

İndi ölkəmizdə bütün sahələr üzrə inkişaf gedir. Yaxşı haldir ki, qəzet oxucunu maraqlandıran, diqqəti cəlb edən xəbərin ən yaxşı nümunələrini öz səhifələrinə çıxarmağa çalışır. Baş redaktorun fikrincə, xəbər hazırlanarkən diqqət bir məsələyə yönəldilməlidir. Müxtəlif məsələlərdən söz açan xəbərlər isə söz yığımına çevrilir, diqqət ona verilməlidir ki, xəbərin əsasını təşkil edən fakt və rəqəmlər günün tələblərinə uyğun olsun.

Qəzetdə 3-10 sətirdə verilən xəbərlər "Qısa sətirlər", "Xəbər" və s. rubrikalar altında dərc olunur. Bu cür xəbərlərə qəzetin hər nömrəsində rast gəlinir. Yaxşı cəhət burasıdır ki,

qəzetdə vaxtaşırı "Geniş xəbər", "Oçerkvarı xəbərlər" də verilir. Belə xəbərlərə təkcə fakt göstərilmir, hadisələr bədii şəkildə şərh edilir, başqa yazılardan fərqlənir, müəyyən dərəcədə bədiiliyi ilə seçilir. Baş redaktorun qeyd etdiyi kimi, oçerkvarı xəbərlərin həcmi bir qədər geniş ola bilər. "Xilaskar" *(30.11.2019),* "Məmməd Araz" ağacı" *(18.04.2001)* kimi oçerkvarı xəbərləri buna misal göstərmək olar.

"Məmməd Araz" ağacı" Astaralı şair Taarif Əsgərin ustad şairə Yeni il töhfəsi olmuşdur. Xəbərdə deyilir: "Taarif Əsgərin Astaradakı həyətində yetişdirdiyi "Məmməd Araz" naringi ağacı ilk məhsul vermişdir. Şair T. Əsgər naringi məhsulları Məmməd Araza iş otağında ərməğan etmişdir."

Qəzetin 6 dekabr 2017-ci il tarixli nömrəsində verilmiş xəbərdə deyilir: "2013-cü ildə Moskva vilayətində çayda iki azərbaycanlı uşağı xilas edərkən suda boğulmuş Lənkəranın Viyən kəndindən olan Salam Nağıyev ölümündən sonra Rusiya Fövqəladə Hallar Nazirliyinin medalına layiq görülüb.

Medalı Salamın atasına Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov təqdim edib. Qəzetdə Sergey Lavrovla Salam Nağıyevin atasının da şəkili verilib.

"Xilaskar" sərlövhəli xəbərdə isə Lənkəranın Vilvan kəndindən olan Qarabağ veteranı Yusif Quliyevin hünərindən söz açılır. Deyilir ki, həmyerlimiz Rusiya Fövqəladə Hallar Nazirliyinin xüsusi mükafatına layiqi görülüb. Y.Quliyev özünü təhlükəyə ataraq Tula vilayətində qəzaya uğramış nazirliyin rəhbər işçilərindən biri A. Salixovu və ailəsini ölümdən xilas etdiyinə görə bu mükafata layiq görülmüşdür *(30.11.2019).*

"Bölgələrdən xəbərlər" yazısı Bakıda keçirilən Lənkəran günlərindən danışılır *(21.06.2016)*. Məlumat verilir ki, iştirakçılar Lənkəranın sosial-iqtisadi inkişafını, zəngin mədəni irsini, adət-ənənələrini, mətbəx nümunələrini, folklorunu, dekorativ tətbiqi sənət ustalarının əl işləri, bölgənin turizm imkanlarını əks etdirən sərgi ilə tanış olurlar.

**KORRESPONDENSİYA.** Maraqlıdır ki, "Aşkarlıq"da hər bir janrın öz yeri, öz rolu vardır. Korrespondnesiya qəzet janrları arasında əsas yerlərindən birini tutur. Qəzetin baş redaktoru deyir ki, korrespondensiyanı məqalə və ya oçerklə eyniləşdirmək olmaz. Onların da mənaca öz xüsusyyətləri var. Hərə janr etibarı ilə müəyyən bir bir xətti və ya bir ideyanı inkişaf etdirir.

Onlar arasında oxşar cəhətlər də vardır. Həsənağa Əliyevin "Gecikmiş məktub" (29.01.2013), Fəyaz Qasımzadənin "Traktorçu bacılar" (29.01.2013), Nağı Şükürovun "Bir insanın taleyi" (11.12.2014), Kəmalə Səfərovanın "Təbiət və sənət vurğunu" (28.05.2021) sərlövhəli yazılarını oxuduqca inanırsan ki, mövzular düzgün seçilməklə, eyni zamanda müşahidə olunan hadisələr ədəbi şəkilə salınmışdır. Müəlliflər bir qayda olaraq qələmlərinə hörmət və məsuliyyətlə yanaşmışlar.

"Aşkarlıq"da hesabat xarakterli yazılara da rast gəlinir. Bu hesabatlar rəsmi yığıncaqlardan, müşavirələrdən hazırlanan yazılarda öz əksini tapır. Yaxşı cəhət burasıdır ki, "Aşkarlıq" bu mövzuda dərc olunan yazılarda sözçülüyə, şablon xarakterli ifadələrə rast gəlinmir. "Davamli inkişafın ünvanı: Lənkəran" (15.02.2019) məqaləsində 2015-ci ildə rayonun sosial-iqtisadi sahələrində görülmüş işlər və dövlət başçısı İlham Əliyevin Nazirlər Kabinetinin 2014-cü ilin yekunlarına həsr olunmuş çıxışlarından irəli gələn vəzifələr müzakirə edilib. "Gənclər Heydər Əliyev ideyalarına sadiqdirlər" (07.02.2018) ümumrayon konfransında gənclərin Lənkəranın ictimai-siyasi, iqtisadi və mədəni həyatında iştirakından, sosial problemlərin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi və digər sahələrdə görülən işlərdən söz açılır. "Yeniləşən, abadlaşan Masallı" (08.01.2014), "Lənkəranda II Çay, Çəltik və Sitrus festivalı" (16.11.2018), "Lənkəranda III Çay, Çəltik, Sitrus festivalı" (30.11.2019) hesabatlarında rayonlarda keçirilən uğurlardan söhbət açılır. Jurnalist Sərraf Talıbovun "Yaşıl

çay"da bayram" (25.05.2018) məqaləsində Lənkəranın İstisu qəsəbəsində "Yaşıl çay" MMC-nin çayçılıqla bağlı həyata keçirilən tədbirlər öz əksini tapmışdır. Qeyd olunur ki, fermer Araz Yaqubovun sözlərinə görə, tədarük olunan məhsul müəssisənin nəzdində yaradılmış mini çay sexində emal olunur.

**MÜSAHİBƏ.** "Aşkarlıq"da müsahibə janrından istifadə olunarkən müsahibinin şəxsi nüfuzu, vəzifəsi əsas götürülür. Müsahibə götürən müxbir söhbətdən kənar qalmır, çox vaxt özü də söhbətə qoşulur. Qəzetdə verilən müsahibələrin mövzu dairəsi genişdir. Maraqlı cəhət burasıdır ki, dövrlə səsləşən və ictimai maraq doğuran məsələlər onun oxunaqlığını daha da artırır.

Jurnalist faktları təhlil etməklə, həm də olanları oxuculara çatdırmağa səy göstərir. Bu baxımdan "Zeynal Nağdəliyev: "Lənkəran onu gözəlləşdirənlərin şəhəridir" (14.08.2005) sərlövhəli müsahibədə günün vacib məsələləri operativ işıqlandırılmış, materialın oxunaqlığını daha da artırmışdır. Müsahibədə Lənkəranda görülən işlər, qarşıda duran vəzifələr öz əksini tapmışdır.

Diqqəti çəkən cəhət odur ki, qəzetə çıxarılan müsahibələrin mövzu dairəsi geniş və rəngarəngdir. Dövrlə səsləşən və ictimai maraq doğuran məsələlər onun oxunaqlığını daha da artırır. "Allahın yolu ilə gedənləri Allah qoruyur" (15.10.2005) sərlövhəli yazı bu qəbildəndir. Bu baxımdan Qafqaz Müsəlmanları dini idarəsi sədrinin Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Əbdülqəni (Sədi) Axundzadə ilə müsahibə diqqət çəkir. Müsahibədə Lənkəran bölgəsində dinimiz, mənəviyyatımız yolunda həyata keçirilən tədbirlərdən söz açılır.

İki dəfə "Şöhrət" ordenli, II Dünya müharibəsinin veteranı Ağadadaş Səmədovla müsahibə "Unutmaq olmur" adı ilə oxuculara çatdırılır (19.07.2008). Qəhrəman eloğlumuz şahidi olduğu hadisələr haqqında oxuculara maraqlı məlumat verir.

Milli Məclis Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli ilə müsahibə ictimai maraq doğuran məsələlərə həsr olunmuşdur. "Qanın, məsuliyyət və cavabdehlik" adı ilə dərc olunan müsahibədə respublikada turizmin inkişaf etdirilməsi, pensiya islahatları, xalq-iqtidar birliyi haqqında söhbət gedir, qarşıdakı vəzifələr təhlil olunur (28.08.2018). Maraqlı cəhət burasıdır ki, müsahibədə ədəbi dil normalarına riayət edilmişdir.

Araz Əhədovun "Lənkərana gəlin… bura gözəl diyardır" (30.03.2010) müsahibəsi Lənkəran Mədəniyyət və Turizm İdarəsinin müdiri Vasf Fərzullayevlədir. Müsahibədə Lənkəranda mədəniyyət və turizm sahəsində görülən işlər və qarşıdakı vəzifələr müzakirə olunur.

Əməkdar müəllim Füzuli Qasımovun "Doğmalaşan tələbəm" oçerkində (10.01.2014) Əməkdar müəllim Mehriban Rəcəblinin həyat yolu vərəqlənir. Müəllif Mehriban xanımın həyat və pedaqoji fəaliyyətini maraqlı və diqqəti cəlb edən epizodlarla təsvir edir.

30 illik dövrdə milli şüurun inkişaf yolunda bir sıra uğurlu imzalar atılmışdır. Maliyyə çətinlikləri üzündən az-az çap olunsa da, “Aşkarlıq”qəzeti Azərbaycanın iqtisadi, ictimai-siyasi, mədəni inkişafında baş verənləri doğru-düzgün işıqlandırmağa çalışmışdır. Diqqət ona yetirilib ki, ədəbi ictimaiyyətdə yeni imzalar üzə çıxsın. Qəzetin tutduğu mövqe və dəst-xətti ilk nömrələrdən oxucuların diqqət mərkəzində olub, yaradıcı gənclər üçün xüsusi tribuna rolunu oynayıb.

Mənəvi dəyərlərin təbliği və qorunmasında, milli şüurun formalaşmasında qəzetin xidmətləri az deyil. Qəzeti oxuyanlar mənəvi cəhətdən zənginləşir, saflaşırlar. Bu baxımdan "Ağsaqqal sözü", "Ziyalı tribunası", "Birliyimiz, mənəviyyatımız" kimi rubrikalar altında verilmiş müxtəlif janrlı yazılar diqqəti cəlb edir. Belə yazılar milli adət və ənənələrin, mənəvi dəyərlərin təbliğində əsas rol oynayır. Qəzetin səhifələrində respublikada,

onun hüdudlarından kənarda fəaliyyət göstərən, böyük nüfuz sahibi olan tanınmış ziyalılara, tarixi şəxsiyyətlərə də geniş yer ayrılır. "Bu yerin adamı", "Diaspor" rubrikası ilə verilən yazılar bu baxımdan diqqəti cəlb edir.

Qəzet pulsuz yayıldığına görə, kənar müəlliflər də qəzetə ehtiramla yanaşır, gördükləri, şahidi olduqları hadisələri qələmə almaqla, irad və təkliflərini də veririrlər. Oxucuların təklifi ilə qəzetdə ictimai əsaslarla yeni şöbələr açılmışdır.

Məktublar şöbəsi tərəfindən təkcə oxucu məktubları deyil, eyni zamanda bədii yazılar da verilir. Qəzetin 19-cu sayında (3.10.1999) "Oxucu məktubları" rubrikası altında Ucar, Qəbələ, Lerik rayonlarından, Sumqayıtdan Ramiz Allahverdiyevin "Səsimizi eşidən yoxdur", Hacı Mirnağı Həsənovun "Camaatı işıqsız qoymayın", "Yükdaşıyan" tənqidi məktublarında əhalini narahat məsələlərdən söz açılır. Həmin nömrədə Sumqayıtdan şair Süleyman Hüseynovun, Lənkərandan Xudaverdi Cavadovun, Təranə Əliyevanın yeni şeirləri də verilmişdir.

**NAXÇIVANDAN məktublar .** Qəzetin müxtəlif nömrələrində Naxçıvan və onun tanınmış şəxsiyyətlərinə həsr edilmiş məktublar vardır.

Yazılar Naxçıvana ezam edilmiş İ. Cəfərov və E. Əhədovun imzaları ilə dərc olunmuşdur (dekabr, 1999 və fevral 2000). "Nehrəmə uzanan yollarla" başlığı altında verilmiş müsahibə və publisistik yazılarda Naxçıvan səhiyyə naziri Hacı Əqil Mehdiyevin müsahibəsi, Nehrəm kənd xəstəxanasının tibb bacısı Zümrüd Abdullayeva haqqında oçerk və səfər təəssüratından müxbir qeydləri verilmişdir.

Hacı Etibar Əhədov Naxçıvan səhiyyə naziri Hacı Əqil Mehdiyevlə müsahibədən sonra Lənkəranın səhiyyə tarixindən bəhs etdiyi "Ömrə sevinc paylayanlar" kitabını ona hədiyyə etmişdir. Bir müddətdən sonra Hacı Əqil Mehdiyev "Aşkarlıq" qəzetinin redaktoru ilə telefon əlaqəsi saxlayaraq kitabın təsiri altında Naxçıvanın səhiyyə tarixindən maraqlı bir əsər yazıl-

dığını və qəzetin redaktoruna minnətdarlığını bildirmişdir.

Qəzetdə yazılır: "Yeni salınmış yolla yuxarı qalxarkən Rusiya televiziyasının şərhçisi, "Kino səyahəti klubu"nun məşhur aparıcısı Yupi Senkeviçlə rastlaşdıq, o, "Əshabi-Kəhf"lə bağlı film çəkdiyini bildirdi. Hacı İdris Cəfərov 1969-cu ildə Misir Ərəb Respublikasında onunla görüşdüyünü bildirəndə Yuri Senkeviç gülümsündü:

-Norveç səyyahı Tur Heyerdalın komandasında "Ra" papirus qayığı ilə Atlantik okeanını üzməyə hazırlaşırdıq.

-Siz həm də heyətin həkimi idiniz, - deyə Hacı İdris Cəfərov əlavə etdi.

-Tamamilə düzdür, -Yuri Senkeviç bildirdi."

Qəzet bu sözlərlə bitir: "Biz Naxçıvanda olduğumuz iki həftə müddətində elinin-obasının vurğunu olan, doğma yurdunun təəssübkeşliyini çəkən, nəcib və xeyirxah əməllərilə yaşayan qeyrətli insanlarla görüşdük, onların istək və arzularını öyrəndik" (№11-12, 1999).

Qeyd edək ki, qəzet əməkdaşlarının səfər təəssüratından sonra "Nehrəm və hacıları" kitabı nəşr olunmuşdur *(Göstərilən ədəbiyyat, B., 1999)*.

"Zaqatala "etüdləri" tənqidi yazı ictimai müxbirimiz Mirnağı Həsənovun imzası ilə dərc olunmuşdur. "Günümüz, güzəranımız" başlığı ilə verilən yazıda rayondakı mədəniyyət evində olan problemlərdən söz açılır. "Adamlar, talelər" rubrikası ilə verilən "Pozulmaz izlər" publisistik yazısı respublikanın müxtəlif rayonlarında hərbi komissar işləmiş Hacıəli Səfərovun həyat və fəaliyyətinə həsr olunmuşdur.

Qəzetin nəşri ilk vaxtlar asan başa gəlməmişdir. Bu 30 ildə çox şey dəyişilib, amma qəzet öz əqidəsinə, tutduğu mövqeyə sadiq qalıb. Baş redaktorun qeyd etdiyi kimi, dövlətçiliyimizi, birliyimizi, həmrəyliyimizi, iqtisadi yüksəlişimizi təbliğ etməklə sözümüzü çatdırmışıq. İlk illərdə qəzetin çapına maneələr də olub, bəzən vəsaitin çatışmazlığı üzündən qəzet vaxtında,

ardıcıl çap edilməyib, amma bütün hallarda kollektiv qəzeti yaşatmağa çalışıb.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, "Aşkarlıq"dan əvvəl, 1992-ci ildə "Lənkəranın səsi" qəzeti təsis olunmuşdur. Amma qəzetin cəmi 7 nömrəsi işıq üzü gördü. Yerli məmurlar tərəfindən qəzetin qarşısına haqsız tələblər qoyuldu. Bundan sonra "Aşkarlıq" qəzeti təsis edildi. Baş redaktorun qeyd etdiyinə görə, çətinliklərə baxmayaraq qəlbimizin odunu, gözümüzün nurunu, işığını səpələyə-səpələyə onu yaşatdıq, "ölməyə" qoymadıq.

-Şərəf və ləyaqətini qoruyan hər bir jurnalist özünə hörmət etməyi bacarmalıdır, - baş redaktor yazır. - Jurnalist etikasından kənara çıxmadan, heç kəsdən təmənna güdmədən, heç kəsin cibinə göz dikmədən, abunə azlığına baxmayaraq, "Aşkarlıq" fəaliyyət göstərmişdir.

**Qəzetdə OÇERK.** Yaxşı haldır ki, müəlliflər qəzetdəki oçerk və publisistik yazılarında fakt və hadisələri müəyyən süjet xətti ətrafında inkişaf etdirmiş, mövzu ətrafında təsvir olunan qəhrəmanları oxucuya inandırıcı şəkildə çatdıra bilmişlər. Bu baxımdan "Şaxanım" (23.01.2001) oçerkinin qəhrəmanı hünəri, qorxmazlığı ilə oxucunu heyrətə gətirir. Sevindirici haldır ki, oçerkin müəllifləri İ.Cəfərov və E.Əhədov mövzuya uyğun inandırıcı təsvir vasitələri tapmış, qəhrəmanın ətrafında cərəyan edən hadisəni oxucuya inandırıcı şəkildə çatdırması üçün maraqlı epizod qurmuşlar.

"Arxa cəbhənin qəhrəmanları" səpkisində yazılan "Şaxanım" oçerkində oxucunun nəzərində çətinlkidən qorxmayan, bərkə-boşa düşsə də oxucunun nəzərində cəsur bir qəhrəman kimi canlanır. Müəlliflər bununla kifayətlənmir, qəhrəmanın zəngin mənəvi aləmini də təsvir edir. Şaxanım əsgər ailələrini də fikirləşir, qonşularında ac-yalavac qalan uşaqları sevindirmək qayğısına qalır. Heç olmasa ovladığı balıqları gözləri qapıda qalan ailələrə çatdırmaq istəyir. Müəlliflər burada qəh-

rəmanın xarakterini psixoloji cəhətdən açır. Oçerkdə təsvir olunan hadisə və düşüncələri həyəcansız oxumaq olmur. Hiss edirsən ki, Şaxanım obrazı adi bir zəhmətkeş kənd qadının taleyi deyil, çoxsaylı əsgər ailələrinin ümumiləşdirlimiş hekayətidir.

Şaxanımı oxucuya sevdirən nədir? Əlbəttə qələbəyə inam! Arxa cəbhədə gecəni gündüzə qatan Şaxanımın gərgin əməyi, şirin xəyal və arzuları oçerkdə olduqca inandırıcı verilmişdir. Oçerki həyəcansız oxumaq olmur. "Şaxanım ayağa durub döşə qalxdı və o dəm də soyuq xəzrinin güclü axınına düşdü. Nə qədər göz gəzdirsə də atını bağladığı yerdə tapa bilmədi. Dayanıb bir müddət ətrafa qulaq verdi. Bərgah tərəfdən çöl quşlarının sədası, Ürgə səmtində isə cəbhəyə yük daşıyan paroxodların adda-budda səsindən başqa bir şey eşitmədi. Dönüb kəndə tərəf boylandı. Kənd dərin sükuta və qatı zülmətə qərq olmuşdu. "Bu çər dəymiş də hara yox oldu?" - deyə öz-özünə sordu və bir müddətdən sonra aşağıya - bəndin üstünə endi. O, əyilib həsirin altından dədə-babadan qalma köhnə, yamaq görmüş heybəsini çıxartdı və balıqları bir-bir içərisinə doldurdu…

…Sol tərəfdə döşdə, zil qaranlıqda kiminsə onu təqib etdiyini hiss etdi. Ayaq saxlayıb çağırdı:

-Ey, kimsən?!

Bir səs çıxmadı. Bir az irəliləyib yenidən yoluna davam etdi. Qarşıda yenə böyük bir qaraltı duydu və hayladı:

-Ay adam, kimsən?!

Bu dəfə də çağırışı haysız qaldı… Qarşıda qaraltı gah qalxır, gah da enirdi. Şaxanımı xof götürdü. İçindən xəfif bir gizilti keçdi.Qarşıdakı qaraltını nişanə alıb tətiyi çəkdi, tüfəng açlmadı. "Kişilər cəbhəyə gedəndən tüfənglərimiz də açılmır" fikirləşdi.

Təzədən baş barmağı ilə çaxmağı çəkdi. Bu dəfə atəş səsi araya çökmüş sükutu pozaraq kəndin başı üstündə əks-səda yaratdı.Tüfəng açlan kimi nişangahdan nə isə zingildənib başı-

aşağı yuvarlandı. Diqqət yetirdikdə yerdə yekə, bədheybət bir canavarın dişlərini qıcırdaraq gözlərini ona zilləmiş olduğünü gördü. Şaxanım yabanı gözlərini ona zilləmiş canavara tərəf endirdi…"

Yaşar Rzayevin Heydər Əliyevin Lənkərana səfərlərinə həsr edilmiş "Böyük ömrün anları" (14.10.2008), Mirhaşım Talışlının "Mirhüseyn Abbas" (17.11.2009), Araz Əhədovun Ukrayna Cənub Yolları İdarəsinin rəis müavini İlkin Nurullayev haqqında "Vətənə layiq oğul" (18.09.2009), E.Əhədovun Əməkdar ticarət işçisi Şamməd Əsgərovun həyat və fəaliyyətini əks etdirən "Bənzərsiz ömür" (05.03.2009) oçerk və publisistik yazıları da nümunə ola bilər.

Oçerk bədii-publisitik janrdır. "Aşkarlıq"da verilən oçerk və publisistik yazılardan görünür ki, müəlliflər əsasən oxucunu maraqlandıran süjet xətti qurmağa çalışmışlar. Bu xətt əslində faktlara əsaslanır. Oçerkləri oxuduqca görürük ki, burada verilən hadisələr bir-birini tamamlayır, qəhrəmanın xarakteri açıldıqca oçerkin süjetinin hekayə janrında olduğunu görürük. Müəllif oçerkdə irəli sürülən ideyanı oxucuya təsirli bir şəkildə çatdıra bilmişdir.

Oçerkdə təsvir olunanlar bir həyat hadisəsidir. Təbiidir ki, oxucular belə hadisələri böyük həvəslə qəbul edirlər. Mehman Fərzullayevin "Cənnətdə görüşənədək" (05.09.2008), Araz Əhədovun "Cavid Talışlının Yerevan səfəri" (05.09.2008), Səlim Ağayevin "Ömrün işıq payı" sərlövhəli oçerk və publisistik yazılarında hadisələr gərginləşən bir xətt üzrə inkişaf edir. Oxucu hadisəni həyəcanla izləyir. Müəlliflər bu yazılarda qəhrəmanların xarakterini aydın və bariz şəkildə göstərməyə çalışırlar.

Asif Quliyev, Ramiz Hüseynov, Nijad Mikayılzadə, Hacı İdris Cəfərov, Həsənağa Əliyev, Mehman Fərzullayev, Ayaz Əhmədov, Ramiz Atakişiyev, Əlisəfa Həsənov və başqaları oçerkin kamil nümunələrini yaratmışlar. Onların yaradıcılığında gözəl ifadə tərzi, oxucunu düşündürən hadisələr var.

Jurnalist E.Əhədovun başqa bir oçerkində gözəl başlangıcı var: "75 yaşın mübarək, cənab mayor!" (03.08.2021) oçerki belə sözlərlə başlanır: "Qayğılı-qayğısız uşaqlıq illəri Port-İliç (indiki Liman) şəhərindən başlanır."

Oxucu qəhrəmanın daxili aləminə bələd olduqca Təyyarın keçdiyi həyat yolu gözlərinin önündə canlanır. Təsvir olunan süjet xətti inandırıcıdır, təbiidir. Təyyarda vətənpərvərlik hissi güclüdür, Qarabağ uğrunda canını qurban verməyə hazırdır. O, Azərbaycandan kənarda milis sahəsində işləyərkən Vətənə qayıtmış, Qarabağın azadlığı uğrunda mübarizəyə hazır olduğunu bildirmişdir.

E. Əhədovun "Sabaha böyük inamla" (23.06.2020, № 5-6) oçerkinin mərkəzində 90-cı illərin vətənpərvər oğlu Yaşar Məmmədov cərəyan edir. O, müxtəlif illərdə Lənkəranda rəhbər vəzifələrdə işləyib, ictimai-siyasi həyatın müxtəlif sahələrində öz sözünü deyib. Söhbət müstəqillik illərində yeni həyat uğrunda mübarizədən gedir. Müəllifin fikrincə hələ çatışmazlıqlar çoxdur, ölkədə müasir inqilabi dəyişikliklər dövründə yeni ideologiyaya uyğunlaşmaq asan deyil. Müstəqillik uğrunda mübarizə gedir, bir tərəfdən də qarşıya mühüm vəzifələr qoyulub. Müəllif yeni mübarizə şəraitində Yaşarın hazırkı mühitlə necə mübarizə apardığını görürük. Qəhrəmanın zəngin mənəvi aləmini açarkən müəllif onun şəxsi həyatını, dostluq və sədaqətini, çəkdiyi əziyyətini, irəliyə doğru yüksəliş yollarını da təsvir etməyə çalışır.

Yaşar qorxmazdır, mübarizdir, vətənpərvərdir, qarşı tərəflə dialoqa girərkən təmkinliyi ilə seçilir. Danışığı, hərəkətləri inandırıcıdır. Yazıda qəhrəmanın düşüncəli hərəkətlərini gördükdə, qarşısına çıxan maneələri aradan qaldırdıqda müasir dövrün qəhrəmanı kimi Yaşarın mübarizə istiqamətini görürsən. Hiss edirsən ki, müəllif şüurlu həyatını xalqa, doğma el-obasına həsr etmiş Yaşarın mənəvi psixologiyasını obyektiv və inandırıcı şəkildə verməyə çalışır.Yaşar yeni düşüncə, həyata

yeni münasibəti baxımından yanaşmağı bacarır. Oçerkin qəhrəmanı deyir ki, ömür insana ona görə verilmir ki, özün üçün yaşayasan. Yaşar müəllim cəmiyyət üçün gördüyü işi şəxsi işindən həmişə üstün tutub.

Qeyd olunduğu kimi, oçerk bədii-publisistik janrdır. "Aşkarlıq"da dərc olunan oçerk və publisistik yazılardan görünür ki, müəlliflər əsasən oxucunu maraqlandıran süjet xətti qurmağa çalışmışlar. Bu xətt əslində real faktlara əsaslanır. "Sovet kəndi"nin keçmiş baş redaktoru, ondan əvvəl indiki “Lənkəran” qəzetinin şöbə müdiri olmuş Asif Quliyev ""Leninin büstü, dənizin balığı, bir də..." (03.03.2021) publisistik yazısında quru məlumatdan qaçır, faktlar necə gəldi səpələnmir. Əslində baxanda buna ehtifac da yoxdur. Fikirləşəndə oçerkin məzmunu həyat hadisələrindən götürüldükdə daha real və inandırıcı görünür.

Yazıda hadisələr qəhrəmanın hiss və həyəcanları diqqəti çəkən orijinal bədii vasitələrlə təqdim olunur. Hiss edirsən ki, müəllif şüurlu həyatını xalqa, doğma el-obasına, mətbuata həsr edən Vaqif Hüseynov və redaksiyanın digər əməkdaşlarının mənəvi psixologiyasını obyektiv və inandırıcı şəkildə verməyə çalışmışdır.

Müəllif öz yazısında Lənkəranda rayon qəzetində işlədiyi dövrü peşəkarcasına təhlil edir, xatirələri necə gəldi səpələmir. Əslində buna ehtiyac da yoxdur. Fikirləşəndə oçerkin məzmunu həyat hadisələrindən götürüldükdə daha real görünür.

"Aşkarlıq" qəzeti redaktorunun qeyd etdiyinə görə, biz jurnalistlər Asif Quliyev kimi peşəkar jurnalistlərin "şinelindən" çıxmışıq. Müəllifin digər oçerk və publisistik yazıları haqqında da eyni sözləri demək mümkündür. Şöhrət Cəfərov və Etibar Əhədov "Tərlan belə Tərlanlır" (05.05.2020) oçrkində qəhrəmanın zəngin mənəvi aləmini açarkən onun şəxsi həyatını, dostluq və sədaqətin, çəkdiyi əziyyəti, qazandığı yüksəliş yollarını da olduğu kimi təsvir etməyə çalışırlar. Hiss edirsən ki,

müəlliflər süjet xəttinin mərkəzində dayanmış qəhrəmanın həyat və fəaliyyətini addım-addım izləyir, öz qəhrəmanlarını çətin, ağır sınaqlardan keçirirlər.

Araz Əhədov "Ömrün mənası" (26.01.2010) zarisovkasını 100 yaşlı Kamal Kələntərlinin şərəfli ömür yoluna həsr edib. Müəllifin "El-obanın fəxri" (26.01.2010) zarisovkası isə Kanadanın Vaterboo Universiteti Birləşmiş Ərəb Əmirliyinin Dubay filialının rektoru, professor İlham Axundov haqqındadır. Müəllif yazır ki, İ.Axundov Vətəndən uzaqlarda təkcə elmi fəaliyyəti ilə öz işini bitmiş hesab etmir. O, həm də Azərbaycan həqiqətlərini dünyanın müxtəlif ölkələrində yayır. Müxbir məlumat verir ki, İ.Axundov Kanadada yaşayan azərbaycanlıları bir yerə yığaraq "Azərbaycan Cəmiyyəti" yaratmışdır.

Fyaz Qasımzadə "Səma şahini" (30.03.2010) oçerkində Lənkəranın Kənarmeşə kəndindən olan təyyarə bələdçisi Təranə Feyziyevadan söhbət açır. Məlum olur ki, həmyerlimiz 90-cı illərdə 6 min saatdan çox uçuş keçirmişdir.

Hacı Mehman Fərzullayevin "Mən onu belə tanıyırdım" (08.04.2001) oçerki yazıçı-jurnalist Ağaddin Mansurzadə, Azad Zülaloğlunun "Xatirəmdə yaşayan sənətkar" yazısı (24.04.2010) yazıçı Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyev, Qasım Zeynalovun "Böyük həyat yolu" Əməkdar həkim Cəlil Hacıyev (24.04.2010), Ramiz Hüseynovun "Ömür yolları" (18.11.2020) Əməkdar kənd təsərrüfatı işçisi Səadət Tağıyev, Dövlət Fətullayevin "Kaman da ağlayarmış" (28.08.2018) Boladi kəndindən qabaqcıl maarif xadimi Həsən Fətullayev, Etibar Əhədovun "Bir dünya sevinc" (29.03.2018) oçerki tanınmış iş adamı Məhəmmədhüseyn Cəfərov haqqındadır. Bu yazılarda qəhrəmanların fəaliyyətindən maraqla söhbət açılır, həyat və fəaliyyətləri nümunə göstərilir.

Xalqımız öz vətənpərvər, fədakar övladları ilə həmişə fəxr edib. Uzun illər diplomatik sahədə uğurla çalışan, xaricdə ölkəmizi ləyaqətlə təmsil edən Surxay Əliyev belə şəxslərdəndir.

E.Əhədovun "Sən həmişə bizimləsən, Surxay Əliyev!" (12.09.2023) oçerkini oxuduqca qəhrəmanın keçdiyi həyat yolu gözlərimizin önündə canlanır. Təsvir olunan süjet xətti təbii və inandırıcıdır. Müəllif yazıda Surxayın uşaqlıq və gənclik illərini göstərməklə qəhrəmanın psixoloji aləmini bacarıqla açır. İnanırsan ki, Surxayı el gözündə ucaldan doğma Azərbaycana, el-obaya məhəbbəti, yurd sevgisidir.

Müəllim Aydın Əliyevin "Xalqa güvənən igidin arxası yerə dəyməz" (18.12.2015) oçerki Masallı rayonunun Mahmudavar kəndində anadan olmuş ictimai xadim, Prezident təqaüdçüsü Şirvan Əbilovun ömür yolu və ictimai fəaliyyətinə həsr olunub. Oçerkdə hadisələr qəhrəmanın hiss və həyəcanları bədii vasitələrlə olduğu kimi təqdim olunur.

Tarix üzrə fəlsəfə doktoru Cəmil Quliyevin "Vətənə sədaqət andı" (12.09.2023) oçerkində müəllif quru məlumatdan qaçır, faktlar necə gəldi səpələnmir. Əslində buna ehtiyac da yoxdur. Oçerkin məzmunu həyat hadisələrindən götürüldüyündən daha real görünür. Yazıda Astara Rayon İcra Hakimiyyətinin başçısı işlədiyi dövrdə 1993-cü il avqust hadisələrində separatçılarla mübarizədə hünər göstərmiş İbrahim Quliyevin vətənpərvərliyindən geniş söhbət açılır. Deyilir ki, İ. Quliyev Astarada polis rəisi işləyən dövrdə dəfələrlə ölümlə üz-üzə dayansa da geri çəkilməyib, separatçılarla qətiyyətlə mübarizə aparıb.

Oçerk bu sözlərlə bitir: "İndi cənubda sabitlikdir, Respublikamızda milli birlik təmin edilib. Daha heç bir qüvvə milli birliyimizi, azərbaycançılıq ideologiyamızı sarsıda bilməz. Nə qədər ki, dahi Heydər Əliyev ideyalarına və dövlətçiliyə sadiq qalan İbrahim Quliyev kimi vətənpərvər övladlarımız var Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və titanik fəaliyyəti ilə ölkəmiz daha yksək zirvələr fəth edəcəkdir."

Aydın Xan Əbilovun "İntellektual gəncin real həyat

mövqeyi" publisistik yazısı İctimai Nəzarət Komissiyası və Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi İB-nin fəal üzvlərindən biri Ramal Əliyev haqqındadır. Müəllif yazır ki, "Belə sağlam düşüncəli gənclərimizin, sözün hər mənasında, zəmanəmizin işgüzar cavanlarının sayı durmadan artır" (27.06.2019).

E.Əhədovun "Tişə ustası (04.11.1995)", Ş.Şəfiyevin "Fəxr ediləsi oğul" (08.03.1999), H.Əbilovun "Palıdın vida nəğməsi", X.Cavadovun "Ata ürəyi" (01.08.1999) oçerklərini oxuduqca görürük ki, buradakı hadisələr bir-birini tamamlayır. Müəlliflər qəhrəmanın xarakterini açdıqca oçerkin süjetinin hekayə janrına düşdüyünü görürük. Hiss edirik ki, müəlliflər yazılarda irəli sürülən ideyanı oxucuya təsirli bir şəkildə çatdıra bilmişlər. Təsvir olunan hadisələr bir həyat hadisəsidir. Təbiidir ki, oxucular belə hadisələri böyük həvəslə qəbul edirlər.

Əlbəttə, oçerkdəki hadisələr gərginləşən bir xətt üzrə inkişaf edir. Oxucu hadisəni həyəcanla izləyir. Müəlliflər qəhrəmanın xarakterini açmaqla onun daxili aləmini, hiss və həyəcanlarını aydın, həm də bədii şəkildə göstərirlər.

Digər oçerk və publisistik yazılarında da maraqlı təsvir vasitələrindən istifadə edilmişdir. Ramiz Hüseynovun "Babasının babasının babası" (25.03.2018) publisistik yazısı 168 il ömür sürmüş Şirəli Müslümov haqqındadır. Müəllif planetimizin ən yaşlı sakini ilə görüşündən yazarkən qeyd edir ki, Şirəli Müslümov 3 dəfə ailə qurub, 136 yaşında qız övladı dünyaya gəlib, 23 övladı olub.

Həsənağa Əliyevin (Masallı) "Vüqarını dağdan aldı" (25.06.2017), İltifat Məhərrəmoğlunun "Mənalı yaşanan ömür payı" (25.10.2017), Rəfael Rzayevin Sosialist Əməyi Qəhrəmanı Səmayə Əliyevadan bəhs etdiyi "Böyük həyat yolu" (25.10.2017), Elnur İmanovun "Görkəmli alim, tanınmış arxeoloq" professor Qüdrət İsmayılzadə (12.03.2015), Musa Xanbabazadənin "Ömrün 60-cı dayanacağı" oçerki

(12.03.2015) boks üzrə əməkdar məşqçi Əlizadə Əsədov haqqındadır. Müəlliflər qəhrəmanların həyat və fəaliyyəti haqqında qeydlərini oxucuya maraqlı faktlarla çatdırırlar.

Qəzetin müxtəlif nömrələrində İsa İbadov (Masallı), Əhliman Quliyev (Yevlax), Bahaddin İbrahimov, Gülağa Cəfərov (Lənkəran), Əziz Hacıyev, Mövsümə Hüseynova (Ağdaş), Nəriman Həsənov (Ağstafa), Vidadi Məmmədov (Gəncə), V.Rüstəm (Qazax), Yusif Bağırov (Bərdə) və başqalarının imzaları ilə dərc olunmuş oçerk və publisistik yazılar da diqqət çəkir.

## QƏZETDƏ SOSİAL HƏYAT MƏSƏLƏLƏRİ

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq cənub bölgəsini əhatə edən rayonlarda bütün sahələrdə sürətli inkişaf vardır. Bununla əlaqədar bölgədə həyata keçirilən işlər barədə "Aşkarlıq" qəzetində müxtəlif janrda yazılar öz əksini tapmışdır.

Mirnağı Həsənovun "Camaatı işıqsız qoymayaq" (05.10.1999) tənqidi məktubundan sonra Azərbaycan Respublikası  Yanacaq və Energetika Nazirliyi Salyan rayonlararası "Azərenerji idarəsinin nümayəndələri xətlərə baxış keçirmiş, aşkar edilən nöqsan aradan qaldırılmışdır (04.12.2002).

"Şəhər təsərrüfatı: yeni tələblər, mühüm vəzifələr" müxbir qeydləri 2010-cu illərin yekunlarına həsr olunur. Göstərilir ki, Lənkəranda abadlıq-quruculuq işləri artmış, elektrik, qaz təchizatı, su-kanalizasiya sisteminin qurulmasına diqqət artmışdır. Əhaliyə içməli suyun verilməsi təmin edilmişdir (30.03.2010).

E. Əhədovun "Yeniləşən Lənkəran" məqaləsində şəhər təsərrüfatında görülən işlər təhlil olunur. Göstərilir ki, abadlıq işlərinin daha da yaxşılaşdırılması məqsədilə Lənkəranda

Abadlıq kombinatı və Mənzil İsismar Müəssisəsinin bazasında şəhər Mənzil İctimai və Kommunal Müəssisələri İdarəsi yaradılıb (03.06.2010).

Sosial həyat mövzusunda Araz Əhədovun "Lənkərana gəlin, bura gözəl diyardır" sərlövhəli yazı oxucuların xahişi ilə hazırlanmışdır. Burada şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Vasif Fərzullayevin müsahibəsi verilir (30.03.2010). Yazıda turizmlə bağlı yeniliklərdən söz açılır.

Qida zəhərləmələri törədən məhsulların satışına nəzarətin gücləndiriməsi ilə əlaqədar qəzetin iştirakı ilə 2010-cu ilin iyun ayında Lənkəranda reyd keçirilmişdir. Reyddə şəhər İcra Hakimiyyətinin, səhiyyə, müxtəlif idarə və təşkilatların, o cümlədən "Aşkarlıq" qəzetinin nümayəndələri iştirak etmişlər. Reyd zamanı aşkar edilmişdir ki, həqiqətən də rayonun ərazisində vaxtı keçmiş, mənşəyi məlum olmayan və qida zəhərləmələri törədən məhsulları satılır. Reyd iştirakçılarının qərarı ilə istifadəyə yararsız məhsullar dezinfeksiyadici dərmanlarla zərərsizləşdirilmişdir. Reyd zamanı 1 ticarət obyektinin fəaliyyəti dayandırılmış, 3 nəfər inzibati qaydada cəriməyə cəlb edilmişdir. Həmçinin reyd zamanı 210-dan çox müəssisə və təşkilatın şəhər Abadlıq kombinatı ilə xidməti müqavilənin bağlanması, yerləşdikləri ərazidə standatlara uyğun məişət tullantısı qablarının yerləşdirilməsi təmin edilmişdir (03.06.2010).

Son illərdə şəhər təsərrüfatında görülmüş işlər və qarşıya qoyulan vəzifələr "Problemlər var" müxbir qeydlərində öz əksini tapmışdır (27.10.2010).

"Yeniləşən, abadlaşan Masallı" adı ilə verilən publisistik yazı Masallıda aparılan uğurlu nailiyyətlərdən xəbər verilir (08.01.2014). Qeyd olunur ki, 2013-cü ildə Masallı respublikamızın Folklar paytaxtına çevrilib. Prezident İlham Əliyev Masallda olarkən rayon Mərdəniyyət Mərkəzinin açılışında iştirak edib.

"Gözəlləşən, müasirləşən Qaradağ" oçerki Bakının Qara-

dağ rayonu sosial-iqtisadi inkişafı ilə əlaqədar həyata keçirilən işlərdən xəbər verilir. E. Əhədovun yazısında qeyd olunur ki, Qaradağın indiki icra hakimiyyətinin başçısı bundan əvvəl Lənkəranda işləmişdir. Müəllif yazır ki, Qaradağda işlədiyi az vaxt ərzində Lənkəranda topladığı təcrübəni burada da tətbiq etmişdir (29.03.2015).

"Lənkəranın dünəni və bu günü" sərlövhəli yazı bu sözlərlə başlanır: "Baxın, keçmiş Lənkərandan əsər-əlamət qalmayıb. Lənkəran yeniləşib, boy atıb. Hiss edirsən ki, Lənkəran işıqlı yoldadır, şəhərin nəbzi normal döyünür, adamlarda qələbəyə inam artıb, iş üslubu dəyişib." Yazıda daha sonra Prezident İlham Əliyevin Lənkərana səfərlərindən, rayonda görülən işlərdən sevinclə söhbət açılır. Müəllif yazır ki, ümummilli lider Heydər Əliyev siyasətinin alternativi yoxdur (28.08.2018).

Müxbirin "Problemlər var..." (27. 10. 2010) sərlövhəli məktubunda Lənkəranda olan sosial prblemlərdən söz açılır. Məktubla bağlı qəzetə 17 nəfərin imzası ilə şikayət məktubu daxil olmuşdur. "Məsuliyyətsizlik, yoxsa biganəlik" adı ilə "Yazdıqlarımıza qayıdırıq" sərlövhəli yazıda qeyd olunur ki, məktubda qaldırılan şikayət həll olunmuş, mikrorayonda kombinat binaları ərazisi abadlaşdırılmış, səliqə-sahman yaradılmışdır. Qəzetin çıxışından sonra ərazidə istirahət meydançaları yaradılmışdır (06.01.2011).

Müxbir məktubundan sonra T. İsmayılov küçəsində avtobus dayanacağı qaydaya salınmış, adamların küçəyə çıxması üçün keçid düzəldilmişdir (06.01.2011).

"Tədbir görülmüşdür" cavab məktubunda bildirilir ki, Akademik Zərifə Əliyeva küçəsində - kombinat binaları ərazisində məişət tullantılarının daşınması üçün münasib yerlər ayrılmışdır (18.02.2011).

"Z.Əliyeva, yoxsa B.O.Abbasov küçəsi?" sərlövhəli məktubda Baloğlan Abbasovun adını daşıyan küçədə onun adının ləğv edilməsinə baxmayaraq, hələ də üzərində adı

yazılmış lövhələrin qalması tənqid olunurdu. Qəzetin çıxışından sonra köhnə lövhələr küçədən götürülmüşdür (18.02.2011).

Sərxan Əsgərovun "Yaxşıya yaxşı deyiblər" (26.06.2008) məktubunda Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılovun fəaliyyətinin bəzi məqamlarından söz açılır. Məktubda qaldırılan məsələlər oxucuların müzakiərsinə verilib. Müzakirədən sonra redaksiyaya daxil olan məktubların bəziləri qəzetin səhifələrinə çıxarılıb. Bununla əlaqədar "Söz və iş", "İcra başçısının yanında", "Bir görüşün təəssüratı", "Xeyirxahlıq" və s. məktublarda icra başçısının gördüyü işlər göstərilmişdir (05.09.2008).

Sərxan Əsgərovun kəndin sosial həyatından bəhs edən "Kənd öz kəndlilik simasını itirirsə" (25.05.2009) məktubunda oxucunu narahat edən, düşündürən problem məsələlər qaldırılır. "Yeniləşən Lənkəran: şəhər təsərrüfatında vəziyyət necədir" sualı ilə əlaqədar qəzetdə qaldırılan müzakirə razılıqla qarşılanıb. Məktublardan aydın olur ki, ötən dövrdə qəzetin çıxışından sonra Lənkəran şəhərində abadlıq-quruculuq artmış, qaz, elektrik enerjisi, su təchizatı, kanalizasiya sistemi sahəsində həyata keçirilən işlər daha da yaxşılaşmışdır (18.09.2000). Müzakirə olunan məsələ ilə əlaqədar müxbirlər sakinlərlə görüşmüş, arzu və təkliflərini cavablandırmışlar. Yazı "Yeniləşən Lənkəran" adı ilə qəzetə çıxarılmışdır (18.09.2009). Qəzetin həmin nömrəsində Odessa şəhərindən Lənkərana qonaq gəlmiş A.Sadirovun da məktubu verilmişdir.

Ötən illər ərzində "Aşkarlıq"da kənddə, eləcə də müxtəlif sahələrdə sahibkarlığın inkişafı mövzusunda bir sıra məzmunlu, diqqəti cəlb edən müxtəlif janrda yazılar dərc olunmuşdur. Sahibkarlığın inkişafına diqqət yetirilməsi sevindirici haldır. Qəzetdə bu məzmunda oçerk və publisistik yazılara, reportaj və zarisovkalara rast gəlinir. Bu baxımdan "Lənkəranda III Çay, Çəltik, Sitrus festivalı" (30.11.2019) sərlövhəli publisistik yazı diqqət çəkir. Oxucular festivalda

nümayiş etdirilən "Çayımızın dadı var", "Lənkəran düyüsü-dilbər əzbəri", "Sitrus bağlarının möcüzəsi" sərgi - pavilyonlarda Lənkəranda yetişdirilən say, çəltik, sitrus, digər növ ərzaq və sənaye məhsulları, xalq sənətkarlığı nümunələri ilə tanış olurlar.

Lənkəranda sahibkarlığın inkişafı ilə əlaqədar dərc olunan yazılar tutarlı, maraqlı faktlarla işıqlandırılmışdır. Xanhüseyn Səfərovun "Sabaha ümidlə" (07.10.1995) məqaləsi Lənkəranın Şağlakücə kəndində təməli 1989-cu ildə qoyulmuş "Maral" heyvandarlıq kooperativi haqqındadır. “Aqrar islahatlarda Zaqatala "modeli" (01.08.1999) sərlövhəli publisistik yazıda bu istiqamətdə görülən uğurlu nəticələrdən məlumat verilir. Ştatdankənar müxbir Mirnağı Həsənov yazır ki, rayonda xüsusi mülkiyyətçiliyə diqqət artmışdır.

Araz Əhədovun "İlyasçay" nümunə göstərir" (03.06.2010), Rəfail Rzayevin "Böyük həyat yolu" (15.03.2022) məqalə və publisistik yazılarında hiss edirsən ki, müəlliflər mövzu seçərkən qəzet janrının tələblərinə uyğun forma seçmişlər. Məqsəd aydındar. Qəzetə çıxarılmış mövzulardan görünür ki, yerlərdə sahibkarlığın inkişafına, bu istiqamətdə əmək təşkilinin yaxşılaşdırılmasına kömək məqsədilə qabaqcıl təcrübəni ümumiləşdirib yaymaqla bu mövzuda yazan qələm sahiblərinin də üzərinə mühüm vəzifələr düşür.

Bu və ya digər yazıları oxuyarkən hiss edirsən ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana ikinci qayıdışından sonra yerlərdə sahibkarlığa geniş meydan açılıb. Bu mövzuda yazılmış publisistik yazıları oxuyarkən aydın olur ki, yerlərdə sahibkarların iş təcrübəsi öyrəinilir. Məqsəd iş adamlarının təcrübəsini öyrənib ümumiləşdirməkdən ibarətdir.

Tanınmış iş adamı Hacı Məhəmmədhüseyn Cəfərov iqtisadiyyatı dərindən bilən, öz gəlirindən hansı sahənin xalqa daha çox faydalı olacağını düşünən işgüzar bir iş adamıdır. 1993-cü ildən sonra şəxsi sahibkarlıqla məşğuldur (29.03.2018).

1993-cü ildən rəhbərlik etdiyi "Diplomat" beynəlxalq firmasında sağlam mühit formalaşıb, fəaliyyətinə yaradıcılıqla yanaşır. Bu gün də belədir, təşkilatçılığı, ağıllı mühakimələri, faydalı tövsiyə və məsləhətləri ilə tabeliyində olan işçilərin məsuliyyəti artıb. İlk günlərdən alqı-satqı ilə məşğul olan firma müqavilə yolu ilə Türkmənistan, Özbəkistan respublikalardan gətirdiyi xam neft, həmçinin yüz tonlarla ət və yağ məhsullarını hərbi hissələrə paylayırdı. Milli Ordumuz təzə-təzə formalaşanda Hacı Məhəmmədhüseyn ağa müdafiə fonduna xeyli vəsait köçürüb, hərbi hospitallarda müalicə olunan yaralı döyüşçülərə maddi və mənəvi yardımlar göstərib. Lənkəranda neçə-neçə uşağın kiçik toyunu etdirib, rəhbəri olduğu müəssisələrdə bir neçə şəhid və qaçqın ailəsini işlə təmin edib, ehsanlar verib; qurbanlar kəsdirib, şəhidlər üçün "Quran", "Yasin" oxutdurub. Bunlar Hacı Məhəmmədhüseyn ağanın təmənnasız gördüyü xeyirxah işlərinin bir hissəsidir.

Son illərdə sahibkarlıq istiqamətində yeni uğurlara imza atılıb. Körpə uşaqların qidalanması üçün kimyasız, bioloji və natural məhsullardan uşaq qidaları hazırlayan Avstriyanın HİPP firmasının gəliri az olsa da, ekoloji cəhətdən təmiz və qatışıqsız olan qidaları minlərlə körpələrimizi sağlamlığa qovuşdurmuş, neçə-neçə ailəyə sevinc və xoşbəxtlik bəxş etmişdir.

Görüləsi işlər isə çoxdur. Ölkədə iqtisadi-sosial islahatlarla əlaqədar qarşıya mühüm vəzifələr qoyulub. Məhəmmədhüseyn Cəfərov tanınmış, təjrübəli sahibkar kimi ölkəmizin gələcəyinə inanır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana yenidən qayıdışından sonra dövlətçiyimizin qorunub inkişafında və daha da möhkəmlənməsində səyini əsirgəməyən, tanıdığı, inandığı adamlara müraciət etdi. 2002-ci il aprelin 25-də sahibkarlarla keçirilən müşavirədə Məhəmmədhüseyn Cəfərov da iştirak edirdi. Ulu Öndərin çıxışı bu gün də yadından

çıxmayıb. Heydər Əliyev dedi: "İndi Azərbaycanda böyük sahibkar təbəqəsi yaranıb. Sahibkarlar təbəqəsi Azərbaycan iqtisadiyyatının aparıcı bir hissəsidir…

Demək olar ki, indi bizim sosial-iqtisadi inkişafımız sahibkarların fəaliyyətindən asılıdır. Çünki əgər iqtisadiyyat özəlləşdirilibsə, yaxud onun böyük bir hissəsi özəlləşdirilibsə, demək, iqtisadiyyatın böyük bir hissəsi sahibkarların əlindədir və onların səmərəli işləməsi Azərbaycan iqtisadiyyatının inkişafını təmin edən amildir. Ona görə də biz buna dövlət siyasətimizin böyük bir hissəsi kimi baxırıq."

**HƏMRƏYLİK, TOLERANTLIQ...** Ölkədə 2017-ci ildə İslam Həmrəyliyi ili elan olunması ilə əlaqədar bu mövzuya "Aşkarlıq"da geniş önəm verilmişdir. Müxbirlərin həmin mövzuda qələmə aldıqları yazılar ictimaiyyət tərəfindən maraq və razılıqla qarşılanmışdır.

Multikultural və tolentral ənənələrin qorunması və təbliği istiqamətində Lənkəran bölgəsində aparılan işlərlə əlaqədar qəzetə çoxlu oxucu məktubu daxil olmuşdur. Müzakirə ilə əlaqədar ağsaqqallar və ziyalılar qəzetdə fikir və mülahizələrini bildirmişlər.

Təkcə Qafqazda deyil, bütün İslam dünyasında Azrbaycan şeyxülislamlıq məktəbinin görkəmli davamçılarından biri kimi tanınan Hacı Allahşükür Paşazadə ömrünün mənasını doğma Azrbaycanın tərqqisinə, dünyada və Qafqazda milli və dini münasibətlərin yaxşılaşmasına, xalqlar arasında tolerantlığın, multikultural dəyərlərin təbliginə, xalqın mənafeyinə xidmətdə görür. Gününü ibadət, ictimai və elmi fəaliyyətə həsr etmiş bu nüfuzlu, görkəmli din xadimi Şeyxülislam Hacı Allahşükür Paşazadnin adı bu gün bütün İslam dünyasında iftixarla çəkilir.

2017-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda "İslam həmrəyliyi ili" elan edilməsi din - dövlət münasibətlərinin yüksək səviyyədə təşkilində mühüm rol oynayıb. Cəmiyyətdə həyatı boyu bütün mənəvi-əxlaqi dəyərlərin

və milli mənəvi həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərən Şeyxülislam Hacı Allahşükür Paşazadə deyir ki, ölkəmizdə dini tolerantlıq mühiti yaranıb. Anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi ilə əlaqədar Lənkəranda keçirilən konfransda A.Paşazadə qeyd etmişdir ki, İslam dininin geniş yayıldığı cənub bölgəsi öz yüksk tolerantlıq mühiti ilə tanınır. Bu baxımdan bölgədə yaşayan xalqlar, etnoslar daim dini və milli dözümlülükdə bir-birlərinə dayaq və nümunədirlər. Azsaylı xalqların hüquqları hər zaman qorunub və ərazi bütövlüyümüzün qorunmasında qeyri-azərbaycanlılar da örnək ola biləcək vətənpərvərlik nümayiş etdirirlər (27.06. 2019).

Məktəb illərindən yaxşı tanıdığını qeyd edən qəzetin redaktoru yazır ki, Şeyx həzrətləri bu gün xalqın vətənpərvər övladı, haqqın, ədalətin gözünə dik baxan nüfuzlu, görkəmli din xadimi, qeyrətli və cəsarət simvolu, sönməz bir ulduzdur. Belə ulduzlar həqiqətən çox nadir hallarda olur. O da hörmətli, möhtərəm şeyx həzrətlərinə nəsib olub (E.Əhədov. “225-ci qəzet”,”Sönməz ulduz” 27.06.2019).

Qafqaz Müsəlmanları Ali Dini İdarəsinin toy və yas mərasimlərinin təşkili və keçirilməsi qaydaları, vəqf olunmuş qəbiristanlıq ərazilərində məzar yerlərinin satılması, dəbdəbəli qəbirüstü abidələrin ucaldılması və günümüzün reallığına aid olan bu kimi digər problemlərlə bağlı müraciəti olmuşdur. Bununla əlaqədar "Aşkarlıq" qəzetində "İslam dini toy və yas mərasimlərində israfçılığa yol verilməsinin əleyhinədir" mövzusunda müzakirə açılmışdır. Müraciət ziyalıların da ürəyindən olmuşdur. Lənkəran Ağsaqqallar Şurasının sədri Kamal Kələntərli və Lənkəran veteranlar şurasının sədri Musarza Əzimov müzakirənin ilk iştirakçılarıdır. "Qafqaz müsəlmanları idarəsinin müraciəti ürəyimizdəndir" - 100 yaşlı Kamal Kələntərli bildirir. - "Borc-xərclə yas qurmaq toy etmək ailəni çıxılmaz vəziyyətdə qoyur. İsrafçılığa yol verməkdənsə, uşaq evlərinə, im-

kansız ailələrə, kasıblara əl tutmağın savabı daha çoxdur. Dəbdəbəli qəbirüstü abidələrin götürülməsinin də əleyhinəyik" (27.07.2011).

Musarza Əzimov qeyd edir ki, qabaqlar ölü yiyəsinə kömək etmək, kədərinə şərik çıxmaq üçün ehsanı qonum-qonşular edərdilər. Bu gün isə imkanlı da, imkansız da sanki yarışa giriblər. Biz ağsaqqalların fikrincə, toy və yas mərasimləri dini dəyərlərə söykənməlidir (27.07.2011).

"Bu gün qəbiristanlıqlarda axirət gün üçün özlərinə yer zəbt edənlərə haqq qazandırmaq olmaz." - Müxbirimiz İldırım Şükürzadə müzakirəyə qoşularaq yazır.- Kimin axirət dünyasına kəfənlə gedib-getməyəcəyini Allah-taaladan başqa heç kəs bilməz. Hər gün neçə-neçə insanın nəqliyyat və dağıntı altında qalması, dənizdə boğulub meyitinin tapılmadığını eşidirik. Bunlar insanlara dərs olmalıdır" (03.05. 2012).

Lənkəran Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Ayətdin Əliyev yazır: "…Elə bir qurum yaratmalıyıq ki, bizə əzab verən, yolundan sapmış bir çox adətlərimizə yeni ruh, yeni istiqamət versin, islami dəyərlərdən xalqa xoşbəxlik, rahatlıq vermək prizmasından xidmət etməyə imkan versin.

Yaxşı adət-ənənələrimizi qorumaq müqəddəs işdir. Gəlin bu həqiqəti yaddan çıxarmayaq" (22.02. 2012).

Zəfər Əliyev, Rövşən İmanov (Lerik), Asif Abbaszadə (Masallı), Mətləb Axundov (Salyan) və başqaları belə qənaətə gəlirlər ki, insanın işi ilə əməli düz olmalıdır, hər bir Allah bəndəsi axirətdə öz əməlləri üçün cavab verəcək.

"Dinimiz, mənəviyyatımız" mövzusunda Tofiq Məcidovun "Həqiqətin yolunu "Quran" göstərir bizə" silsilə yazıları diqqəti cəlb edir (11.05.2016). Müəllif "Quran"a istinad edərək yazır: "Quran" hər iki dünyada Allahın istədiyi kimi insanın həyat yolunu müəyyənləşdirən və bəşəriyyəti doğru yola yönəldən, bəşəri dəyərləri insanlara göstərən hidayət kitabıdır."

Uzun illər Lənkəranın Separadi kənd məktəbinin direktoru işləmiş, sonralar müxtəlif yazıları ilə "Aşkarlıq" qəzeti ilə müntəzəm əlaqə saxlamış Şöhrət Cəfərov "Ağsaqqal sözü, şəxsi nümunə, tərbiyə məktəbi" publisistik məqaləsində yazır: "Müdriklərimiz övladlarını təkcə sözlə, nəsihətlə deyil, çox vaxt şəxsi nümunələri, ləyaqət və davranışları ilə tərbiyələndirirlər. Yadımdadır, ağsaqqallar deyərdilər ki, yaxşı adamlarla, mənəviyyatca təmiz insanlarla oturub-durun, çünki onlardan sizə zərər dəyməz. Ağsaqqallar ailədə də, cəmiyyətdə də artıq-əskik söz danışmazdılar. Həyatlarını ömür boyu qurub-yaratmağa həsr etmiş ağsaqqallar illər keçsə də yaxşı iş, xeyirxah əməlləri ilə yaddaşlarda qalmışlar (05.05.2020).

Jurnalist Barat Kərimovun "Haqq yolun bələdçisi" publisistik yazısı Lənkəranın Veravul kəndindən olan Axund Hacı Rais Nəzərov haqqındadır. Müəllif onun din, mənəviyyat yolunda gördüyü işlər haqqında məlumat verir.

Tofiq Məcidov "Yuxunun həqiqəti varmı" (03.04.2013), Etibar Əhədov "Dini-mənəvi abidələr - qəbiristanlıqlar" (15.02.2019), "Mənəviyyata həsr edilmiş ömür yolu" (27.06.2019), Şöhrət Cəfərov "İman, etiqad, mənəviyyat varsa" (03.03.2020), "Ağsaqqal sözü, şəxsi nümunə, tərbiyə məktəbi" (05.05.2020) və baqa müəlliflər qəzetdə dini dəyərlərə özünəməxsus münasibətlərini açıqlayır, multikultural və tolentral ənənələrin qorunması və təbliği sahəsində Lənkəran bölgəsində görülən işlərə münasibətini bildirirlər.

Lənkəranda indinin özündə də babalardan əmanət qalan gözəl bir ənənə yaşadılır. Xristanlıq, iudaizm və başqa dinlərə mənsub olanlar sülh və əmin-amanlıq şəraitində yaşayır, mənəvi cəhətdən bir-birlərinə dayaq, həyan olurlar. Dinimizi qəbul edən, Azərbaycan dilində sərbəst danışan ruslar və digr xalqların nümayəndələri həmrəylik nümayiş göstərərək novruz, pasxa və digər bayramlarda qonum-qonşulara baş çəkir, bayram sovqatları ilə bir-birlrinə sevinc bəxş edirlər.

Həqiqətən də Azərbaycan dövləti regionda və bütün dünyada sülhün, əmin-amanlığın və əmkdaşlığın bərqrar olmasına çalışır. Bu gün ölkəmizdə dini, milli və irqi ayrı-seçkilik yoxdur. Şeyxülislam Allahşükür Paşazadə ATƏT nümayndələri ilə görüşdə qeyd etdiyi kimi, Azrbaycanda olan tolerantlıq modeli digər dünya ölkələri üçün də örnək ola bilər.

**MƏKTƏB VƏ TƏHSİL**. Milli düşüncəmizin inkişafında, müstəqilliyimiz uğrunda mübarizədə təhsilimizin özünəməxsus rolu vardır. XIX əsrin axırlarından başlayaraq görkəmli ziyalılardan, tanınmış müəllimlərdən danışarkən Lənkəranın məktəb tarixindən də söz açmaq lazım gəlir. Qeyd etmək lazımdır ki, qəzetdə təhsil sistemində aparılan islahatlar, reallıqlar, bu istiqamətdə qarşıya qoyulan vəzifələr obyektiv surətdə ictimaiyyətə çatdırılmışdır. Bu baxımdan qəzetdə vaxtaşırı təhsillə bağlı müxtəlif janrda yazılara yer ayrılmışdır. Qəzetdə xəbər verilir ki, "Lənkəranda dördüncü sinif həcmində təhsil verən ilk dövlət məktəbi - "Pervonaçalnoye uçilişe" 20 fevral 1856-cı ildə açılmışdır. Həmin il dekabrın 12-də Seçenov familiyalı bir müəllim bu məktəbdə dərs demişdir. Azərbaycan dili və şəriət dərslərini Mirzə Səfər Məmmədov tədris etmişdir. Lənkəranda dünyəvi təhsil verən ilk məktəbin müəllimləri arasında Molla Mirzə Əli Axundovun, Mirzə Səidəli Kazımbəyovun, Mirzə İsmayıl Qasirin, Molla Əzizin də adını çəkirlər (03.04.2013).

Qəzet daha sonra tədqiqat və araşdırmalar əsasında məlumat verərək yazır: "XIX əsrin axırları, XX əsrin əvvəllərində Lənkəranda bir sıra yerlərdə birsinifli dünyəvi məktəblər fəaliyyətə başlamışdır. Onların arasında Bürcəli (1897, qarışıq - oğlanlar və qızlar üçün), Sarı (1907, qarışıq - oğlanlar və qızlar üçün), Viyən (1909, oğlanlar və qızlar üçün), Alekseyevka (indiki Bürcəli -1914, qadınlar üçün), Kərgəlan (1913, kişilər üçün), Lənkəran şəhər orta (1905, qadınlar üçün), Lənkəran şəhər orta (1911, oğlanlar və qızlar üçün), Lənkəran

rus-tatar (1911, oğlanlar üçün) məktəbləri vardı (Azərbaycan *MDTA, fond 309, op. 1, iş 890, səh.49-51)."*

"1918-ci ildə Lənkəranda qızlar üçün ayrıca bir məktəb açılmışdır. "Ünas" adlanan bu məktəb Teymur bəy Bayraməlibəyovun şəxsi malikanəsində yerləşirdi. Qızı Məryəm xanım Bayraməlibəyovanın dərs dediyi bu məktəbdə rus dili ayrıca fənn kimi tədris edilirmiş ( 22.07.2013).

Qəzet yazır: "Xalqın gələcəyi onun təhsili ilə bağlıdır. Heydər Əliyev bu barədə danışarkən demişdir: "Müəllim adı ən yüksək addır, mən dünyada müəllim adından yüksək ad tanımıram. Çünki hər birimizə bilik verən məktəbdir və orada dərs deyən də müəllimdir". Qəzet məlumat verir ki "Məktəblərimizdə şagirdlərin vətənpərvərlik, adət-ənənələr ruhunda tərbiyəsinə mühüm diqqət yetirilir. Qəzet bu barədə yazarkən ümummilli lider Heydər Əliyevdən misal gətirir və deyir: “Ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyində iştirak edərkən gurultulu alqışlarla onu qarşılayanlar arasında müəllimini görəndə ona yaxınlaşıb əlindən öpür, deyir ki, Əli müəllim, sən otur, sənin üçün ayaq üstə biz durmalıyıq".

Şöhrət Cəfərovun "Ağsaqqal sözü, şəxsi nümunə, tərbiyə məktəbi" (05.05.2020) publisistik yazısında deyilir: "Tarixdə müəllimə həmişə diqqət olub. İnqilabdan əvvəl Lənkəran şəhər dumasının sədri küçədən keçərkən o, qocaman müəllim Mirzə Ağəli Əliyevi görüb faytondan düşür və ona təzim edir, deyir ki, Mirzə, gəl səni faytonla aparım. Siz hörmətli şəxssiniz, siz kimi müəllimlərə böyük hörmətimiz var.

Cəmiyyət hər şeyi yaxşı görür və olanları olduğu kimi qiymətləndirir. Müdriklər yazırlar ki, dünya böyük bir məktəbdir. Təəssüf ki, bu məktəbdən keçənlər arasında müxtəlif fikirli adamlar da olur, cahillər də. Biri gecə-gündüz çalışır, uca mənsəblərə çatır, digəri isə özünə əziyyət vermir, qazandıqlarını sağa-sola sovurur, yəni cahillik edir. Vaxt, məqam gələndə isə etdiklərinə heyifslənir. Dünya gör-götür

dünyasıdır, camaat kimin kim olduğunu yaxşı bilir. Yolun yarısından qayıtmaq xeyirlidir."

Tanınmış, hörmətli müəllimlərimiz çoxdur. Bu gün hər bir Azərbaycan vətəndaşının bir şəxsiyyət kimi formalaşmasında, aldığı bilik və savada görə müəllimlərə borcludur. Mirzə Ağəli Əliyev, Mirzə İsaq Mövsümzadə, Nəsrulla Qənbərov, Əməkdar müəllimlərdən Hacı Mirhaşım Talışlı, Mirkərim Kazımov, Hacı Hacırza Kişiyev, Tağı Dadaşov, Məmmədsadıq Tahirli, Əyyub Əhmədov, Məmməd Ələkbərov, Dadaş Nabatov, Cahangir İbrahimov, Xalidə Hüseynova, Surxay Əkbərov, Firəngiz Şabanova, İman Mikayılov, Hacı İlqar Tağıyev, Akif Xalıqov, Nəzakət Həsənova, Mansur Ağayev, Natiq Bağırov, qabaqcıl maarif xadimlərindən Nüsrət Bağırov, Əbülqasım Qasımov, Mütəllim Sadıqov, Şamil Sadıqov, Firuzə Bəylərova, Şükür Şükürov, Şalı Canıyev, İbad Əhmədov, Hacı Kamil Hüseynov, İsrafil Babayev, İsa Ağayev, Əliməmməd Bağırov, Ramiz Ağayev,Güloğlan Bağırov, Qasım Əliyev, Əsgər Əsgərov, Ramazan Kərimov və başqalarının şagirdlərin milli ruhda tərbiyəsi sahəsində gördükləri işlər yüksək qiymətləndirilmiş, onların maarifçilik, müəllimlik fəaliyyətləri, mənalı və şərəfli ömür yolları "Aşkarlıq" qəzetinin 30 illik fəaliyyəti dövründə işıqlandırılmışdır. Qəzetin əksər nömrələrində nümunəvi, təqdir olunası müəllimlər haqqında portret oçerklər, zarisovkalar verilir, iş təcrübələri ümumiləşdirilib yayılır. Bu yazıların əksəriyyətini müxbirlərdən Maarif Teymur (Bakı), Ramiz Hüseynov, Musa Babayev, Fəyaz Qasımzadə, Nizami Hüseynov, Miryəhya Hətəmov, İldırım Şükürzadə, Sehran Əliyev, Əbülfət Tağıyev (Lənkəran), Həsənağa Əliyev, İsa İbadov, Asif Abbaszadə (Masallı), Zəfər Əliyev, Rövşən İmanov (Lerik), Balakişi Zamanoğlu (Astara) və başqaları qələmə almışlar.

Mirhaşım Talışlının "Bir şəklin tarixi" (04.02.205), Aydın Əliyevin "Yaddaşlara keçən ömür" (11.12.2014) publisistik yazıları qabaqcıl maarif xadimləri Firuzə Bəylərova və Qə-

zənfər Əliyev haqqındadır, onların keçdikləri həyat yolu gənc nəslə çatdırılır.

**İGİD ÖLƏR – ADI QALAR.** Vətənpərvərlik mövzusu qəzetin daim diqqət mərkəzində olmuşdur. Əgər 90-cı illərin əvvəllərində müxbirlərin yazılarında hüzn, kədər motivləri üstünlük təşkil edirdisə, 2020-ci ilin payızından qələbə ruhlu yazılar başlıca yer tutmuşdur.

Müharibə dövründə və sonrakı müddətdə torpaqlarımızın bölünməzliyi yolunda canını fəda edənlərin qəhrəmanlığını göstərmək yazarların müqəddəs vəzifəsinə çevrilmişdi. 2016-cı ilin Aprel döyüşlərində, 27 sentyabr - 10 noyabr 2020-ci ildə cəbhədə qazanılan zəfərlər Azərbaycanın tarixi-siyasi həyatında yeni bir mərhələnin başlandığı kimi qiymətləndirmək yerinə düşər.

İltifat Saleh, Mirhafiz Bahadır, Hafiz Mirzə, Xudaverdi Cavadov, Elşad Səfərli, Ağamir Cavad, Aliyə Seyidqızı, Tükəzban Cahangirova, Səkinə Əsədova, Əflatun Hüseynov, Maqsud Məmmədov, Zakir Bağır kimi şair və yazıçıların yaradıcılığında vətənpərvərlik ruhunda yazılmış yaradıcılıq nümunələri diqqət çəkir.

Mirnağı Həsənovun qəhrəman şəhidlərə həsr etdiyi publisistik yazılarından birinə diqqət yetirək. "Şəhid anası" zarisovkasında deyilir: "Lənkəranda 1999-cuilədək 153 Qarabağ, 11 "20 Yanvar", 5 Milli Qəhrəman şəhidi var. "Şəhid Anaları" Cəmiyyətinin sədri Züleyxa Əliyeva torpaqlarımızın bölünməzliyi yolunda şəhid olanların xatirəsini əbədiləşdirmək üçün əvəzedilməz işlər görmüşdür. Oğlu, Milli Ordunun zabiti Anar Əliyev "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş, ümummilli lider Heydər Əliyev Prezident Sarayında həmin ordeni şəhid anasına təqdim etmişdir. Şəhid anası yüksək mükafat üçün dahi rəhbərə müraciətlə demişdir:

- Möhtərəm Prezident! Bu gün Siz mənə Anarın layiq görüldüyü "Azərbaycan Bayrağı" ordeni təqdim etdiniz. Fəxr edirəm ki, bu ordeni Sizin əlinizdən aldım. Bu gün əl-ələ verib

bir bayraq altında birləşib xalqımızı, millətimizi xoş, işıqlı gələcəyə aparmaq vaxtıdır. Bu bayraq heç vaxt, heç zaman enməyəcəkdir" (16.02.1999).

O vaxt gəlib çatacaqdı. Düşmən tapdağı altında olan torpaqlarımızın azad olunmasına hələ çox qalırdı. Ata vəsiyyətini qətiyyətlə həyata keçirən Azərbaycan Prezidenti, möhtərəm Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsi ilə üçrəngli müqəddəs bayrağımız bu gün Şuşada - Qarabağ torpaqlarında əzəmətlə dalğalanır.

İ.Cəfərov və E.Əhədovun "Xocalıda görüşənədək" publisistik yazısı Xocalı prkuroru Atakişi Atakişiyevin həyat yolunu əks etdirir.

"Xocalı faciəsinin canlı şahidi, şəhər prokuroru işləmiş Hacı Atakişi Atakişiyev o dəhşətli faciədən danışarkən qəzəb hisslərini boğa bilməyib hönkürmüşdü. Ürək ağrısı ilə dediyi sözlər bu gün də qulağımızda bir ittiham kimi sələnir: "Bizə kömək olmadı. Talandı elimiz-obamız, qanımıza qəltan olduq. Acizlik ağladır bizi…"

Xocalı İcra Hakimiyyətinin başçısı Elman Məmmədov, şəhərin baş prokuroru Atakişi Atakişiyev şəhər mühasirə olunan müddətdə mümkün olan hər şeyi etmək istəmişdilər. Respublika rəhbərlərinə edilən müraciətlərə, çoxsaylı teleqram və məktublara etinasız yanaşılmış, mühasirədə olanları quru vədlərlə sakitləşdirmişdilər. Prokuror Atakişi Atakişiyev 25 fevral 1992-ci ildə Azərbaycan televiziyasının "24 saat" xəbərlər proqramına ünvanladığı teleqramda deyilirdi: "Xocalı getsə, Dağlıq Qarabağ yoxdur. Dağlıq Qarabağ getsə, Azərbaycan yoxdur!"

- Xocalı yaşaya bilərdi, - üz-gözünü qəm-kədər bürümüş prokuror Atakişi Atakişiyev qəzəbdən düyünlənmiş yumruğunu qaldırdı, azca sözünə ara verdi, görünür, qəhərdən danışa bilmirdi. Haçandan-haçana sözünə davam etdi. - Xocalı laqeydliyin, biganəliyin, qeyrətsizliyin qurbanı oldu. Tarix bunu bizə bağışlamaz!.. (08.03.1999) .

Qəzetdə şəhidlər haqqında dərc olunmuş yazılar "İgid ölər, adı qalar" rubrikası ilə verilmiş, qəhrəmanların döyüş və həyat yolları maraqlı fakt və epizodlarla qeyd edilir. Bu baxımdan şəhidlərdən Elman Rəsulov (08.05 1999), Mais Abbasov (fevral, 2000), Fəxrəddin Həbibov, Nizami Axundov, Şahin Rüstəmov, Eldar Şalıev (2000), İdrak Hüseynov (21.07.2010) və başqa şəhidlər haqqında yazılmış publisistik yazılar tarixi baxımdan qiymətlidir.

**LƏNKƏRAN ƏDƏBİ MÜHİTİ.** "Lənkəran ədəbi mühiti: dünən və bu gün" (10.01.2024) mövzusunda verilən publisistik yazılar, Bakının Natəvan klubunda keçirilən görüş Yazıçılar Birliyi Lənkəran bölməsinin yaranması gününə həsr edilmişdir. Qəzetin bu nömrəsi bütünlüklə Lənkəran yaradıcı qüvvələrinin fəaliyyəti haqqındadır.

Qəzetdə Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın, Yazıçılar Birliyinin katibləri İlqar Fəhmi, Səlim Babullaoğlu, elmlər doktoru, tənqidçi Vaqif Yusifli, Yazıçılar Birliyi Lənkəran bölməsinin sədri Qafar Cəfərli və başqalarının cənub bölgəsində ədəbi həyatla bağlı fikir və mülahizələri maraq doğurur. Çıxışlarda bölgədə ədəbi mühitin saflaşması, inkişafı və yüksəlməsi, qarşıya qoyulan vəzifələrin icrası istiqamətində görülən işlər müsbət qiymətləndirilmişdir.

Yaxşı haldır ki, o illərdə bizə yaxın olan imzalara bu gün müxtəlif ədəbi orqanlarının səhifələrində rast gəlinir. Onlar şeirlərində bədii düşüncələrini süzgəcdən keçirib, Vətənə, xalqa, təbiətə sevgisini poeziya dili ilə tərənnüm edirlər.

Hacıhüseyn Vüqarlının "Əbədiyyətə dönən sevgi" (25.09.-2002), İltifat Salehin "Xalqının dan ulduzu" poemaları (06.01. 2011), Mirhafiz Bahadırın "Berlində açılan tüfəng" (dekabr, 1999), Mirhaşım Talışlının Milli Qəhrəman Mübariz İbrahimova həsr edilmiş "Bizdə mübarizdir bütün cavanlar" (05.04.2011) poemaları, Simuzər Nüsrətbəylinin (06.01.2011), Əzizə Nərimanqızının (06.01.2011), Aliyə Seyidqızının (18.12.-

2015) şeirləri poetik cəhətdən diqqəti cəlb edir.

"Aşkarlıq"da rus və talış dillərində də şeir, hekayə, nağıl və məqalələr öz əksini tapmışdır. Əhəd Muxtarın "Bandi zoə" (Bakı), Hüccətülla Məmmədovun (12.05.1996), Cabir Nəsirovun (10.06.2000), Bəxtiyar Musayevin, Ələmdar Məmmədovun (10.06.2000), Xanəli Tolışın şeirləri, Əşrəfi Sərxanın "Dı boə" (İki qardaş) nağılı və müxtəlif vaxtlarda (10.06.2000; 01.09.2000; 23.01.2001; 18.04.2001) hazırlanmış talış səhifələri diqqəti cəlb edir.

Məktəblilərin həyatı ilə bağlı "Aşkarlıq"da verilən məqalə və publisistik yazılar diqqətəlyiqdir. Yazıçı Zakir Bağırın, şair Dövlət Fətullayevin uşaqların həyatından bəhs edən şeir və hekayələri təkcə məktəblilər üçün deyil, eyni zamanda böyüklər tərəfindən maraqla qarşılanır.

Yaxşı haldır ki, "Aşkarlıq" məktəblilərin yaradıcılığına öz səhifələrində vaxtaşırı yer ayırır. Qəzet xəbər verir ki, 1998-ci ildə Lənkəranda şair Ziyafət Əkbərovun təşəbbüsü ilə uşaqlar üçün "Ziya" ədəbi birliyi yaradılıb. Qəzetin həmin nömrəsində istedadlı uşaqlardan Aysel Səfərli, Ülfət Əkbərli, Elnur Kəlbiyev, Oksana Balayeva, Xaqani Bədəlov, Nuranə Əhədzadə, Məlahət Əliyeva, Günay Baxşıyeva, Gülnar Quliyeva, Qurbanrza Bağırlı, İlahə Balayeva, Günay Qurbanova, Ruflan Əliyev və başqalarının şeirləri dərc olunmuşdur. Qəzet sonrakı nömrədə xəbər verir ki, məclisin üzvlərindən Ülfət Əkbərli və Məlahət Əliyeva məktəblilərin respublika müsabiqəsinin qalibi olmuşlar (04.12.2002) .

Masallı rayonu, Xanalion kənd əsas məktəbinin VII sinif şagirdi Nərgiz Bəşirovanın "Müəllimin qələmi" şeirində deyilir:

*Aydın müəllimin qələmi,*
*İş görməyə tələsir.*
*Minaxtaran kimi,*
*Sətirlər üstə gəzir.*

*Yaxşı cümlə gələndə,*
*Qanad çalan quş olur.*
*Hər səhv tapanda, sanki*
*Bir minaya tuş olur.*
*Tez kağıza qırmızı*
*İşarələr düzülür.*
*"Yaralanmış" qələmdən,*
*Elə bil qan süzülür.*
*(03.05.2012)*

Qəzetin ayrı-ayrı nömrələrində dərc olunmuş Qönçə Həmidli, Gülər Abbasova, Aydan Əlizadə (Xarxatan), Aytən Nadir qızı (Kosalar), Əzizbəyim Muxtarova, Günəş Salayeva (5 №-li məktəb), Pərvanə Salahlı (Parakənd), Aytac Əkbərova (Xarxatan), Bahar Həsənova (Gərmətük), Xalidə Məmmədova (Separadi), Jalə Bayramzadə (Lənkəran şəhəri)) və başqalarının şeirləri maraq doğurur.

"Balaca rəssam" (22.07.2011), "Musiqi həyatımın mənasıdır" sərlövhəli məqalələrdə Lənkəran 10 saylı məktəbin şagirdi Təbib Həsənzadənin və C.Cabbarlı adına Lənkəran şəhər 1 saylı musiqi məktəbinin fortepiano şöbəsinin şagirdi Vüsalə Hüseynovanın uğurlarından xəbər verir. E.Əhədovun "Nərminin rənglər dünyası" (18.02.2011) sərlövhəli zarisovkada 10 yaşlı Lənkəran məktəblisi Nərmin Kələntərlinin Bakı Müasir İncəsənət Mərkəzində fərdi rəsm sərgisinin açıldığından xəbər verilir. Müəllif daha sonra yazır ki, Bakıda nəşr olunmuş "Azərbaycanın uşaq təsviri sənəti" kitabında Nərminin "Bəyaz çiçəklər" və "Bahar gəzintisi" rəsmləri verilmişdir. Lənkəran şəhər 4 nömrəli məktəbin 5-ci sinif şagirdi Səkinə Ağazadənin kənd lövhələrindən çəkdiyi rəsmlər haqqında ürək sözləri Sehran Yədullaoğlunun "Səkinənin rəsmləri" məqaləsində (22.07.2013) öz əksini tapmışdır.

Qəzetdə uşaq yaradıcılığına geniş yer ayrılmışdır. Lənkərandakı Xolmili məktəbinin 5-ci sinif şagirdi Aytac Əkbərovanın "Mənim atam", "Müəllimim", 5 nömrəli şəhər tam orta məktəbinin şagirdi Günəş Salayevanın "Azərbaycan" şeirləri (11.05.2016), qəzetin yenə həmin nömrəsində Boladi kənd məktəbinin müəllimi Dövlət Fətullayevin nəvələri Laləyə və Aysuna həsr etdiyi şeirlər maraqla oxunur.

"Aşkarlıq"da ayrı-ayrı kitablar barədə müxtəlif rəylərə, şeir və hekayələrə rast gəlinir. Elşad Səfərli şair Hüccətulla Məmmədovun "Ömrün yolları" kitabına yazdığı "Məhəbbət və inam poeziyası" resenziyasında (08.11.1996) deyilir ki, müəllif maraq və intizarla izlənilən şairlərimizdəndir, ilk kitabı ilə də sözün əsil mənasında oxucuları həm sevindirə, həm də heyrətləndirə bilmişdir. E.Səfərli göstərir ki, şairin ilk kitabında gedən şeir nümunələri yalançı hay-küydən, dəbdəbədən uzaqdır. Ədəbiyyatşünaslardan Əlirza Əliyev yazıçı Əli Bayramovun "Vahimə" (12.07.2001), Allahverdi Eminov Elşad Səfərlinin "Yalnız sevgi", Hacıbala Əbilov Hüseynbala Mirələmovun "Tənha durna uçuşu" (08.03.1999), Ramiz Heydərin Süleyman Hüseynovun "Bir həzin nəğmə" (01.08.1999),Ağamir Cavadın Ofelya Nəzərovanın "Ömür tənha qoymaz məni" (24.04.2010), Nadir Müzəffərin Manaf Manafovun "Mərmərin göz yaşı" (22.05.2002), Zakir Bağırın Sakin Məmmədzadə və Hüseyn Cəbrayılzadənin "Cənub bölgəsində futbolun inkişaf tarixindən" (03.06.2010), Səyavuş Süleymanlının Ağamir Cavadın "Eşq işıqlı poeziya" (29.01.2013) kitabları haqqında rəy və resenziyaları, yazıçı Mustafa Çəmənlinin (Bakı) "Aldanmış çiçəklər" publisistik yazısı (may, 2004) diqqət çəkir.

Mərhəmət Abıyevin "Salnaməyə layiq şəxsiyyət" (18.11.2020), Fatma Həsən qızının "Acılı-şirinli günlər" , Araz Əhədovun "İlk poliqrafçı alim" (05.04.2011) publisistik yazıları respublikamzda poliqrafiya sahəsində dünya şöhrətli alim Şəddat Cəfərov haqqındadır. Müəlliflər bu yazılarında ömrü-

nün 60 ildən çoxunu poliqrafiyamızın inkişafına həsr etmiş tanınmış alimin ömür yoluna və əmək fəaliyyətinə nəzər salmış, haqqında yazılmış kitablara fikir və mülahizələrini bildirmişlər. Şəddat Cəfərovun "Müharibə iştirakçısının Xatirə yaddaşı" publisistik yazısı isə II Dünya müharibəsində şanlı həyat yolu keçmiş müharibə veteranlarının həyat yolu vərəqlənir (07.02.2018).

Şair və yazıçılardan Nijadın "Lənkəran xatirələri", Tükəzban Cahangirovanın "Bütöv Azərbaycan Vətənindir" (22.12.2012) poemaları, Nurəddin Rəhimli, Hacıhüseyn Vüqarlı, Xanəli Tolış, Feyruz Qurbanov, Ağakişi Cəfərzadə, Esmira Rəhmanova (26.04.2000), Səbirə Xurşudova, Tarix Sadıqov, Tərlan Əbilov (22.11.2001), Nadir Əhməd, Yəhya Hətəmov, Səfail Qurbanov, Yaşar Əkbərov, Əfsanə Balayevanın şeir və qəzəlləri, Nərgiz Qurbanlı və İlhamə Rəhimovanın mənsur şeirləri, Adil Nüsrətovun "Vətən və segah" hekayəsi (12.05.1996), Əli Bayramlı, Səkinə Əsədova, Ülkər Bayramova, Rəsul Rzayev, Yaqub Viləşli, Ramiz Ümid, Asif Asiman (Masallı), Akif Qəmli, Xaqani Muğamatoğlu, Xalidə Məmmədova, Arzu Əliyeva, Türkan Zakirqızı, Balakişi Zamanoğlu (Astara), Gülcahan Əsgərova (Cəlilabad), Səmayə Məmmədova, Səyad Hüseynov, Xanağa




*Azərbaycan Dövlət Universiteti jurnalistika fakültəsinin 1976-ci il məzunları*

Əsgərov, Əfsanə Xəlilbəyli, Esmira Rəhmanova, Jalə Şükürova, Əflatun Hüseynov, Simuzər Hüseynbəyli, Əzizə Nərimanqızı, Aydan Əlizadə, Mirmusa Həsənov, Qönçə Həmidova (Lənkəran), Sara Rəhimqızı (Bakı) və başqalarının şeirlərində həyat, dünya, bəşəriyyət, insan, sevgi, təbiət haqqında düşüncələri vəsf olunmuşdur.

## QƏZETİN ŞÖBƏLƏRİ, MÜƏLLİFLƏR, MÜXBİRLƏR...

"Aşkarlıq"da gedən müxtəlif səpkili yazılarda quru, statistik məlumatlar yox, əsasən oxucunu düşündürən, yeni uğurlara aparan fikirlər yer alır.

30 illik fəaliyyəti dövründə qəzetin 300-dən çox nömrəsi çapdan çıxmışdır. İlk nömrəsi Lənkəran mətbəəsində 4 səhifə həcmində 1000 tirajla buraxılmışdır.

Qəzetdə çıxışlarına görə, əməkdaşları beş qrupa ayırmaq olar. Müxbirlər yalnız hadisələri göstərməklə kifayətlənmir, onları oxucuya çatdırmağa yollar arayıb göstərirlər.

Şöbələrin xətti ilə ərsəyə gələn məktublar "Müxbirlərimiz yazırlar", "Redaksiyanın poçtundan", "Bizə yazırlar", "Redaksiyaya məktublar" və s. rubrikalarla verilir.

Müxbirlər fakt və hadisələri göstərməklə kifayətlənmir, kütlələrin diqqətini ümumi işə istiqamətləndirməklə təşviqat aparırlar.

*Şöbələr aşağıdakı bölmələrə ayrılmışdır:*

1.Məktublar şöbəsi.

Qəzetin fəaliyyət göstərdiyi ilk günlərdən ətrafına çoxlu sayda müxbirlər toplamışdır. Aralarında müəllimlər və tələbələr, mütəxəssislər, elm, mədəniyyət və din xadimləri, sadə adamlar, o cümlədən məktəblilər vardır.

30 illik nəşri dövründə şöbənin xətti ilə qəzetin hər nömrəsində azı 20-25 məqalə dərc olunub. Onların hər birində dövlətçilik ənənələri başlıca yer tutur. Maraqlıdır ki, müəlliflər yadda qalan, diqqəti cəlb edən axtarışlar apararaq yaxşı cəhətdən buna nail olmuşlar.

Ramz Hüseynov, Barat Kərimov, Xudaverdi Cavadov, Bəxtiyar Hüseynov, İltifat Əhmədov, Əlisəfa Həsənov, Şaban Şəfiyev, Mirnağı Həsənov, Fikrət Ağazadə, Cavahir Qasımova, Əliağa Eynullayev, Qorxmaz Atakişiyev, Dövlət Fətullayev, Qardaşxan Fərziyev, Mehman Əliyev, Cəmil Quliyev, Sehran Əliyev (Lənkəran), İdris Şükürlü, Zəfər Orucoğlu, Rövşən İmanov (Lerik), Həsənağa Əliyev, İsa İbadov, Asif Abbaszadə (Masallı), Mətləb Axundov (Salyan) və başqalarının qəzetdə dərc olunmuş məqalələrindən aydın olur ki, onlar hadisələri oxuculara mövzuya uyğun çatdırmağa səy göstərmiş və istədiklərinə nail olmuşlar.

2.Mədəniyyət və incəsənət şöbəsi.

Şöbə ətrafında mədəniyyət, incəsənət işçiləri toplaşmışlar. Onları qəzetin fəal köməkçiləri və dostları da adlandırmaq olar. Sıralarında Ağaddin Babayev (teatrşünas), Ağadadaş Əliyev (Veravul mədəniyyət evinin direktoru), İldırım Şükürzadə (Havzava kəndi, müəllim),Kamil Cabbarov (Gərmətük qəsəbəsi) və başqalarının adını çəkmək olar. Onların dəstəyi ilə "Aşkarlıq"da mədəniyyət və incəsənət sahələrini əks olunan yazıların məzmunu və keyfiyyəti diqqət çəkir.

3.Ədəbiyyat şöbəsi.

Ətrafına şair və yazıçılar toplaşıb. Aralarında Allahverdi Eminov, Qafar Cəfərli, Ağamir Cavad, Hacı İdris Cəfərov Əlirza Əliyev, Səyavuş Süleymanlı, Hafiz Mirzə, Nadir Əhməd, İltifat Əhmədov, Əliməmməd Ağazadə, Musa Babayev, Xudaverdi Cavad, Zakir Bağır, Elşad Səfərli, Tükəzban Cahangirova, Sərraf Talıb, Şəfi Şəfaət, Dövlət Fətullayev,Xatirə Xatun kimi şair və yazıçılar, o cümlədən ədəbiyyatşünaslar vardır.

Qəzetdə verilən şeir və hekayələr münsiflər heyətinin iştirakı ilə müzakirə olunur, gənc yazarlara məsləhət və tövsiyələr verilir.

4.Ştatdankənar şöbələr.

Redaksiyanın fəaliyyətinin ilk dövründən ştatdankənar şöbələri olmuşdur. Şöbəyə əsasən ziyalı nümayəndələr cəlb olunmuşlar: Mirhaşım Talışlı, Ayaz Əhmədov, Hacıbala Əbilov, Əlibala Nurullayev (Lənkəran), Sakitağa Kərimov, (Astara), Zəfər Orucoğlu, Rövşən İmanov (Lerik), Həsənağa Əliyev, Asif Abbaszadə (Masallı).

Onlar qəzetlə əməkdaşlıq etməklə, həm də redaktorun tapşırıqlarını yerinə yetirməyi özlərinə mənəvi borc bilirlər.

5.Elanlar.

Qəzetin əsasən sonuncu səhifəsində verilir. Bu baxımdan yubileylər, ad günləri, təbriklər, abunə, başsağlıqları əsas yer tutur.

Qəzetin müntəzəm yazarları: İldırım Şükürzadə, Zəfər Orucoğlu, Sehran Əliyev.

Vaxtaşırı yazanlar: Həsənağa Əliyev, İsa İbadov, Asif Abbaszadə.

***

Qəzetimizin ictimai-siyasi mövqeyi aydındır: oxucuya düzgün yol göstərmək, baş verənləri, ölkəmizdə qazanılan uğurları olduğu kimi, heç bir təhrifə yol vermədən ictimaiyyətə çatdırmaq. Deyə bilərəm ki, banisi görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi olan "Əkinçi"nin, naşiri dahi söz ustası Cəlil Məmmədquluzadə olan "Molla Nəsrəddin" ənənələrinə sadiq qalan "Aşkarlıq" 30 illik fəaliyyəti dövründə Lənkəranın yazılı salnaməsini yaratmışdır. Lənkəranın ictimai-siyasi, iqtisadi-sosial həyatı, təhsil və mədəniyyəti, abadlıq-quruculuq işləri ilə maraqlanmaq istəyənlərə qəzeti vərəqləmək kifayət edər. Əmək həyatı, iqtisadi-sosial inkişaf, insanların hə-

yat tərzi, vətənpərvərlik, mədəni-quruculuq və s. məsələlər qəzetin başlıca məzmununu təşkil edir.

Böyük demokrat ədib Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"in dili ilə yazırdı:”Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olur - gedir, amma söz qalır. "Molla Nəsrəddin" təkcə bir nəfərin deyil, qələminə sadiq, əqidəcə saf, dövlətinə, vətəninə sadiqlik göstərən bütün oxucularındır.

"Aşkarlıq" qəzeti də bütün oxucuların, onu sevənlərindir.

Lənkəranda fəaliyyət göstərən və haqqında söhbət açdığımız mətbu orqanlar da millətin görən gözü, döyünən qəlbidir -yaddaşlarda, xatirələrdə dərin izlər buraxıb.

# IV BÖLMƏ

# YADDAŞIMDA YAŞATDIQLARIM




*Filologiya üzrə fəlsəfə doktoru,*
*Prezident mükafatçısı Hacı Mirhaşım Talışlı*
*və Hacı Etibar Əhədov*

*Hacı Mirhaşım TALIŞLI,*
*Filologiya üzrə fəlsəfə doktoru,*
*Prezident mükafatçısı*

## HƏYATI VƏ MÜHİTİ

Redaktorun bədii və jurnalistlik yolu XX əsrin 60-cı illərin ortalarından başlanır. Əslində baxanda Etibar Əhədovun ictimai-siyasi görüşləri bu dövrdən - orta məktəblə oxuduğu illərdən başlamış, 70-ci illərdən formalaşmışdır.

Kənddəki səkkizillik məktəbi bitirdikdən sonra Etibar Əhədov orta təhsilini şəhər 1 saylı orta məktəbində davam etdirdi. Bu məktəbi ona görə seçmişdi ki, orada xarici dil kimi fars dili keçirilirdi. O da fars əlifbasını bilirdi. Birinci sinifdən altıncı sinfədək olan dövrdə nənəsi Sürəyya xanımın təkidi ilə kənddə Molla Ağanənənin, sonralar Molla Nəsirin yanında dini biliklərə yiyələnmiş, "Quran"ı keçmişdi. Sürəyya nənə deyərdi ki, oğlum Etibar Həcc ziyarətinə gedəcək, mən onda dünyada olmayacağam, mənimçün Kəbənin və Peyğəmbərin müqəddəs məzarı önündə "Yasin" oxuyacaq. Maraqlıdır ki, Sürəyya nənə bu yol üçün iki qızıl "onluq" da ayırmışdı. Onun bu sözlərinə gülər, deyərdilər ki, bu, mümkün olmayan işdir. Sürəyya nənə isə inamla deyərdi ki, görərsiniz, balam kəndimizin ilk Hacısı olacaq. Qəribə də olsa, nənənin dedikləri həqiqət oldu. Etibar Əhədov "Günay" beynəlxalq qəzetində işləyərkən, yaradıcılıq uğurlarına görə qəzetin təsisçisi tərəfindən Həcc ziyarətində oldu. Onda 1995-ci il idi. Hacı Etibar Əhədov Həcc ziyarətində nənəsinin vəsiyyətinə əməl etdi. Yazıçı-jurnalist sonralar yazacaqdı: "Kəbənin önündə "Quran"ı götürüb salavat çevirdim, müqəddəs kitabı açan kimi "Yasin" surəsi göründü. Mədinədə Peyğəmbərin (s) məzarı

önündə də "Quran" "Yasin" surəsi ilə açıldı. Sürəyya nənəmin vəsiyyətini yerinə yetirdiyimə görə özümü dünyanın ən xoşbəxt adamı sanırdım."

Qələm dostu, Prezident mükafatçısı, filologiya elmləri namizədi, dosent Hacı Mirhaşım Talışlı illər keçəndən sonra yazacaqdı: "Etibar Əhədovun imzasına Lənkəran internat məktəbində müəllim işlədiyim 1961-1964-cü illərdə rast gəlmişdim. 1965-ci ildə Lənkəran şəhər 1 saylı orta məktəbində Azərbaycan dili və ədəbiyyatdan dərs deyərkən öyrəndim ki, imzasına təsadüf etdiyim Etibar Əhədov da bu məktəbin şagirdidir. Bu dövrdə o, "Leninçi" (indiki "Lənkəran") qəzetində məktəb və idman həyatına aid kiçik həcmli məqalələri ilə çıxış edirdi. O, mənim dərs dediyim siniflərdə deyil, Mütəllim Sadıqovun ədəbiyyat müəllimi olduğu sinifdə oxuyurdu.

Bir dəfə Mütəllim müəllim xəstələndiyinə görə onu əvəz etməli oldum. Bu vaxt həmin sinifdə oxuyan müxbir-şagird Etibar Əhədovla rastlaşdım. Bu, gözləri şəfqətli, boyca balaca, lakin bacarıq və qabiliyyətcə ləyaqətli şagirdlə bundan sonra bir dost kimi yanaşar, görüşər və hal-əhval soruşardıq. Nəqliyyatın az olduğu vaxtlar idi. Gündə uzaq yol qət edib ilk zəngə çatmaq asan deyildi. Bunun şaxtalı, sazaqlı, yağışlı günləri vardı. Amma oxumağa həvəs, istək və arzusuna çatmaq Etibarı rahat buraxmırdı. O, hər gün sübh tezdən, hələ günəş yatağından qalxmamış yola çıxar, gah kolxozun süd maşınında, gah təsadüfi yol maşınında, gah da piyada özünü birinci zəngə çatdırardı. Etibarda humanitar fənlərə maraq güclü idi. Çoxlu bədii ədəbiyyat oxumuşdu. Danışır ki, üçüncü sinifdə oxuyarkən kitabxanaya üzv yazılıb. O vaxtadək isə kənddəki kitab mağazasına gələrək, buradakı bədii kitablara baxa-baxa qalar, onları oxumaq həsrəti ilə yaşayarmış. Biləndə ki, kənd kitabxanasında pulsuz kitab verirlər, qəlbində qeyri-adi hisslər baş qaldırır. Utana-utana kitabxanaya gəlir, kənarda dayanıb gəlib-gedənlərə tamaşa edib. Kitabxana müdiri ondan hansı kitab istədiyini

soruşanda deyir ki, "Kapital"ı verin. Uruf kişi "Kapital" əvəzinə "Qoğal" kitabını verir. İki saatdan sonra Etibar qayıdıb kitabı təhvil verir və deyir ki, "Kapital" kitabını istəyirəm. Uruf üstünə qışqırır ki, ay bala, bu kitabı oxumamış qaytara bilməzsən. Etibar kitabı başdan-ayağadək danışır. Kitabxanaçı deyir ki, yaxşı, bu dəfə sənə təzə bir kitab verirəm, amma üç gündən sonra gələrsən. Az sonra Etibar əlində "Cırtdan" kitabı qapıda görünür, deyir ki, kitabı oxudum, istəyirsən məzmunu danışım, amma "Kapital"ı oxumaq istəyirəm. Uruf kişi qalır mat-məəttəl, deyir ki, ay bala, get dərslərinlə məşğul ol, dediyin kitabı institutda oxuyanda verərəm. Etibar institutut sözünü başa düşmür, qayıdıb deyir ki, üçdə oxuyuram, hərfləri tanıyıram, nə olar, "Kapital"ı verin oxuyum. Uruf bu dəfə onun qolundan yapışıb qapıdan çıxarır, tapşırır ki, üç gündən sonra gəlsin.

Bir qədər sonra kitabxanaçıya deyirlər ki, bir uşaq pilləkəndə əyləşib ağlayır. Uruf kişi Etibarı görüb soruşur ki, niyə ağlayırsan? Etibar da qayıdıb deyir ki, "Kapital"ı mənə verməsəniz gedən deyiləm. Uruf bu dəfə bir söz demir, fikirləşir ki, bu uşaqda nəsə var və kitabı ona verəndə deyir:

-Kitabı sənə verdiyimi heç kəs bilməsin, bu, qanunsuzdur, yoxsa, mənə cəza veərərlər.

Etibar həmin günləri xatırlayaraq yazır: "Doğrudan da iri həcmli bir kitab idi. Nə oxudumsa bir şey anlaya bilmədim. Lampa işığında kitabı oxuya-oxuya fikirləşirdim ki, axı, izafi dəyər nədir, Karl Marks kimdir? Sürəyya nənəmin də diqqəti məndə idi. Yuxu gözlərindən tökülsə də, yorğana girməmişdi. Nənəm dözməyib dedi ki, ay bala, müəllimlərdə insaf qalmayıb, bu gün niyə çox dərs yükləyiblər. Dedim ki, ay nənə, bu dərs deyil, əlavə ədəbiyyatdır, oxuyuram ki, bir şey öyrənim. Savadsız nənəm bilmirdi ki, özüm özümü oyuna salmışam. Uruf əmiyə nə cavab verəcəyimi bilmirdim.

Üç gün sonra kitabxananın qapısını kəsdirdim. Uruf əmi məni görəndə gülümsündü:

- Professor, de görüm, kitabı oxudun, bir şey başa düşdün? Professor sözünü başa düşməsəm də dedim ki, oxumuşam və başladım əzbər etdiyim yerləri deməyə. Onda gördüm ki, Uruf əminin gözləri gülür və haçandan-haçana dedi:

- Oğul, bu kitabxana var, ha, kitab qarışıq sənə qurbandır, nə vaxt gəlsən və hansı kitabı istəsən buyur, götürə bilərsən.

Sonradan bildim ki, Uruf əmi "Kapital"ı oxumayıb. Mənim üçün ən çətin günlər yay ayları idi. Onda Uruf əmi məzuniyyətə çıxdığına görə kitabxana bağlı olardı. Bədii ədəbiyyat tapıb oxuya bilmədiyimə görə yay ayları mənə olduqca darıxdırıcı görünərdi. O dövrdə kəndimizə qəzet və jurnal çox az gələrdi. Mən qəzetə həsrət idim, ailəmizdə abunəçi yox idi. Yol kənarlarında, xəndək qıraqlarında saralmış qəzet parçalarını görəndə çox sevinərdim. Əmənulla babam bu həvəsi məndə görəndə bəzən dükan qabağından poçtalyondan mənə qəzet alardı. Həmin gün sevincimin həddi-hüdudu olmazdı.

Dördüncü sinifdə oxuyanda babamla şəhərin Böyük bazar hissəsinə getmişdim. Orada kitab dükanında M. Füzulinin "Leyli və Məcnun" kitabını görəndə babamdan xahiş etdim ki, kitabı alsın. Babam əvvəlcə duruxdu, çünki cibindəki pulu ona uyğun deyildi. Dedim ki, baba, kitabda ərəb əlifbası ilə yazılar var, "Quran" sözləridir, onu oxusam, savaba çatarıq. Bu sözdən sonra babam əlindəkiləri son qəpiyinədək verib kitabı aldıq. Avtobusda bir müəllim dedi ki, kitabı nahaq almısan, yaşına uyğun deyil. Kitabı əlimə alıb elə rəvan oxudum ki, avtobusdakılar heyrətlərini gizlədə bilmədilər. Sən demə, həmin müəllim kitabı mənim kimi oxuya bilmirmiş. Məhəllədəki uşaqlar, hətta yaşlı adamlar bizə gəlib xahiş edirdilər ki, onlar üçün "Leyli və Məcnun"dan maraqlı yerləri oxuyum. Mən də oxuyurdum. Babam da, nənəm də buna sevinir, səxavətlə geniş süfrə açırdılar."

Etibarın 1966-cı ildə "Son zəng" günündə çıxışı indiki kimi yadımdadır. O, arzularından danışdı, dedi ki, jurnalist ola-

cağam. Məktəbimizdə "Ədəbiyyat"dan yazılı imtahandan "əla" qiymət alan yeganə şagird Etibar Əhədov idi. İnanırdım ki, o, öz məqsədinə nail olacaq. Belə də oldu. Amma bu yolda çox çətinliklərlə üzləşdi. Jurnalist olmaq üçün iki il əmək stajı lazım gəlirdi. Ona görə kənddəki sovxozda işləməli oldu -- çay əkdi, tərəvəz becərdi, məhsul yığımında və təhvilində iştirak etdi. İki il sonra müvəffəqiyyətlə imtahan versə də, müsabiqədən keçə bilmədi. Sovet Ordusu sıralarında həqiqi hərbi xidmətdən sonra yenidən sənədlərini Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə təqdim etdi və qəbul olundu.

Tələbə biletini alıb Lənkəranda qatardan düşəndə atası ilə qarşılaşdı. Əliağa kişinin qanı qara idi. Narahatlığını gizlətmədi, dedi ki, milisdə yükümüzü saxlayıblar. Kəndlilər həyətyanı sahədə yetişdirdikləri pomidor məhsullarını hər il çox çətinliklər bahasına Rusiyanın bazarlarına çıxarır, qazandıqlarını ailənin ehtiyaclarına sərf edirdilər. Amma bu qayda ildən-ilə sərtləşdirilirdi. Bu dəfə qəti qadağa qoyulmuşdu ki, tərəvəz respublikadan kənara çıxarılmayacaq. Yerlərdəki tərəvəz kombinatında məhsulu çox ucuz götürdüklərinə görə oraya təhvil vermək əkinçilərin ürəyincə deyildi.

-Çox heyif, - atası təəssüflə dilləndi, - imtahan dövründə gələ bilmədim, tanışlarla danışardım, kömək edərdilər.

-Heç kəsin köməyi lazım deyil, - Etibar sevincək cavab verdi və tələbə biletini atasına uzatdı. Əliağa kişi tələbə biletini əlinə aldı, hiss olunurdu ki, əlləri sözünə baxmır, sevincdənmi, ya nədənsə yerindəcə donub qalmışdı və yanaqlarından süzülən iki damla yaş tələbə biletinin üzərində iz buraxdı.

Ata indi dünyanın ən xoşbəxt adamı idi, oğlu çoxlarının arzu etdiyi jurnalist fakültəsinə daxil olmuşdu, özü də xahişsiz-minnətsiz. Üz-gözündən hiss olunurdu ki, ata oğlunun uğuruna sevinir. Amma bunu büruzə vermədi. Adəti idi, yaxşı işə görə övladlarına xoş söz deməzdi, onları tərifləməzdi. Səhv bir işə görə də övladlarına əl qaldırmazdı. Cızıqdan çıxan övladına elə

sərt-sərt baxardı ki, adam yerindəcə donub qalardı. Maraqlıdır, ətraf yaşayış məntəqələrinin sakinləri ali təhsilli həkimlərdən daha çox ona etibar edirdilər. Orta tibb işçisi olsa da, qonşu Veravul, Cil, Osakücə, Separadi, Girdəni, Boladi, Tükəvilə kəndlərindən, İstisu qəsəbəsindən yanına xəstələr gəlirdilər. Əli yüngül idi. Xəstəyə baxan kimi diaqnozu təyin edirdi. Özünün müalicə üsulu ilə xəstəni sağaldırdı. Bakıdan "müalicəsi yoxdur" deyə qaytarılan onlarca xəstəni ayağa qaldırmışdı. İşindən ötrü təmənna güdməzdi. Bəzən imkansız adamlara dava-dərmanı öz vəsaiti ilə alardı. Maraqlıdır ki, Əliağa kişi öz ölümünü qabaqcadan hiss etmiş, kəndin çayxanasında olanlarla görüşəndən sonra evə qayıdaraq deyib ki, yerimi hazırlayın, uşaqlara da zəng edin, sizdən ayrılıram. Belə də olur. Yerinə uzanan kimi gözlərini əbədi yumur. 22 avqust 1985-ci il idi. Həmin il mayın 9-da Stalinqradda Qələbə günü münasibətilə keçirilmiş paradda iştirak etmiş, cəbhə dostları ilə görüşmüşdü.

Jurnalist dostumun həyat salnaməsini vərəqləmək olduqca maraqlıdır. İlk vaxtlar mənə elə gəlirdi ki, o da çoxları kimi adi həyat yaşayıb. Sən demə, həyatının çox hissəsi burulğanlar içində keçib. Hələ üç yaşında, körpə ikən o, ata-anasından uzaq düşüb. Tale elə gətirib ki, anası Tabara xanım 1951-ci ildə balaca Etibarı qoca ata-anasının yanında qoyaraq, bir yaşlı qızı Mehribanı isə özü ilə götürərək, qohumlarının müşayiəti ilə Qazaxıstanda sürgündə olmuş əri Əliağa Əhədovun yanına gedib. Tabara xanım ailənin yeganə övladı idi. Çoxlu nəzir-niyazdan, qurbanlardan düz on beş il sonra dünyaya göz açmış Tabara xanım təkcə bir ailənin deyil, həm də qohum-əqrəbalarının, bütün kəndin sevimlisi, əziz-giramisi idi. Hacı Etibar Əhədov "Ömür də bir nəğmədir" sənədli povestində yazmışdır: " Atam Əliağa Qazaxıstana sürgün edilən günədək Separadi kənd feldşer-mama məntəqəsinin müdiri işləmişdi. Üç yaşında olduğuma görə o illəri xatırlaya bilmirəm. Bir il sonra anam

Tabara da Qazaxıstana gedib, orada şəfqət bacısı işləyib. Hər ikisi "ellər atası" Stalinin ölümünədək Qazaxıstanda yaşayıb. Babam Tabara adını "Quran"dan götürmüşdü. Pasportda adını "Tamara" yazmışdılar. Babamın "Tamara" adından xoşu gəlməzdi və bu adı yazanların üstünə hücum də çəkmişdi, amma dəyişməmişdilər."

Etibar Əhədov sonralar yazacqdı: "Evimizdən bir qədər aralıda kolxozun tarla düşərgəsi yerləşirdi. Axşam tərəfi orada olan kitabxananın pəncərə şüşəsini çıxarıb içəri keçdik. Hələ məktəbə getmirdik. Qara cildli kitabın şəkillərini cırıb ciblərimi doldurdum. Əmim oğlu Akif Əzimov dedi ki, Stalin səni tutacaq, onun şəklini cırdın. Stalinin kim olduğunu bilmirdim. Amma eşitmişdim ki Stalin atamı sürgünə göndərib.

Ata-anamın Qazaxıstandan gəlişini yaxşı xatırlayıram. 1954-cü ilin Novruz günləri idi. Bilmirdim, nədəndirsə qonum-qonşular həmin gün məni daha çox əzizləyir, mehribanlıq göstərirdilər. Alı əminin həyətinə xeyli adam yığışmışdı. Birdən həyətin küçə qapısında hava rəngli bir "Pobeda" dayandı.

-Gəldilər, gəldilər!.. - deyə ətrafdakılar maşını dövrəyə aldılar. Yük maşını çox görmüşdüm, amma "Pobeda" mənim üçün yenilik idi. Odur ki, nə qohumlarımın hay-küyünə, nə maşından düşən əli qundaqlı qadına, nə meşin paltolu kişiyə, nə də yanlarında dayanmış kiçik qızcığaza fikir vermədən "Pobeda"nın ətrafında fırlanırdım. Maraq hissi ilə siqnalı işə saldım. Hamı səsə tərəf dönüb mənə baxırdı. Kimsə məni uzaqdan gələnələrə göstərdi. Akif qulağıma pıçıldadı ki, gələn Stalindir, qaç, aradan çıx, yoxsa səni tutacaq!..Tutulacağımdan qorxub qaçmaq istəyəndə qolumdan yapışdılar. Səsim bir andaca aləmi başına götürdü. Bu vaxt şəhərdən gələn qadın əllərini geniş açaraq mənə tərəf atıldı.

-Mənim balam! - Elə qışqırdı ki, başımın tükləri biz-biz oldu. Qorxu və həyəcan içində dalı-dalı çəkildim. Sonra daxilimdən baş qaldıran hansı qüvvəsə məni ayaq saxlamağa

məcbur etdi. Qadını haradasa görmüşdüm, amma heç cür xatırlaya bilmirdim. İndi Əmənulla babamın, Sürəyya nənəmin qolundan bərk-bərk yapışmışdım. Bilirdim ki, onlar məni heç kəsə verməzlər, Stalin istəsə də. Lakin son ümidim də heçə endi. Əmənulla babam üzünü yana çevirərək için-için ağlayırdı. Sürəyya nənəmin ah-naləsi göyə ucaldı. Pis adamları o ki, var qarğadı, sonra bayatı çəkdi. Ümidim qohum-əqrabalara qaldı. Onlar da başlarını yerə dikib lal-sükut içində donub qalmışdılar.

- Bala, yaxın gəl, ata-ananla görüş, - Əmənulla babam elə fağır-fağır dilləndi ki, ona bir anlığa yazığım gəldi.

Gözlərim babam və nənəmin, sonra da uzaqda gələnlərin üzündə gəzdi. Bununla da demək istəyirdim ki, atam da, anam da yanında dayandığım Əmənulla babamdır, Sürəyya nənəmdir. Lakin hansı bir qüvvəsə məni qabağa itələdi. Uzaqdan gələn qadın məni bağrına basdı, üz-gözümdən dönə-dönə öpdü. Sonra meşin paltollu kişi məni qucağına alıb başı bərabərinə qaldırdı.

- Oğlum, - deyə yavaşca pıçıldadı və gülümsündü. - Maşallah, yekə kişi olmusan…

Sonralar valideynlərimin kimliyini bilsəm də, Əmənulla babamın, Sürəyya nənəmin yanında yaşamağa üstünlük verdim. Mehriban bacım da bizimlə yaşayırdı. Ana tərəfdən olan babam və nənəmin anam Tabaradan başqa övladları olmadığından mehrlərini biz bacı-qardaşa salmışdılar. Bizi əzizləyə-əzizləyə, son tikələrini yedizdirə-yedizdirə, lakin cızığımızdan çıxanda tənbeh oluna-oluna böyüyürdük. Onların sağlığında böyük bir həyat məktəbi keçdim. Elə bir məktəb ki, burada düzlük və halallıqdan başqa ikinci söhbət gedə bilməzdi…"

***

Jurnalist Etibar Əhədov Böyük Vətən müharibəsində qələbəmizdən üç il sonra dünyaya gəlib. Müharibənin vurduğu

yaralar hər evdə, hər ailədə hiss olunurdu. O illəri xatırlamasa da, müharibənin ölüm caynağı üç əmisini öz ağuşuna almışdı. Ata tərəfdən nənəm Ağabac İsmayıl qızının ömrünün axırınadək üzü gülmədi, müharibədən sonrakı illərdə bir nəfərlə də kəlmə kəsmədi. Nə çəkdi ürəyində çəkdi, hüzr məclislərində isə elə bayatı çəkərdi ki, deyərdin, axı, bu sözlər Ağabacı nənədə hardandı? Sən demə, dərd gələndə lal dilləri də açarmış. Dərd güc gələndə Ağabacı nənə başını dəmir sandıqdan çıxartdığı paltarların üzərinə əyərək, sakit-sakit ağlayardı. Yaşa dolandan sonra hiss etdik ki, Ağabacı nənə qəlbində dağ boyda kədər gəzdiriribmiş.

Onda Etibar Lənkəran radio redaksiyasında işləyirdi. Jurnalistikada ilk addımlarını atırdı. Qələbə günü ilə əlaqədar efirdə radio-oçerki gedirdi. Söhbət həyatdan nakam getmiş əmiləri Babacan, Zülfi və Əjdər Əzimovlardan gedərkən atası Əliağa Əhədov (Əhəd babasının adıdır, Əzim Əhədin atasıdır. Əliağa babasının familyasını götürmüşdü - *müəl.*) dəsmalını gözlərinə tərəf apardı. Sən demə, ötən günləri yada salmaq, canlarını Vətən yolunda qurban vermiş qardaşlarını xatırlamaq asan deyilmiş. Tibb xidməti leytenantı Əliağa Əhədovun özü Mozdok, Krım, Sevastopol döyüşlərinin iştirakçısı idi. Mamayevo-Kurqanda ağır yaralandığına görə hərbi hospitalda müalicə olunmuşdu. Müharibənin üçüncü ilində huşunu itirmiş halda əsir düşmüş, on ay sonra qaçaraq partizanlara qoşulmuşdu. 1946-cı ilədək Sovet Ordusu sıralarında xidmətdə olmuş, 1946-1950-ci illərdə Separali kənd səhiyyə məntəqəsinin müdiri işləmişdi. Əsir düşməsi bəhanə gətirilərək, 1951-ci ildə Qazaxıstana sürgün edilmiş, 1953-cü ildə bəraət almışdı.

Etibar Əhədov sonralar yazacaqdı: "Ata tərəfdən Ağabacı nənənin yaddaşında 1918-ci ilin mart ayı "qaçhaqaç" dövrü kimi qalmışdı, ömrünün axırınadək üzü gülmədi, nə çəkdisə, ürəyində çəkdi. Hüzr məclislərində isə elə bayatı çəkərdi ki… Deyərdin, axı, Ağabacı nənədə bu sözlər hardandı.

1918-ci il mart soyqırımı gözlərinin qabağında olmuşdu. Gözlənilmədən ətraf kəndləri dəniz tərəfdən top atəşinə tutmuşdular. Əri Ağacan Əzimov kəndin cavanları ilə dağlara çəkilərək erməni - denikinçi dəstələri ilə vuruşurdu. Atışma qızışanda kənddə qalan qadınlar uşaqlarını yanına alıb Osakücə meşəliyinə tərəf üz tutmuşdular. Ağabacı nənə uşaqlardan yalnız ikisini - Babacan və Zülfünü çiyninə alıb qaça bilmişdi. Hələ bir yaşına çatmamış körpəsi Əliağanı isə Allahın ümidinə qoyaraq həyətdəki yekə nil ağacının oyuğunda gizlədə bilmişdi. Bir qədər keçməmiş ana ürəyi dözməyib, Babacan və Zülfünü qonum-qonşuya əmanət etdi. Ordan-burdan atılan tək-tük güllələrə əhəmiyyət verməyən ana ağac və kolluqların arası ilə qaçaraq sıldırım bir qayanın yanında nəfəsini dərdi. Nə yaxşı ki, çox da qabağa çıxmamışdı. İrəlidə əli silahlı bir neçə nəfər gəlirdi. Qəfildən qarşıdakı tərəfdən şaqqıltı eşidildi, qarasaqqallılar silahlarını o tərəfə tuşladılar. Böyürtüdən hiss olundu ki, hansısa vəhşi bir heyvandır. Silahlılardan biri ehtiyatla qabağa çıxaraq öldürdükləri heyvana yaxınlaşdı və söyə-söyə vargücü ilə onu təpiklədi. Ağabacı ana bu dəfə əks yola çıxaraq təngnəfəs aşağı tərəfə üz tutdu. İndi qabağını heç kəs ala bilməzdi, canını fəda edərdi, təki uşağını xilas etsin. Nil ağacının oyuğunda gizlətdiyi körpəsinə çatmağa az qalmış başının üstündən bərk gurultu qopdu və bu səs bir neçə yüz metr aralıda tükürpədici əks-səda yaratdı.

Ağabacı ana sonra biləcəkdi ki, dənizdən atılan mərmilərdən biri qonşuları Molla Davudun evinə düşüb. Təsadüfən mərmi partlamamış, tüstülənə-tüstülənə sönmüşdü. Molla Davud mərminin təsirindən “Quran” oxuduğu yerdə keçinmişdi. Bir yaşında olan qızı Balabəyim beşikdə yatırmış. Köməyə gələn qonum-qonşu tüstüdən boğulmaqda olan körpəni tələm-tələsik beşik qarışıq evdən çıxarmışdılar.Balabəyim bu dəhşətli hadisədən neçə illər keçəndən sonra,1968-ci ildə - 50 yaşında dünyasını dəyişəcəkdi.

Hələ o illərə çox qalırdı. İndi isə 1918-ci ilin mart ayı idi. Ağabacı ana sakit addımlarla nil ağacına yaxınlaşdı. Ürəyi şiddətlə döyünürdü. Yox, səhv etməmişdi, bir neçə addım kənardan körpəsinin isti nəfəsini duydu. Körpə hələ sakitcə uyuyurdu. Uşağı qucağına alıb bağrına basdı, göz yaşları içində, dönə-dönə üz-gözündən öpdü.

İllər keçəndən sonra, övladları yaşa doldu. Dörd oğul övladından təkcə Əliağa Əhədov müharibədən sağ qayıtdı. Baba, Zülfü və Əjdər 1941-1945-ci illərdə faşistlərlə vuruşmada həlak olmuşdular.

***

Hacı Mirhaşım Talışlı Etibar Əhədovun Lənkəran Dövlət Universitetində anadan olmasının 60 illiyində dedi:

-Mən deyərdim ki, ötən əsrin 70-ci illərindən sonra əyalətdə yaşayan jurnalistlər arasında oçerk janrında ən çox uğur qazanan Etibar Əhədov olub. Təsadüfi deyildir ki, hələ tələbə ikən kafedra müdiri, professor, yazıçı-jurnalist Nurəddin Babayev tələbə-jurnalistlərin yazıları ilə tanışlıqdan sonra Etibar Əhədovun oçerk və publisistik yazılarını yüksək qiymətləndirmiş və onun yazılarını nümunə göstərmişdir. Professor Nurəddin Babayev yanılmamışdı. Etibar Əhədov 1978-ci ildə "Sovet kəndi" qəzetinin "Bizim oçerk" müsabiqəsinin yeganə qalibi oldu. Halbuki həmin müsabiqədə 200-dək yazar iştirak etmişdi. Bu, Etibarın ilk uğuru deyildi. 1969-cu ildə Sovet Ordusu sıralarında xidmətdə olarkən "Na straje" qəzetində (Gürcüstan Respublikası) "Kommunist" sərlövhəli oçerki ilə qalib sayılmış, növbədənkənar məzuniyyətə buraxılmış və SSRİ Müdafiə Nazirliyinin mükafatına layiq görülmüşdü. Səksəninci illərin əvvəllərində "Zəhmət nəğməsi" oçerkinə görə Azərbaycan LKGİ MK, Yazıçılar İttifaqı və "Azərbaycan gəncləri" qəzetinin birgə keçirdiyi müsabiqənin qalibi çıxmış və gənc yazıçıların Zuğulbada keçirilən

qurultayında iştirak etmək hüququnu qazanmışdı. Amma adı yazılmış dəvətnamə ona vaxtında verilmədiyindən qurultaya gedə bilməmişdi. Etibar Əhədov "Belorusiya meşələrində" oçerkinə görə faşizm üzərində tarixi qələbənin 40 illiyi münasibətilə "İdman" ("Sport") qəzetinin elan etdiyi müsabiqənin də qalibi olmuşdur. Mənim jurnalist dostum dəfələrlə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin Dövlət Dəstəyi Fondunun (KİVDF) fərdi jurnalist yazıları müsabiqəsində qalib çıxmışdır.

"Tikan" adlı ilk yazısı "Azərbaycan pioneri" qəzetinin 1961-ci il fevral nömrəsində dərc olunanda Etibar Əhədov onda Lənkəran rayonunun Vilvan kənd səkkizillik məktəbinin altıncı sinfində oxuyurdu. O vaxtdan da qəlbində jurnalist olmaq arzusu baş qaldırmışdı. Əmisi nəvəsi Kamal Rəhmanovla çəkdirdiyi bir şəkil bu gün də həmin günlərdən yadigar qalmışdır. Şəkil əllərində "Jurnalist sənətkarlığı" kitabı tutmuş bu gənclərin gələcək arzularından xəbər verir. Maraqlıdır ki, illər keçəndən sonra hər ikisi istək və arzularına çataraq jurnalist oldu.

Mirhaşım Talışlı yazır: "Neçə vaxtdır ki, birgə yaradıcılıq əlaqələri qurmuşuq. Bəlkə də o olmasaydı, mənim üç ildlik "Seçilmiş əsərləri"m işıq üzü görməzdi. Hacı Etibar bütün yaradıcılığımı bir yerə toplayaraq kitab halına salmış, kiçik oğlu Arazla ona tərtibat vermiş və redaktorluq etmişdir. Bir yerdə tez-tez arxivlərə baş çəkirik. Rayonumuzun tarixinə, xüsusilə 1918-ci il mart soyqırımına aid birgə yazılarımız çap olunmuşdur. "Lənkəran: ensiklopedik məlumat" kitabı (2014,2017) birgə yaradıcılığımızın məhsuludur. Mən deyərdim ki, bu kitabın ərsəyə gəlməsində Hacı Etibarın əməyi daha çoxdur. Uzun illərin tanışlığından bilirəm ki, Hacı Etibar işində dəqiq, məsuliyyətli və səliqəlidir. Vaxtımın azlığından əsas işi onun öhdəsinə buraxmışdım. "Lənkəran məktəbinin tarixi"nə, "Fövcül-füsəha" şairlər məclisinə dair məqalələrimin qaydaya

salınıb dərc olunmasında, "Şəm" ədəbi bülletinin hazırlanmasında Hacı Etibar Əhədovun xüsusi xidmətlərini qeyd etmək istərdim.

Sosialist Əməyi Qəhrəmanı, ictimai-siyasi xadim İsa Məmmədovun həyat və fəaliyyətini əks etdirən "Dəyərli ömrün Lənkəran səhifəsi" kitabı tarixi baxımdan qiymətlidir. Burada Lənkəranın 1970-1981-ci illər dövrü bütün sahələr üzrə öz əksini tapmışdır."

Mirhaşım Talışlı daha sonra yazmışdır: "1972-ci ildən həyatını peşəkar jurnalistika ilə bağlayan Etibar Əhədov cənub bölgəsində müstəqil mətbuatımızın təməlini qoyanlardan biridir. 30 ildir ki, qəzet redaktorudur. Təsisçisi və redaktoru olduğu müstəqil "Aşkarlıq" qəzetinin 20 illiyi 2015-ci ilin avqust ayında Lənkəranda geniş qeyd edilmişdir. Bundan əvvəl isə o, "Lənkəran", "Lənkəranın səsi" və "Lənkəran Dövlət Universiteti" qəzetlərinin baş redaktoru olmuşdur. 1995-ci ildən "Aşkarlıq" müstəqil qəzetinin təsisçisi və baş redaktorudur.

15 ildən çox məsul katib, redaktor müavini və redaktor çalışdığı "Lənkəran" qəzetinin 70 illik yubileyinə dəvət olunmamsı ona yaman təsir etmişdi. Amma yazıçı-jurnalist dostum nikbindir, gələcəyə olan inamını heç vaxt itirməyib. Deyir ki, bu, Mirzə Ələkbər Sabirin yubileyinə oxşayır, böyük demokrat yazıçı-jurnalist Cəlil Məmmədquluzadəni də o yubileyə dəvət etməmişdilər. Mirzə Cəlil bu gün də yaşayır, onu dəvət etməyənlərin isə heç izi-sorağı qalmayıb.

Həmin dövrdə onu ora-bura çəkirdilər ki, "Lənkəran" qəzetindəki fəaliyyətin barədə məktublar yazıblar, gərək yoxlayaq. Milçək bir şey deyil, amma ürək bulandırır. Yazırdılar ki, redaktorun iki arvadı var, özü üçün maşın alıb, kənddə də, şəhərdə də ev tikdirib. Sahibkarlarla, idarə müdirləri ilə gündə eyş-işrətdədir. Hətta birisi yazmışdı ki, "Malbora" siqaretinin pulunu haradan gətirir… Qəribədir, məktublar icra hakimiyyətindən tutumuş dünyanın Azərbay-

canda fəaliyyət göstərən bütün səfirliklərə ünvanlanmışdı. Gələnlər görürdülər ki, bunlar iftiradan başqa bir şey deyildir. Bir şey tapa bilməyəndə isə qəzetin maliyyə sahəsini yoxlayıblar. Özü də bir dəfə yox, dəfələrlə. Sonuncu yoxlamanın nəticələri ilə tanış olan məsul şəxslərdən biri təəccübünü gizlətməyərək deyib ki, axı, necə ola bilər, elanların, başsağlıqların pulları yerli-yerindədir. Bunu eşidən qəzetin keçmiş redaktoru Şəkər Aslan deyib ki, mən Etibara etibar etdiyimə görə bu sahəni ona tapşırmışdım.

Arzuya çatmaq asan deyil. Bəzən sınaqlarla üz-üzə dayanmalı olursan. Əsil həyat odur ki, qarşılaşdığın sınaqlardan üzü ağ çıxasan.

Yazıçı-jurnalist dostum Etibar Əhədov jurnalistlik fəaliyyəti dövründə çətin, lakin şərəfli həyat yolu keçib. Onun qələmindən çıxan yazıları bir yerə yığmaq mümkün olsa, bəlkə də on cildlərlə kitaba sığışmaz. Gününün çox hissəsini yazıb-yaratmağa sərf edir. Etibarın iş prinsipi belədir ki, gündə beş makinalıq səhifə yazmamış rahat olmur. Bu, ayda orta hesabla on çap vərəqi edir. Deməк, yazıçı-jurnalist dostum meydana on ayda 1500 makina səhifəlik yaradıcılıq məhsulu qoyur. 50 ilə yaxın yaradıcılıq dövrünü də buna əlavə etsək, görərik ki, mənim yazıçı-jurnalist dostum necə də məhsuldardır! 60-a yaxın kitabın müəllifidir. O, elə-belə yazmır, yaradıcılığında odalov var, onu oxuyan hər kəs müəllifin istək və arzuları ilə üz-üzə dayanır. Bunlarda torpaq, yurd həsrəti, zəhmət nəğməsi, insan və zaman haqqında düşüncələr öz bədii həllini tapıb. Müasir insanların həyatı onun yaradıcılığının əsasını təşkil edir. O, nədən yazmamışdır?! Mən deyərdim ki, həyatımızın bütün sahələrindən yazmışdır. Xəzərin sərvətini üzə çıxaran neftçilərin, balıqçıların, böyük zəhmət bahasına öz məhsullarını uzaq-uzaq şəhərlərə göndərən tərəvəzçilərin, çaybecərənlərin, sitrusçuların, həmçinin kosmonavtların, görkəmli dövlət və elm xadimlərinin, müxtəlif peşə sahiblərinin həyatından yazdıqları

kimə tanış deyil?! "Lənkəran şəhidləri" kitabının çapı üçün öz nişan üzüyünü satıb. Bəzən günlərlə nəşriyyat qapılarında ayaq döyüb, amma inadından dönməyib, özünə olan inamını itirməib. Ayrı-ayrı şəxsiyyətlərin həyatından bəhs etdiyi kitabları publisistikamızın gözəl nümunəsi hesab etmək olar. Azərbaycanın əksər yerlərində oxucuları vardır. Bir dəfə onu Naxçıvanın Nehrəm kəndinə dəvət etmişdilər. 2000-ci ildə dostu Hacı İdris Cəfərovla burada qaldığı üç həftə ərzində Naxçıvanın bir çox yerlərində, o cümlədən Ordubadda Məmməd Səid Ordubadinin, Nehrəmdə Cəlil Məmmədquluzadənin ev muzeylərində, müqəddəs Əshabi-Kəhf ziyarətgahında oldular, Tanınmış elm, mədəniyyət xadimləri və dindarlarla görüş "Nehrəm və hacıları" kitabının yaranmasına səbəb oldu.

Çox yerlərə onu dəvət ediblər. Oxuculardan aldığı məktublar Etibarı daha da ürəkləndirib, yeni yaradıcılıq axtarışlarına ruhlandırıb. Professor Əjdər Ağazadə bir dəfə bildirdi ki, mən Lənkəranı Etibar Əhədovun yazılarına görə tanıyıram, onun hər yazısı Lənkəranda olan yeniliklərdən, burada gedən abadlıq-quruculuq işlərindən xəbər verir. 1991-ci ildə Türkiyədə olarkən Topqapı sarayında Həzrəti Məhəmməd Peyğəmbərə (s) məxsus eksponatlarla tanış olduqdan sonra onu başqa bir otağa çəkmiş, burada üstündə "La ilahə iləllah!" sözləri həkk olunmuş nazik bir taxta lövhəsi ilə tanış etmişlər. Etibar Əhədov danışır ki, muzey əməkdaşlarının dediyinə görə xarici ölkələrindən birində ağac kəsilərkən möcüzə baş vermiş, ağac bərabər hissəyə bölünərək bu nadir lövhə üzə çıxmışdır. "Türkiyə görüşləri" səyahət-oçerkində bu hadisəni həyəcansız oxumaq olmur.

Bir dəfə Bakıdan qayıdarkən avtobusa bir nəfər qalxır və gəlib Etibarın yanında əyləşir. Avtobus tərpənəndə ağsaqqal deyir ki, Lənkərana Hacı Etibar Əhədovla görüşməyə gedir. Etibar gülümsünür və səbəbini soruşur. Ağsaqqal deyir ki, ondan Hacı Mirsultan ağa haqqında yazdığı "Cənnət ziyarəti"

kitabını alacaq. Hacı Etibar portfelindən həmin kitabı çıxardıb kişiyə uzadır və deyir ki, axtardığın adam mənəm. Kişi onun üz-gözündən öpüb minnətdarlığını bildirir və yolunu davam etdirmədən növbəti dayanacaqda düşür.

Belə gözlənilməz hadisələr Hacı Etibarın həyatında az olmayıb. Hər dəfə də Allah-taala onu hifz edib, qoruyub. Ordu sıralarında xidmətdə olarkən başına gələn hadisəni bu gün də unutmayıb.

-Əsgərlikdə dustaqlar üzərində nəzarətçi-keşikçi qalırdıq, - deyir. - Bir dəfə dustaqları çay yığımına aparmışdıq. Güclü yağış yağdığına görə onları daldalanacaq yerə apardıq. Şimşək çaxır, göy guruldayırdı. Dustaqlardan biri əsəblərimi yoxlamaq üçün qadağa qoyulmuş yerdə dayanaraq, müxtəlif hərəkətlər göstərməyə başladı. Ona irad etsəm də, məhəl qoymurdu. Bir qədər kənara çəkilərək dedim ki, içəri keç, yoxsa, Allah cəzanı verəcək. O, hırıldaya-hırıldaya deyirdi: - Sənin Allahın mənə nə edəcək?

-Allah bilən məsləhətdir, - dedim və azca kənara çəkildim. Elə bu an göydə qırmızı bir şar göründü və qəfil zərbə ilə dustağın başını aldı. İldırımın təsirindən hərə bir tərəfə sərildi. Mənə meydan oxuyan dustaq yerindəcə keçinmişdi. O gündən hamı mənə müqəddəs şəxs kimi yanaşırdı.

Hacı Etibar Əhədov 1993-cü ildən "Lənkəranın səsi" qəzetinin, 1995-ci ildən "Aşkarlıq" qəzetinin təsisçisi və baş redaktoru, 1999-cu ildən Lənkəran Dövlət Universiteti mətbuat və informasiya xidmətinin rəhbəridir. 15 ilə yaxın Lənkəran Dövlət Universitetində birgə çalışmışıq.

O, 20 ildən çox rayon Partiya Komitəsi mətbuat mərkəzinin üzvü, Azərbaycan Jurnalistlər Birliyi cənub bölgəsi üzrə məsul katibi, redaksiya ilk partiya təşkilatının katibi, redaksiya həmkarlar ittifaqı təşkilatının sədri, Azərbaycan jurnalistərinin VI, VII və VIII qurultaylırının nümayəndəsi olmuşdur. Yaradıcılıq uğurlarına görə, dəfələrlə Lənkəran Şəhər Partiya

Komitəsinin və Lənkəran Şəhər İcra Hakimiyyətinin fəxri fərmanlarına layiq görülmüşdür.

Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Reklamçılar İttifaqının üzvüdür.

Çoxları bilmir ki, 1993-cü il avqustun 23-də əsgərləri, zabitləri, əhalini sayıqlığa, silah açmamağa səsləyən və Lənkəranın indiki Heydər Əliyev meydanında, əsgər kazarmalarında yayılan müraciətlər Etibar Əhədov və uzun illər rayon qəzetinin redaktoru işləmiş Şəkər Aslan tərəfindən hazırlanmışdır. Onlar həmin gecə səhərədək Lənkəran Polis Şöbəsində növbədə dayanaraq, dövlətçiliyimizin möhkəmlənməsinə, müstəqilliyimizin qorunmasına xidmət edən müraciətlər yazıb çap etdirmişlər.

Həmin dövrdə vəzifədə olanların heç biri bu gün hakimiyyətdə deyil, amma mənim yazıçı-jurnalist dostum Etibar Əhədov bu gün də öz qələmi ilə hakimiyyətdədir, sabah da kitabları ilə hakimiyyətdə olacaq.

İllər həmişə rəvan getmir. Acılı-şirinli günləri də olur. Mənim yazıçı dostum belə günlərin çox şahidi olub. Həmişə də Allaha sığınıb, ondan imdad istəyib.

Yazıçı-jurnalist dostum Hacı Etibar Əhədovu mən, həm də müasir publisistikamızın istedadlı nümayəndələrindən biri kimi tanıyıram. Rayonun məktəb, səhiyyə, mədəniyyət, hərbi-vətənpərvərlik, maliyyə, rabitə tariximizə aid yazdığı kitablarını mən Lənkəranın salnaməsi adlandırardım. Lənkəran Pedaqoji Texnikumu, Mamusta, Boladi, Veravul, Lüvəsər, Girdəni, Vilvan, Nərimanabad kəndləri və məktəbləri, ayrı-ayrı şəxsiyyətlər haqqında çap etdirdiyi kitablar da tarixi baxımdan qiymətlidir. Uzun illərdir ki, o, "Molla Nəsrəddin" jurnalının Lənkəran müxbirləri ilə bağlı elmi araşdırmalar aparır. Bu barədə mənim də ona məsləhətim və tövsiyələrim olmuşdur. Araşdırmaları hələ tələbə ikən Bakı Dövlət Universitetinin "Jurnalistika", "Elm və həyat" jurnallarında, sonralar Lənkəran

Dövlət Universitetinin "Xəbərlər" bülletində və müxtəlif mətbuat orqanlarında dərc edilmişdir.

Hacı Etibar Əhədov Azərbaycan, rus, gürcü, erməni, moldav, talış dillərində çap olunmuşdur. Sovet dövründə Moskvada çıxan "Oqonyok" jurnalında, "İzvestiya", "Trud", "Selskaya jizn" qəzetlərində Lənkəranın sosial-mədəni həyatından bəhs edən yazıları da diqqəti cəlb etmiş, redaksiyalardan minnətdarlıq məktubları almışdır.

Respublikanın elə rayonu yoxdur ki, oradan minnətdarlıq məktubu almasın. Bəziləri qəzet məqaləsinə, bəziləri isə yeni kitabına görə təbrik edir, ondan yaradıcılığı haqqında məlumat istəyirlər. Bəziləri ilə bu gün də əlaqə saxlayır, yeni kitabı çıxan kimi oxucularına çatdırır.

Etibar Əhədov hələ Lənkəran radiosunda işləyərkən itkin düşmüş əmilərinin axtarışına başladı. SSRİ Müdafiə Nazirliyinin Dövlət Arxivinə müraciət etdi. Arxivdən aldığı məktubda Zülfi əmisinin 146-cı atıcı diviziyasının tərkibində döyüşdüyü, 1944-cü il yanvarın 12-də Velikoluk vilayətinin Pustoykin rayonu uğrunda döyüşdə həlak olduğu və Stayki kənd qardaşlıq qəbiristanında basdırıldığı qeyd olunmuşdu. Etibar Əhədov əmiləri Babacan və Əjdər haqqında məlumat əldə etmək üçün yaradıcılıq ezamiyyətlərində oldu. Sonradan heç kəsdən dəstək almayan gənc jurnalist Ukraynada, Belorusiyada oldu, əfsanəvi Mamayevo-Kurqana baş çəkdi, Xatın kəndində oldu, Moskvanın, Minskin qardaşlıq qəbiristanlıqlarını ziyarət etdi. Faşistlərin yer üzündən sildikləri Xatın kəndində zənglərin səksəkəli səslərini həyəcanla dinlədi və sonralar "Xatın harayı" oçerkini yazdı. Oçerk 1985-ci ildə "Kənd həyatı" jurnalının oçerk müsabiqəsinin ikinci mükafatına layiq görüldü.

***

Kənddəki ata yurdunda da olmuşam. Onun hər gəlişi sanki toy-bayrama çevrilir. Qonum-qonşu başına yığışır. Bir dəfə diqqət etdim, gördüm ki, qardaş-bacıları onun yanında öz uşaqlarını qucağa almırlar. O, əlini süfrəyə uzatmamış heç kəs süfrəyə yaxın durmur. Xeyir-şər məclislərinin yuxarı başında əyləşir. El-obada məsləhət, kömək lazım olanda Hacı Etibarı arayıb-axtarırlar. Budur əsil ağsaqqallıq, böyüklük! Mən deyərdim ki, mənim yazıçı-jurnalist dostum təkcə bir evin, bir tayfanın deyil, kəndin ağsaqqalıdır, gənc yaradıcı qüvvələrin ağsaqqal ustadıdır. Təmkinliyi, düzlüyü, halallığı, işgüzarlığı ona hörmət, nüfuz qazandırıb.

2017

---

*Zəfər ORUCOĞLU,*
*Azərbaycan Jurnalistlər Birliyinin*
*üzvü*

## JURNALİST ADININ UCALIĞINDA

Cənub bölgəsində öz xalqını, vətənini varlığı qədər sevən, dövlətə sədaqətli, sayılıb seçilən şəxsiyyətlərdən söz düşəndə Hacı Etibar Əhədovun adı həmişə birincilər sırasında çəkilir. O, sözün geniş mənasında böyük ürək sahibidir. İşlərinin mayasında saflıq, düzlük, doğruluq, dürüstlük dayanır. Odur ki, tanıyanlar Hacı Etibara mənəviyyat, kamillik, müdriklik örnəyi kimi baxırlar. Öz xalqına indiyə qədər göstərdiyi xidmətlərə görə dəyəri, yaşadığımız həyatda kimliyi yaxşı bilinir. İnsanlıq və dahilik zirvəsi ona çox yaraşır. O, ömrünün 77-ci pilləsinə qədəm qoyubdur. Etibar, sədaqət rəmzi olaraq duyğulu ürəyi, odu-alovu neçə-neçə ocağa hərarət gətirir və bu hərarətdən yaranan sevinci görəndə bütün bunlardan mənəvi zövq alır.

Bəşər övladını müqəddəsliyə doğru aparan nə qədər yüksək, nəcib mənəvi-əxlaqi keyfiyyətlər var, hamısı Hacı Etibar Əhədovun xarakterində cəmləşib. Bu gözəl, humanist təbiətli vətən övladında vətənpərvərlik, milli ləyaqət hissi isə daha güclüdür. Yorulmadan millətin səadəti üçün çalışmaq onun həyat amilidir. Mənalı, dəyərli əməlləri də xalqımızın müdrik təbiətinə, mənəvi dəyanətinə əsaslanır. Həm də özü saf olduğu qədər başqalarını da xeyirxah, nəcib əməllərə səsləyir. Axı, gözəl dünya gözəl insanların əməlindən yaranır.

Vilvan kəndi Lənkəranın ən səfalı guşəsidir. Buranın təbiəti kimi, insanları da mehriban, səxavətli, halallığı sevəndir. Etibar Əhədov belə bir məhəbbətli yurd yerində dünyaya göz açır. Günlər, aylar ötür. Etibar məktəbə gedir, dərslərini yaxşı oxuyur, fəal şagird kim tanınır. Sinifdən-sinfə keçdikcə qeyri-adiliyi, daxili böyüklüyü, ədəb-ərkanı, özünəməxsus davranış qaydaları, ən çox da insanların xeyrinə yaramaq istəyi ilk baxışdan onun parlaq gələcəyindən xəbər verir.

Orta məktəbi bitirib halal, haqqa söykənən sözdən yapışır. Sözü daha tutarlı olsun deyə, doğma yurdun hər guşəsinə heyranlıqla, vurğunluqla boylanır, ayağını torpağa möhkəm basır... Azərbaycanın sədaqətli övladı vətəninin maraqlarına, doğma yurdunun tərəqqi və yüksəlişinə xidmət edən məqalələr yazır. Zəhməti, istedadı, qabiliyyəti sayəsində imzası tez də tanınır və sevilir.

Dövrün tələblərinə uyğun Etibarın əsgəri xidməti başlanır. Ömrünün bu iki ilini də öz xasiyyətinə, bacarığına, dünyagörüşünə bənzər yola verir. Yəni onda olan vətənpərvərlik, milli ləyaqət hissi qəlbindən keçən müqəddəs duyğuların paklığına bürünərək Azərbaycanın adına ucalıq gətirir. Özündə cəm etdiyi insani dəyərlərlə başqa millətdən olanları oğlu olduğu xalqın müdrik təbiətinə, mənəvi dəyanətinə, tarixin çətin sınaqlardan çıxan qüdrətinə heyran qoyur. Bütün vəziyyətlərdə belə Azərbaycan millətinə xas mərd-mərdanə qal-

mağı bacarır. Beləcə əsgərliyini üzüağ başa vurub doğma Lənkərana qayıdır.

Etibar Lənkəranda insana qol-qanad verən çox yeniliyin şahidi olur. Ürəkdən sevinir, özünü zəhmətkeş insanlarla bir sırada sınamaq istəyir. Qaldı ki, yaradıcılıq üslubunu, doğru sözə sədaqətini nəzərə alıb onu yerli Lənkəran radiosunda işə götürürlər.

İş gününü iç dünyasına hopan zəhmət ətirli sətirlərlə başlayır. Düz, vicdanlı adam olduğu üçün əlindəki qələm də adını yaxşı dillərə salır. Ən çox da ondan danışan torpaqla, zəhmətlə ünsiyyətdə olanlar olur. Özünə qarşı bu məhəbbəti hiss edir, bütün tapşırıqlarını elin yüksəlişinə bağlamaqla daxili yanğı, ehtirasla həyata keçirir. Hər yazısı adamları nəcib məqsədlərə yönəldir, ürəklərdə sevinc yaradır.

Ruhən, qəlbən sözə olan bağlılıq, ona bəslənən ilahi sevgi gənc müxbiri 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinə gətirib çıxarır. Tələbə adını qazananda onun həyatına yeni günəş doğur. Sevinc və həyəcan dolu günləri başlanır. Nəcib insani keyfiyyətləri, ətrafla mehriban ünsiyyəti, dərin yaradıcılıq təfəkkürü ali məktəbdə ona hörmət qazandırır, həmişə öndə olan tələbə kimi seçilir. Oxumağı, savadı müəllimləri razı salır, ülvi duyğularla yazıb-yaratmaqdan da qalmır. O dövrün nüfuzlu mətbu orqanları - "Kənd həyatı", "Azərbaycan qadını", "Təşviqatçı", "Müxbir" jurnalları, "Sovet kəndi", "Azərbaycan gəncləri", "Kommunist", "İdman", "İnşaatçı" qəzetləri tez-tez tələbə Etibarın müxtəlif janrlarda yazılarına öz səhifələrində yer ayırırlar. Yazıları da oxucularda yalnız xoş əhval-ruhiyyə oyadır, ona etimad göstərən mətbu orqanlara hörmət qazandırır.

Etibar Əhədov 1976-cı ildə jurnalistika peşəsinin sirlərinə dərindən, tam bələd olmaqla ali məktəbi başa vurur. İşə gələndə isə yenə də sözə, qələmə sadiqliyi onu darda qoymur. Belə ki, şəhər Partiya Komitəsinin göndərişi ilə "Leninçi" (indiki

"Lənkəran") qəzetinə məsul katib vəzifəsinə irəli çəkilir. Bu da həmin dövrə görə olduqca məsuliyyətli, şərəfli iş idi. Gənc jurnalist bunu yaxşı başa düşür, əmək fəaliyyətinə böyük həvəslə başlayır. Daxildən saf çeşmə tək çağlayan yaradıcılıq həvəsi çox keçmir ki, qəzetə yeni nəfəs, yeni ideyalar gətirir. Ən əsası hər işə başlayanda vətəndaş mövqeyi, insan amili, xalq mənafeyi öndə durur. Etibar Əhədov öz vəzifə borcunu layiqincə görməklə bərabər, qələmə aldığı məzmunlu, dəyərli məqalələri ilə neçə-neçə sadə peşə adamı, əmək qabaqcılını, kənd ziyalısını, qayğıkeş həkimi oxuculara sevdirir. Rayon qəzetindən başqa "Sovet kəndi", "İdman", "Na Straje" qəzetləri, "Kənd həyatı" jurnalının keçirdiyi böyük rəqabətli müsabiqələrin qalibi olur. Necə deyərlər, insanları düşündürən, nəticə çıxarmağa sövq edən yazılarının sayı bilinmir. "Xatın harayı" yazısının mükafatı onun üçün daha böyük əhəmiyyət daşıyır. Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun keçirdiyi ən yaxşı yazı müsabiqələrinin qalibi kimi, dəfələrlə I, II və III dərəcəli diplomlara və pul mükafatlarına layiq görülmüşdür. Haqqında sənədli kino-film çəkilmiş, ona şəhər bələdiyyəsinin "İlin laureatı" adı verilmişdir. Lənkəran Dövlət Universitetində, Yazıçılar Birliyi Lənkəran bölmsində, doğulub boya-başa çatdığı Vilvan kəndində anadan olmasının 60, 70 və 75 illik yubileyləri geniş qeyd edilmişdir.

Etibar Əhədov Moskvada Ümumittifaq Jurnalistika Sənətkarlığı İnstitutunun İxtisaslaşma kursunu də fərqlənmə ilə bitirir. Sənətinə ürəkdən bağlanır və bu bağlılığın ana xətti onun gündəlik işində, jurnalistlik qayğılarında aydın görünür. Sözü yerində işlətməsi, toxunduğu mövzuların xalq ruhuna yaxınlığı məsul katibi olduğu "Leninçi" qəzetini həmişə maraqlı, baxımlı edir. Sanki onun hər sayı Lənkəran camaatının arzu-istəklərini həyata keçirən, yaşadan topluya dönür. Qəzetə inanır, istədikləri vaxt ürəklərini ona açа bilirlər. Bunu görən, duyan Etibar müəllimin peşəkar qələmindən,

həyat gerçəklərinə dərin yaradıcı baxışından yaranan söz də xalqa, millətə ləyaqətlə xidmət edir. Uzun illər bu vəzifədə çalışır. Heç kimə pisliyi dəymir. İnsanların mənəvi dünyasına, torpağın, Vətənin taleyinə həsr etdiyi məqalələri Lənkəran rayonunun hər tərəfli inkişafına, yüksəlişinə, mənəviyyatına dəyərli, yadda qalan töhfələr verir. Bunlara görə Etibar Əhədov yaşadığı elinin, halallıqdan ocaq qaladığı yurdunun döyünən qəlbi, cəmiyyətin düşünən beyni olaraq həyatın bütün enişli-yoxuşlu yollarında başıuca addımlayır, əsl kişi kimi ad qoyur və zamandan, məkandan asılı olmayaraq müdrik, dahi bir xalqın milli yaddaşının, milli ruhunun daşıyıcısı olur.

Müstəqilliyinin ilk illərində "Leninçi" qəzeti "Lənkəran" adı ilə nəşr edilir. Etibar Əhədovun jurnalistlik təcrübəsini, sadəliyini, səmimiyyətini, insanlarla dil tapmaq bacarığını, qəlbinin dərinliyində yaşatdığı vətən məhəbbətini nəzərə alıb onu qəzetə baş redaktor seçirlər. Dəyişən dünyanı düzgün dərk edir, qələmini yeni yaradıcılıq tələblərinə kökləyir. Millilik, vətənpərvərlik, doğma torpağa sahiblik, düşmənə nifrət onun iş üslubuna dönür. Həmin günlərin canlı şahidi olan yazıçı Hafiz Mirzə deyir:

- Etibar müəllim özü əqidə, əməl adamı olmaqla Azərbaycanın gələcəyini düşünür, kollektivdən də bunu istəyirdi. Bu işıqlı şəxsiyyət yüksək cəmiyyət naminə çalışır, insanlar arasında sağlam mənəvi idealları yayırdı. Belə nəcib məqsədlə hətta hakim partiyanı və hakimiyyəti qəsb etmiş separatizmi tənqid atəşinə tutmaqdan çəkinmirdi.

Nə olursa-olsun, Etibar müəllim canı qədər sevdiyi xalqdan ayrı düşmür. Əsl vətən övladı olmasını saf əməlləri ilə sübut edir, vətənin maraqları naminə azadlıq mücadiləsinin öndə gedir. Başlıcası isə yüzlərlə, minlərlə digər vətən övladları kimi Azərbaycanın azadlığını Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsində görür, buna ürəkdən inanır. Oxucunun gözünü yolda qoyan məqam gəlib çatır. Bu, 1993-cü ilin iyunun

15-də baş tutur. Xalqımızın böyük, müdrik oğlu Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtmaqla Azərbaycanı yenidən dirçəldir, onun müstəqil həyatının yeni parlaq səhifələrini yazır. Heydər Əliyevin ideyalarına sonsuz sədaqət göstərən elə biri də Etibar Əhədov olur. Ulu Öndərin Azərbaycanın çiçəklənməsi, hərtərəfli inkişafı naminə sözlə ifadəsi mümkün olmayan böyük işləri onun yaradıcılığında sanki yeni dövr açır. Firavan həyat, sevinc, səadət dolu günlərin eşqi ilə çeşmə tək qəlbi çağlayır…

Etibar Əhədov yaşadığı cəmiyyətdə həmişə mərdliyə, insanpərvərliyə, xeyirxahlığa can atır. Ötüb keçən günləri gözəl duyğularla yola salan ömrü nəcib əməllərlə naxışlanır. Daxildən gələn tükənməz yaradıcılıq enerjisi onu yeni müstəqil qəzet açmağa sövq edir və baş redaktorluğu ilə "Lənkəranın səsi" qəzeti yaranır. İlk gündən yaradıcılıq istedadı, insani keyfiyyətləri özünü göstərir, başına vətənin mənafeyini düşünən, xalqa bağlı, əqidəsi möhkəm, həyatsevər insanları toplayır. Dərin zəkaya, düşüncəyə söykənən, insanlara fayda verən, etik normalara uyğun yazılar tez də qəzetə oxucu marağı qazandırır. Humanist düşüncə tərzinə malik, həyatı dərindən bilən redaktor dahi liderimiz Heydər Əliyevin müdrik dövlətçilik fəaliyyətindən sanballı məqalələr yazır və yenidən müstəqillik qazanan dövlətimizin həyatında əsl vətəndaş mövqeyi nümayış etdirir, ağıllı məsləhət verməklə cəmiyyətin tərəqqisinə çalışır.

Bir müddət keçəndən sonra Etibar Əhədov Lənkəran Dövlət Universitetinin Mətbuat xidmətinə rəhbər təyin olunur. Təpədən dırnağadək tərtəmiz, pislik bilməyən bu insan işini vicdanla, namusla görür. Ali məktəbdə millətimizə başıucalığı gətirən, kişilik, mərdlik dərsini öyrədən kamil insantək özünü tanıdır. Əzəldən düz sözü sevmiş, sözün qüdrətinə tam bələd olan bu halal qələm sahibi jurnalistlik fəaliyyətindən də qalmır. AzərTAC-da, beynəlxalq "Günay" qəzetinin bölgə müxbiri olur, həmçinin ərsəyə gətirdiyi kitablar ardıcıl işıq üzü görür. 60-dan çox publisistik kitabın müəllifidir.

1995-ci ildə Etibar Əhədov əqidə keyfiyyətlərinə görə müqəddəs Həcc səfərinin zəvvarı olur. Həmin ili tarixin salnaməsini yaşatmaqdan ötrü "Aşkarlıq" qəzetini təsis edir. Neçə illərdir qəzet maarifçilik nurunu bütün cənub bölgəsinə səpir. Adamları düşündürən, narahat edən vacib, aktual ictimai-əxlaqi problemlərdən yazır. Burada vaxtaşırı bölgənin tanınmış söz adamlarının imzasına rast gəlinir, maraqlı, müdrik insanların çıxışı qəzetə özgə bir rəng qatır. O, artıq xalq məhəbbəti qazanmaqla tarixin səhifələrində öz layiqli yerini tutmuşdur.

Etibar Əhədov mənəviyyata tapınan şərəfli bir ömür yaşamaqla cənub bölgəsinin fəxridir. O, mənalı əməlləri ilə xalqa bağlı ağıllı, müdrik şəxsiyyətdir. Cənub bölgəsində onun haqqında yüksək fikirli minlərlə adam yaşayır. Gəlin, onların bir neçəsini dinləyək.

Rövşən İmanov: (Lerik, Qışlaq kənd tibb məntəqəsinin müdiri): - Cənub bölgəsinin xeyirxah məsləhətçisi olan Etibar müəllim olduqca şərəfli, ləyaqətli bir ömür yaşayır. Halallıq, səmimiyyət onun həyat meyarıdır. Yüksək əxlaqi, mənəvi dəyərlərə malikdir. Söz sərrafıdır. Təsis etdiyi "Aşkarlıq" qəzeti insanlara doğruluğu, sədaqəti öyrədən gözəl məktəbdir.

Asif Abbaszadə (Masallı rayonu, Dəmirçilər kənd məktəbinin müəllimi): - Etibar Əhədov xalqa ləyaqətlə xidmət edən işıqlı zəka sahibidir. El-oba təəssübü çəkən ziyalı, çörək verən kişidir. İstəyi, niyyəti adamların xoş güzəranıdır. Öz nəcib həyat amalı ilə dəyərli, lazımlı işlər görür. "Aşkarlıq" adında qəzet buraxır. Qəzet işində də onun şəxsiyyəti ilə yaradıcılığı üst-üstə düşür. Qəzeti oxuyanda adam Hacı Etibarın bütöv Azərbaycana böyük sevgisini görür.

Nəriman Azər (Astara rayon sakini): - Mən deyərdim ki, Etibar müəllim Ulu Yaradanın bu dünyaya yaxşılıq rəmzi, ləyaqət mücəssəməsidir. Əqidəsinə, amalına sadiq mərd insandır. Əl tutmaq, xeyirxahlıq etmək onun canındadır. O, gözəl yazıb-yaradan söz sənətkarıdır.

Bölgənin məşhur el adamları, ağsaqqallar, ağbirçəklər, Qarabağ savaşın qəhrəmanları onun mövzu obyektidir.

Elşad Həsənov (Lənkəran rayonu, Hirkan kənd sakini): - Lənkəran camaatı Hacı Etibara bir nurlu şəxsiyyət kimi məhəbbət bəsləyir. Yüksək insani keyfiyyətləri həmişə köməyimizə çatır. Qarşıya qoyduğu saf və ülvi məqsədlərlə rayonun böyük ziyalısıdır.

"Azad Azərbaycan",
02.10.2018

---

*Sevda ƏLİBƏYLİ,*
*"Söz" jurnalının baş redaktoru*

## SÖZƏ, MƏTBUATA HƏSR OLUNAN ÖMÜR

Azərbaycan Dövlət Universitetinin (hazırkı Bakı Dövlət Universiteti-red.) jurnalistika fakültəsini bitirməyimlə bu gün də fəxarət duyuram. Amma təcrübə məktəbini Lənkəranda şair-dramaturq, publisist Şəkər Aslanın "akademiya"sında keçməyimlə daha çox fəxr edirəm. Ciddi, tələbkar, qayğıkeş, işgüzar, sağlam rəqabətli rəhbərliyə və kollektivə malik "akademiya"ya düşmüşdüm. "Akademiya"nın müəllimlərindən biri Etibar Əhədov idi. İşə qəbul olunduğum 1 fevral 1983-cü ilə qədər yazılarını yerli və respublika mətbuatından oxumuşdum. Lakin həmin gün şəxsən tanış oldum. Bu gün həmin tanışlıqdan 40 ildən artıq vaxt ötür. Fevral ayının şaxtalı qış günü bütün aydınlığıyla yadımdadır. Şaxtalı qış axşamının günəşli səhəri... Nazik buzları sındıraraq işə gedirdim. Arzularımın, xəyallarımın ünvanı olan redaksiyaya. O zaman hər rayonda bir qəzet vardı. "Redaksiya" deyəndə yerli qəzetin məkanı nəzərdə tutulurdu. Düz 10 il yerli qəzetdə çalışdım. Bu gün də özümü o

doğma qəzetin, unudulmaz kollektivin yetirməsi sayıram və Hacı Etibar Əhədovun 75 illiyinə bu yazını yazanda özümü o zamanın içində sanıram. 40 il öncə tanış olduğum Etibar Əhədov o zaman 35 yaşında imiş. Amma mənim nəzərimdə müdrik, ağsaqqal bir şəxs idi. Şəkər müəllim məni Etibar Əhədovla bir otaqda otuzdurdu. Etibar müəllim məsul katib idi. Qəzetçilər yaxşı bilir ki, məsul katib bu gün də qəzetdə aparıcı simadır. Redaksiyayla mətbəə arasında bir növ vasitəçi, körpüdür.

Şəkər müəllimin redaktor olaraq bir tələbi vardı: hər gün yazı yazmaya bilərsən. Amma hər gün nəsə oxuyub öyrənməlisən. Mən də ötən illərin komplektlərini açıb böyük həvəs və maraqla oxuyurdum. Ürəyimdə yaxşı mənada "kaş mən də belə yaza biləydim" həsəd dolu yazmaq həvəsi, yazmaq arzusu... O zaman qəzetin əsas simalarından olan Əyyub Rzayevin, Qüdrət Cəfərovun, Barat Kərimovun, Xudaverdi Cavadovun, Kamal Rəhmanovun yazılarını da sevərək oxuyurdum. Lakin Etibar Əhədovun yazıları daha çox maraq dairəmdə idi.

Etibar Əhədov barmaqla sayılası jurnalistlərdəndir ki, peşəsinə sədaqətlə xidmət edir. Əmək fəaliyyətinin tarixi yarım əsrdən artıqdır.

Respublikamızın cənub bölgəsində müstəqil mətbuatımızın ilk yaradıcılarından biridir. Lənkəranda müasir jurnalistika məktəbinin təməlini qoyan istedadlı jurnalist, tanınmış publisist, tədqiqatçı, Prezident mükafatçısı Etibar Əhədov 50 ildən çoxdur ki, əlində qələm peşəkar jurnalistikada çalışır. 35 ilə yaxın qəzet redaktorudur.

Etibar Əliağa oğlu Əhədov 1948-ci il noyabrın 22-də Lənkəran rayonunun Vilvan kəndində anadan olub. Əmək fəaliyyətinə kəndlərindəki təsərrüfatda fəhlə işləməklə başlayıb. Hərbi xidmətdən sonra, 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini, 1986-cı ildə Moskvada Ümumittifaq Jurnalistika Sənətkarlığı İnstitutunun ixtisasartırma kursunu bitirib.

Müxtəlif illərdə Lənkəran radio verilişləri redaksiyasının redaktoru (1971-1977), "Lənkəran" qəzetinin məsul katibi (1978-1990), redaktor müavini (1990-1992), qəzetin redaktoru (1992-1993), "Lənkəranın səsi" müstəqil ictimai-siyasi qəzetinin baş redaktoru (1992-1995), eyni zamanda "Günay" qəzetinin bölgə müxbiri (1994-1999), 20 il müddətində Lənkəran Dövlət Universiteti mətbuat xidmətinin rəhbəri işləyib.

1995-ci ildən "Aşkarlıq" qəzetinin təsisçisi və baş redaktorudur. Qəzetin 25 illiyi rayon səviyyəsində geniş qeyd olunub.

"Tikan" adlı ilk yazısı 1962-ci ildə - 6-cı sinifdə oxuyarkən "Azərbaycan pioneri" qəzetində çap olunub.

Lənkəranın iqtisadi, sosial-siyasi və mədəni həyatına aid saysız-hesabsız oçerk və publisistik yazıları təkcə Azərbaycanda deyil, həmçinin MDB respublikalarının müxtəlif mətbuat orqanlarında, o cümlədən, Moskvada çıxan "Pravda", "İzvestiya", "Trud", "Selskaya jizn", "Qlasnost" qəzetlərində, "Oqonyok", "Sovetskaya jizn" jurnallarında çap olunub. Müxtəlif şəxsiyyətlər və dövlət xadimləri, o cümlədən, Naxçıvanın Nehrəm kəndinin tarixi-etnoqrafiyası, Lənkəranın, həmçinin rayonun ayrı-ayrı kəndlərinin tarixi haqqında 60-a yaxın kitabı işıq üzü görüb. 50, 60, 70 və 75 illik yubileyləri Lənkəranda, o cümlədən, Lənkəran Dövlət Universitetində, Yazıçılar Birliyi Lənkəran bölməsində, doğulub boya-başa çatdığı Vilvan kəndində və sair yerlərdə keçirilib.

Hacı Etibar Əhədovun "Lənkəranda bir ev var" adlı ilk kitabı 1989-cu ildə "Yazıçı" nəşriyyatında çap olunub. Bu kitaba Lənkəranın tarixinin bəzi məqamları, onun ictimai-siyasi həyatında fəal iştirak etmiş müxtəlif taleli insanlar haqqında oçerklər, sənədli hekayə və sənədli povestlər daxil edilib. Lənkəranın tarixinə, folkloruna, etnoqrafiyasına həsr etdiyi "Lənkəran boğçası" kitabı "İşıq" nəşriyyatında 10 min tirajla çap olunub. Sosialist Əməyi Qəhrəmanı, ictimai-siyasi və dövlət xadimi İsa Məmmədovun həyat və fəaliyyətini əks etdirən

"Dəyərli ömrün Lənkəran səhifəsi" kitabı tarixi baxımdan qiymətlidir. Burada Lənkəranın 1970-1981-ci illər dövrü bütün sahələrı üzrə öz əksini tapıb. Tarixçilər Etibar Əhədovun rayonun səhiyyə, mədəniyyət, hərbi-vətənpərvərlik, maliyyə, rabitə tariximizə həsr etdiyi kitablarını Lənkəranın salnaməsi adlandırırlar.

Azərbaycan tarixinin canlı yaradıcılarından biri hesab edilən filologiya elmləri üzrə fəlsəfə doktoru, etnoqraf, folklorşünas-tədqiqatçı, şair, əruzşünas araşdırmaçı Mirhaşım Talışlı yazıçı-jurnalist, publisist, tədqiqatçı Etibar Əhədovla müştərək araya-ərsəyə gətirdikləri "Lənkəran: ensiklopedik məlumat" kitabı oxucu kütləsinin böyük maraqğına səbəb olmuşdu.

Uluları kəndin sayılıb-seçilən insanlarından olub. Halal, düz adam olduğuna görə babası Ağacan "şeyx" adı ilə tanınıb. Tibb işçisi olan atası Əliağa Əhədov II Dünya müharibəsi iştirakçısı idi, hörmətli adam olub, xatirəsi bu gün də onu tanıyanlar tərəfindən əziz tutulur. Hacı Etibar Əhədov nəslinin layiqli davamçısı kimi, ata-babalarının adını iş və əməlləri ilə doğruldur.

Etibar Əhədov 50 ildən çox peşəkar-jurnalistlik fəaliyyəti dövründə öz peşəsinə həmişə məsuliyyətlə yanaşıb, jurnalist adını davranışı və ləyaqəti ilə qoruyub. Bədii, publisistik yazılarına görə üç dəfə respublika (1978, 1985, 1987), bir dəfə Ümumittifaq (1969) müsabiqələrinin, fərdi jurnalist yazıları müsabiqələrində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Fondu müsabiqəsində dəfələrlə qalib olub. Üç dəfə Azərbaycan Jurnalistlər Birliyinin mükafatlarına, dəfələrlə Lənkəran Şəhər İcra Hakimiyyətinin fəxri Fərmanına və pul mükafatına layiq görülüb. O, uzun illər redaksiya ilk partiya təşkilatının katibi, redaksiya həmkarlar təşkilatının sədri, 20 ildən çox keçmiş rayon Partiya Komitəsi mətbuat mərkəzinin

üzvü və rəhbəri, Azərbaycan Jurnalistlər Birliyi cənub bölgəsi üzrə məsul katibi, Azərbaycan jurnalistlərinin VI, VII VIII qurultaylarının iştirakçısı olub. YAP-ın üzvü, dövlətə və dövlətçiliyə həmişə sadiqdir. 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1978-1990-cı illərdə SSRİ Jurnalistlər İttifaqının üzvü olub. 1991-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, respublika Ahıl Jurnalistlər Birliyinin üzvüdür. 2021-ci ildə Prezident mükafatçısı olub. Şəxsi nüfuzuna, insanlarla davranışına və ləyaqətinə görə çalışdığı kollektivlərdə böyük hörmətə malikdir Etibar müəllim. O bu gün də əlində qələm qəzetlə yaşayır, mətbuatla nəfəs alır.

Anadan olmasının 75 və professional jurnalistlik fəaliyyətinin 50 illiyinə həsr edilmiş biblioqrafik - məlumat kitabında Etibar Əhədovun altmışıncı illərin sonlarından bu günədək keçdiyi həyat yolu və yaradıcılıq fəaliyyəti, dostlarının, elm və mədəniyyət xadimlərinin haqqında dedikləri ürək sözləri öz əksini tapıb.

ARB televiziya kanalında həyat və yaradıcılıq fəaliyyəti haqqında "100 yaşa" adlı sənədli film göstərilib. Yetirmələri indi respublikanın müxtəlif mətbuat orqanlarında çalışırlar.

Etibar Əhədov sadə, mehriban ailə başçısı, el ağsaqqalı, səmimi, sədaqətli dost olduğundan xətri daim əziz tutulur. Gözəl ailə başçısıdır, 3 övladın qayğıkeş atası, 6 nəvənin mehriban babasıdır.

# V BÖLÜM

# JURNALİSTİKADA KEÇDİYİM YOL



## MƏN, BABAM
## VƏ XATİRƏMDƏ YAŞAYANLAR

Bir, iki, üç…Daha bir neçə addım… Qabaqda hələ geniş, uzun bir yol var. Biz isə dincimizi almadan oraya - çəltik sahəsinə tələsirik. Əmənulla babam mənə görə geciksə də üstünü vurmur, ürək-dirək verərək məni ruhlandırır.

Bir, iki, üç… Addımlarımı yavaşıdıb, qeyri-ixtiyari arxaya boylanır və babamın bir az əvvəl söylədiyi sözlər yadıma düşür: "Atdığımız hər addım ömürdən gedir, bala. O addımlar bir də geri dönən deyil. Təəssüf ki, itirilən vaxtımızı pul kimi əmanət kassasına qoya bilmirik…"

1952-ci ilin payızı idi, beş yaşıma qədəm qoymuşdum. Bu sözlərin mənasını sonralar, yaşa dolandan sonra anladım. Babamın həyatı boş və mənasız keçənlərlə arası yox idi. Bizi də bu ruhda tərbiyə etmişdi. Ömrü yuxulara verənlərlə arası yox idi. Deyirdi ki, zəhməti sevin ki, torpaq da bəhrəsini versin...

***

Ana tərəfdən babam Əmənulla Əzimov 1896-ci ildə dünyaya gəlmiş, 2 yaşında olanda atası Məşədi Əsədulla vəfat etmiş, bacısı Şahcanla əmiləri Rəhmanın himayəsində yaşamışdı. Babam dolu bədənli, yaraşıqlı bir kişi idi. Başına qoyduğu buxara papağı ona xüsusi yaraşıq verirdi. Cavanlıq vaxtlarında güləşlə məşğul olmuşdu. Toylarda, bayramlarda gücünü göstərmişdi. Deyilənə görə, pis də güləşməmişdi, qonşu kəndlərdən yarışa gələnlər ondan ehtiyat edərmişlər.

Əmənulla babam müharibədən əvvəl kolxozda ferma müdiri, briqadir işləmişdi. 60-cı illərdə isə kolxozdakı ördək fermasında çalışırdı. O, həm də ictimaiyyətçi idi. Kənddə mədəni-

kütləvi tədbir keçiriləndə əlində sivri budaq qabaqda dayanaraq, sakitlik yaradardı. Kimliyinə baxmazdı, səs-küy salana əlindəki budağı çəkərdi. Məhərrəmlik ayında "şaxsey-vaxsey" keçirənlərin önündə olardı. Üzbəüz cərgədə Mikayıl Quliyev, Yusif Hacıyev, Barat Əzimov və digər ağsaqqallar olardı. Cərgənin önündə dayananın əlində bir neçə metr uzunluqda ağac olardı. Birinci cərgədə dayanan ağacı qaldırıb deyərdi:

-Şaxsey!..

İkinci cərgədə dayanan ona səs verərdi:

-Vaxsey!..

Yer qol-qola girən dindarların güclü ayaq hərəkətlərindən sanki lərzəyə gəlirdi. Kənardan bu səhnəni izləyən biz uşaqlar çox şeyi başa düşmədiyimizdən həyəcan və vahimə içində bu səhnəni izləyirdik. Mənə elə gəlirdi ki, babamın haqqında danışdığı Allahın şiri Həzrəti Əli, imamət səmasının üçüncü ulduzu İmam Hüseyn, qolsuz Əbülfəzl Abbas elə indi meydana çıxacaq, Yezidin tərəfdarlarına öz güclərini göstərəcəklər. Aşura gecəsinin səhəri isə İmam Hüseyn eşqinə başımızı yarardılar. Yadıma gəlir, məni qucağına alan Əmənulla babam əlində xəncər tutmuş Yusif Hacıyevə deyərdi:

- Vur, Yusif, vur, amma yavaş vur…

Yusif əmi də bilirdi ki, babam məni çox istədiyindən belə deyir. Amma bir dəfə qılınc çox dərinə getmişdi. Babam Yusif əminin üstünə qışqırdı, nəsə dedi. Başımı əydilər, qan üz-gözümə yayılmışdı. Görünür, yara dərin idi, qanı heç cür saxlaya bilmirdilər. Kül gətirib məlhəm qarışıq yaranın üstünə yaydılar, sonra isə onu yumurta sarısı ilə əvəz etdilər. Həmin gün başı yarılanlara xüsusi qayğı göstərilirdi. Bizə şərbət içirdilər, növbənöv xörəklər verilərdi. Kənddəki hamam şərəfimizə qızdırılardı. Oradan sonra İmam Hüseyn aşiqi kimi bizi təmtəraqla məscidə gətirərdilər. Onu da deyim ki, İmam Hüseyn yolunda yeddi il baş vurdurmuşam. Yadımdadır, Lənkəran Şəhər Partiya Komitəsinin birinci katibi işləmiş İsa

Məmmədovun həyat və fəaliyyətindən kitab yazarkən bildirdi ki, uşaqlıq illərində mənim də başımı yeddi dəfə yarıblar.

***

Uzun qış gecələrində kəndə dərin sükut çökürdü. Bacalardan tüstülənən evlərdən bilinirdi ki, bura kənddir, hansısa yaşayış məntəqəsidir. Elektrik işığı, radio, televizor olmayan vaxtlar idi. Kənddə, demək olar ki, yaddaqalan mədəni-kütləvi tədbir keçirilmirdi. İldə bir-iki dəfə kəndə konsert briqadaları gəlirdi və uzun vaxt onun təsiri altında yaşayırdıq. Çal-çağıra o qədər adam yığışırdı ki, uşaqlara meydanda yer olmazdı. Odur ki, yaxınlıqdakı ağaclara, hasarlara dırmaşar, maraqla konserti izləyərdik. Ayrı-ayrı məhəllələrdə nağıl axşamları təşkil olunurdu. Nağıl axşamları sonralar gələcək həyatımızda, dünya-görüşümüzün formalaşmasında böyük rol oynadı. Ağsaqqallar bizə əxlaq dərsi keçməklə, həm də vətənpərvərlik hissləri aşılayırdılar. Onlardan öyrəndiklərimiz bizim hər birimiz üçün bir məktəb idi.

Nədənsə qış o illərdə daha sərt keçirdi. camaatın qayğıları da onda artıb çoxalırdı. Torpaqlar, biçənəklər qar altında mürgüləyəndə sərçələr narahat görünür, yem ardınca çıxaraq orda-burda dolaşırdılar. Səhərlər qar üstündə müxtəlif izlər görünürdü. Bu isə hansısa meşə heyvanının ova çıxdığından xəbər verirdi.

Heyvanları qışdan salamat çıxarmaq üçün ot-ələfi qənaətlə işlədənlər vardı. Otu qurtarmış ailələrə isə qonum-qonşu həyan olardı. Köməyi hiss etdirmədən edərdilər ki, qonşu narahat olmasın.

Kənddə səxavətli ailələr az deyildi. İqtisadi vəziyyətin ağır olduğu XX əsrin iyirminci illərində Hacı Hüseyn qapı-qapı gəzərək, imkansız ailələrə təmənnasız taxıl paylamış, adamları korluq çəkməyə qoymamışdı. O, ziyarətdən qayıtdıqdan sonra

kənddə hamam tikdirmiş, körpü çəkdirmiş, yol saldırmışdı. Şərq üslubunda tikilmiş Hacı Hüseyn hamamından bu gün də istifadə edilir.

Atamın əmisi Ali baba kolxoz quruculuğuna etiraz etmiş, hədə-qorxuya baxmayaraq ömrünün axırınadək kolxoza yazılmamışdı. Ata-baba sənətini yaşadaraq irili-xırdalı, müxtəlif naxışlı səbətlər, cevend (asılqan), gündən qorunmaq üçün papaqlar, zənbillər və s. toxuyardı. Bir gün ona xəbər verirlər ki, bağa oğru girib. Oğrunu əli, qolu bağlı yanına gətiriblər. Ali baba qollarını açdırır, qabağına çay-çörək qoyur. Sonra da ona çörək, ayrı-ayrı torbada buğda, düyü, un verərək yola salır. Deyir ki, oğurluq kişiyə yaraşan deyil, çətinlik çəkəndə yolunu bizə tərəf sal.

***

Yadımdadır, Ləkər körpüsünə çatanda babam kəl arabasını saxladı. Bir qədər kənarda Ləj meşələri uzanırdı. Babam gözlərini uzanan yoldan çəkmədən dedi:

- Bu tarixi yadında yaxşı saxla, övladım. 1918-ci ilin mart qırğınlarını yaddan çıxarmaq olmaz. Qaçaqaç dövründə burada - Ləkər körpüsü ətrafında qanlı vuruşma getmişdir. Şəhərdə görünməmiş talanlar və qırğınlar törədilmiş, mayakın ətrafında onlarla günahsız insan güllələnmişdir. Qonşu Vilvan, Veravul, Cil, Osakücə kəndlərinin sakinləri qırğından qurtulmaq üçün yaxınlıqdakı meşələrə çəkilmişdilər. Ləkər körpüsünə tərəf uzanan yerdə, Əli meydanı adlanan ərazidə bazar yerləşirdi. Qəzanın Ucarud tərəfindən və digər yerlərdən gələnlər bazara öz mallarını çıxarırdılar. Vilvandan olan Boylu qızı Gülbanu ilə Girdəniyə gəlirmiş. Yolda arabanı gülləyə tuturlar, ata və qızı vəhşicəsinə qətlə yetirilir.

Babam köksünü ötürərək azacıq fikrə getdi, yaddaşını vərəqləyirmiş kimi gözlərini uzaqlara dikdi.

-1918-ci il mart-aprel ayları idi, - dedi. - Kəndimizə bir dəstə atlı gəlib cavanları bir yerə yığdı. Onlar rus və başa düşmədiyimiz dildə danışırdılar. Şıvkunovu ilk dəfə onda gördüm. Dəstə bizi başına yığıb Ləkər körpüsünədək müşayiət etdi. Kəndimizdən Ali Əzimov, Mikayıl Quliyev, Davud Rəhimov, Mahmud Şərifov və başqaları da bizimlə idilər. Hərəmizə bir tüfəng verib dedilər ki, səngər qazın, vuruşacaqsınız. Biz düşmənin kimlər olduğunu bilmirdik, amma itaət edərək səngər qazdıq. Bizə güllə verməmişdilər. Deyirdilər ki, patronu "düşmən" yaxınlaşanda verərik. Qaranlıq düşərkən özümüzü Ləj meşəliyinə tərəf verdik, oradan özümüzü kəndə çatdırdıq. Bundan qəzəblənən şıvkunovçular Girdəni, Veravul və Vilvan kəndlərini top atəşinə tutdular. Vilvan kəndində bir neçə ev yandı, ölənlər də vardı. Adamlar Osakücə meşəliyinə çəkildiyindən tələfat çox olmadı. Atışma sakitləşəndə Şıvkunov öz quldur dəstəsi ilə yenidən kəndə gəldi, tüfəngləri istəyirdi. Ağsaqqalların təkidi ilə silahları qaytardıq. Güllləmiz olsaydı quldurlarla döyüşərdik, amma o vaxtlar güllə tapmaq müşkül məsələ idi. Şıvkunovun əmrinə itaət etmədiyimizə görə bizi ağaca sarıyıb öldürmək istəyirdilər. Amma təsadüfən kəndimizə gələn İbi İbayevin partizan dəstəsi onlarla döyüşə girdi. Nəticədə Şıvkunovun dəstəsi qaçmaq məcburiyyətində qaldı. Sonralar eşitdik ki, Ləkər körpüsü ətrafında 10 nəfər öldürülüb.

1918-ci il mart soyqırımı ata tərəfdən Ağabacı nənəmin gözlərinin qabağında olmuşdu. O, 1894-cü ildə qardaşı Yəhya ilə İrandan qaçaraq Lənkəranın Vilvan kəndində sığınacaq tapmışdılar. Həmin dövrdə şah zülmündən qaçanların çoxu Lənkəranın Kiçik bazar hissəsində yerləşmişdi. Bu gün də həmin məhəllədə yaşayan tayfalar "giləklər" adı ilə tanınırlar.

Həmin günlərdə ata tərəfdən Şeyx Ağacan baba Ağabacı İsmayıl qızına elçi düşmüş, bu izdivacdan 8 övladı - 5 oğlu, 3 qızı olmuşdu.



*Babam Əmənulla Əzimov məni Lənkərandan hərbi xidmətə yola salarkən (17.11.1967)*

"Qaçaqaç dövründə ata tərəfdən babam Ağacan Əzimov kəndin cavanları ilə dağlara çəkilərək erməni - denikinçi dəstələri ilə vuruşurdu.

***

Evimizin qabağında kolxozun tarla düşərgəsi yerləşirdi. Əməkçilər fasilə vaxtı burada dincəlirdilər. Bir dəfə axşamüstü ətraf sakitləşəndə biz uşaqlar maraq hissi ilə ordakı kitabxanaya girib kitablara baxmağa başladıq. Hələ məktəbə getməsək də, kitablardakı şəkilləri cırıb köynəyimiz altında gizlədirdik. Yaşca bizdən böyük olan Akif dedi ki, kitabı niyə cırdın, yoxsa Stalin gəlib səni aparar.

Soruşdum ki, Stalin kimdir? Dedi ki, Moskvada oturur, durbini ilə hər tərəfi izləyir, bilsə ki, şəklini cırmısan, səni tutub aparar. Qorxudan Stalinin şəklini elə düşərgənin həyətindəcə basdırdım ki, məni tutub aparmasınlar.

Aradan bir neçə gün keçmişdi. 1954-cü ilin mart ayı idi. Adamlar tarla düşərgəsinin yaxınlığında yaşayan Ali babanın həyətinə yığışmışdılar. Qabağımızda dayanan "Pobeda" maşınından əli qundaqlı bir qadın və əyninə meşin kurtka keçirmiş bir kişi düşdü. Mən isə ətrafdakılara əhəmiyyət vermədən maşının yanında dayanıb siqnalı basdım. Bu vaxt adamlar məni gələnlərə göstərərək "odur" deyib səslərini qaldırdılar. Əmim oğlu Akif cəld bir hərəkətlə mənə yaxınlaşaraq dedi:

- Demişdim, axı, Stalin səni tutacaq, qaç, aradan çıx!..

Kişi ilə qadın mənə tərəf gələn anda götürüldüm. Həyət boyu qışqıra-qışqıra qaçırdım. Nə qədər çalışsalar da məni tuta bilmirdilər. Nəhayət özümü ana tərəfdən Əmənulla babama və nənəmə çatdırıb qollarından yapışdım. Qışqırırdım ki, məni Stalindən xilas etsinlər. Əmənulla babam üzünü yana çevirərək için-için ağlayırdı. Sürəyya nənəmin ah-naləsi yerə-göyə ucaldı Pis adamları o ki, var qarğadı, sonra da bayatı çəkdi. Bu vaxt uzaqdan gələn qadın əllərini geniş açaraq mənə tərəf atıldı,

- Əziz balam, - deyib, məni bağrına basdı - Elə qışqırdı ki, başımın tükləri biz-biz oldu. Qadını hardasa görmüşdüm, amma heç cür xatırlaya bilmirdim. Amma daxilimdən baş qaldıran hansı qüvvəsə məni ayaq saxlamağa məcbur etdi. Sonra Stalin bildiyim meşin paltonlu kişi məni qucağına alıb başı bərabərinə qaldırdı. - Maşallah, yekə kişi olmusan, - dedi.

Sonralar valideynlərimin kimliyini bilsəm də, Əmənulla babamın, Sürəyya nənəmin yanında yaşamağa üstünlük verdim. Mehriban bacım da bizimlə yaşayırdı. Ana tərəfdən olan babam və nənəmin Tabaradan başqa övladları olmadığından meyillərini biz bacı-qardaşlara salmışdılar. Bizi əzizləyə-əzizləyə, son tikələrini yedizdirə-yedizdirə, lakin cızığımızdan çıxanda tənbeh oluna-oluna böyüyürdük.

***

Mənim üçün ən darıxdırıcı günlər yay ayları idi. Kitabxana müdiri məzuniyyətə çıxdığına görə kitabxana bağlı olardı. O dövrdə kəndimizə qəzet və jurnal çox az sayda gələrdi. Mən qəzetə həsrət idim, ailəmizdə abunəçi yox idi. Yol kənarında, xəndək qıraqlarında saralmış qəzet parçalarını görəndə çox sevinərdim. Əmənulla baba bu həvəsi məndə görəndə bəzən dükan qabağında poçtalyondan mənə qəzet alardı. Həmin gün sevincimin həddi-hüdudu olmazdı.

Dördüncü sinifdə oxuyanda babamla şəhərin Böyük bazar hissəsinə getmişdim. Orada kitab dükanında M. Füzulinin "Leyli və Məcnun" kitabını görəndə babamdan xahiş etdim ki, onu mənə alsın. Babam əvvəlcə duruxdu, cibindəki pulu ona uyğun deyildi. Dedim ki, baba, kitabda ərəb əlifbası ilə yazılar var, "Quran" sözləridir, oxusam, savaba çatarıq. Bu sözdən sonra babam əlindəkiləri son qəpiyədək verib kitabı aldıq. Avtobusda qonşu Separadi kəndindən olan bir müəllim babama dedi ki, kitabı nahaq almısan, yaşına uyğun deyil. Kitabı əlimə alıb elə rəvan oxudum ki, avtobusdakılar heyrətlərini gizlətmədilər. Sən demə, kitabı mənə oxutduran müəllim mənim kimi oxuya bilmirmiş. Məhəllədəki uşaqlar, hətta yaşlı adamlar bizə gəlib xahiş edirdilər ki, onlara "Leyli və Məcnun"dan oxuyum. Mən də oxuyardım, babam da, nənəm də buna sevinir və səxavətlə süfrə açardılar.

***

1967-ci ilin noyabrın 17-də hərbi xidmətə yola düşərkən babam üzünü mənə tutub dedi:

- Çalış Vətənə yaxşı xidmət edəsən, Həzi Aslanov, Baloğlan Abbasov kimi ad çıxarasan.

Babam II Dünya müharibəsi başlayanda könüllü olaraq hərbi xidmətə yola düşmüşdü. Gürcüstanın Kutaisi şəhərində xidmətə başlamış, yaşı çox olduğuna görə tərxis olunmuşdu,

Onu da qeyd edim ki, babam Əmənulla Əzimov 1899-cu ildə Lənkəranın Vilvan kəndində anadan olmuş, 1989-cu il iyulun 21-də 90 yaşında vəfat etmişdir.

Orduya getməzdən əvvəl babam məni ova aparıb tüfəng atmağı öyrədərdi. Deyərdi ki, əsgərlikdə lazım olacaq. Belə də oldu. Təsadüfi deyildi ki, atıcılıq təlimlərində həmişə fərqlənərdim.

1969-cü ildə, hərbi xidmətdə olarkən "Na straje" qəzetində

vətənpərvərlik mövzusunda "Ən yaxşı oçerk" müsabiqəsində qalib çıxdım. "Kommunist" oçerkimə görə birinci mükafata, SSRİ Müdafiə Nazirliyinin fəxri Fərmanına layiq görüldüm və 15 günlüyə növbədənkənar məzuniyyətə buraxıldım.

***

Yadımdadır, 1971-ci il fevral ayında Lənkəran radio verilişləri redaksiyasında işlədiyim vaxtlar idi. BDU-nun jurnalistika fakültəsində qiyabi yolla təhsil alırdım. Həmin günlərdən birində məni Lənkəran Şəhər Partiya Komitəsinə çağırdılar. Dedilər ki, üçüncü katib Şövkət Səfərova səni çağırır. Narahat oldum. Fikirləşdim, görəsən nə etmişəm ki, katib məni görmək istəyir. Yolda Lənkəran Təhsil Şöbəsinin kabinet müdiri İsa Ağayevlə rastlaşanda o, ayaq saxladı. Biləndə ki, Şövkət Səfərova məni çağırıb, gülümsündü. "Narahat olma, - dedi. - Yolun uğurlu osun." Sonralar bildim ki, İsa müəllim Şövkət müəllimin həyat yoldaşıdır.

Partiya komitəsində katibin köməkçisi gəldiyimi görüb məni içəri dəvət etdi. İlk dəfə idi ki, Şövkət müəllimi görürdüm. Məni görüb ayağa qalxdı, əlini mənə uzatdı.

-Allah sənə insaf versin, müharibə mövzusunda verdiyiniz radio oçerkə qulaq asandan özümdə rahatlıq tapmıram. Atamın da adını çəkdiniz, səhərədək yuxuya gedə bilməmişəm.

Katib faktları haradan əldə etdiyimi soruşanda gözləri doldu və mənə minnətdarlıq etdi, sonra kimliyimlə maraqlandı. Vilvan kəndindən olduğumu biləndə gülümsündü, dedi ki, babanız Əmənulla əmini yaxşı tanıyırdım. 7-ci sinfi bitirəndə briqadasına hesabdar təhkim olunmuşdum. Halal adam idi. Bir dəfə kənd Sovetinin sədri Mehrəli Quliyev xəbər göndərmişdi ki, yuxarıdan qonaqları gəlib, ördəklərdən ikisini kəsib bişirtdirsin. Nənən Sürəyya xanımın yaxşı plov bişirməyi vardı. Baban dedi ki, kolxozun ördəklərinə haramlıq qata bilmərəm.

Bir nəfər göndərib həyətlərindəki quşlardan kəsdirdi. Bu halallıq ömrüm boyu mənə dərs olub.

Şövkət xanım azacıq sükutdan sonra sözünə davam edərək dedi:

- Yadımdadır, bir dəfə başımızın üstündən durna qatarı keçirdi. Baban yaxşı ovçu idi, dedilər ki, qabaqdakı quşu nişan alsın. Baban isə əksinə etdi, durna qatarının axırında qanad açan durnanı nişan aldı və quş düz qabağımızda düşdü. Baban dedi ki, əgər qabaqdakı quşu vursaydım, onda durnalar pərən-pərən olardı, bu da günah sayılır. - Katib bir qədər sonra sözünə davam etdi: - Anan Tabarə xanımı da yaxşı tanıyırdım, ailənin yeganə övladı idi…

***

Həyatın qəribəlikləri çoxdur. Böyük arzularla yaşadığımız illər indi arxada qalıb. Heç nə yaddan çıxmayıb. Yay tətili günlərində kolxozda işlədiyimiz günlər də yadımdadır. Biz sinif uşaqları bir yerə yığışar, tarlaya valideynlərimizin köməyinə çıxardıq. Müxtəlif işlərdə çalışırdıq. Tərəvəz yığıb qablaşdırır, yeşikləri qəbul məntəqəsinə aparır, bəzən çay tədarükündə fəhlələrə kömək edirdik. Heyvanları örüşə apardığımız, ot, odun tədarük etdiyimiz vaxtlar da olub. Evə yorğun-arğın qayıdardıq. Sürəyya nənəm "can-can!" deyə-deyə əllərimi, kürəyimi ovuşdurardı ki, yorğunluğum çıxsın. Bütün analar övladlarını istəyirlər. İstəyirlər ki, övladları xoş gün görsünlər, arzularına çatsınlar.

1958-ci ildə kənd klubunda ilk dəfə kinofilmə baxanda heyrət içində donub qaldım. Böyüyəndə kinomexanik olacağımı qət etdim. İlk dəfə kitabxanaya gedib, onun oxucusu olduqdan sonra kitabxanaçı olmaq arzusuna düşdüm. Sonra fotoqraf olmaq istədim. Poçtalyonun qəzet, jurnal və məktub payladığını görəndən sonra başqa bir arzuya düşdüm:

"poçtalyon olacağam" fikirləşdim. Amma 1961-ci ildə qəti qərara gəldim - jurnalist olmaq istəyirdim. Bu arzu məndə "Azərbaycan pioneri" qəzetində ilk məqaləm çıxanda baş qaldırmışdı. Bu arzuya məndən bir sinif yuxarı oxuyan, ana tərəfdən əmim nəvəsi Kamal Rəhmanov da qoşulmuşdu. Hətta orta məktəbi bitirən ili şəhərə fotoqraf Əliisgəndərin yanına gedib əlimizdə "Jurnalistika məsələləri" kitabı şəkil də çəkdirmişdik.

"Azərbaycan pioneri" qəzetində məqalələrimə görə mənə çoxlu dostluq məktubları gəlirdi. Onların arasında Dəvəçidən (indiki Şabran) Aydın Tağıyev, Şamaxıdan Etibar Etibarlı, Qubadan Zakir Mürsəlov, Elmira İmanova, Bakıdan Sevil Məşədiyeva, Ağdamdan Dilqəm Tağıyev və başqalarının adları bu gün də yadımdadır.

Bir dəfə "Sovet kəndi" qəzetinə "E.Əhədzadə" imzası ilə kənddəki yolların bərbad olması haqqında məqaləm çıxmışdı. Poçtun qabağında gördüm ki, kolxoz partiya komitəsinin katibi İlyas Əliyev qəzetin həmin nömrəsini kəndin ziyalılarına göstərə-göstərə "Əhədzadə"nin kim olduğunu öyrənmək istəyir. Mən isə kənarda dayanıb ətrafı sakit baxışlarla süzürdüm. Az sonra partkom dodaqaltı deyinə-deyinə çıxıb getdi. Amma qəzetdəki çıxışımdan sonra həmin yol təmir edilib qaydaya salındı.

Qəzetin gücünü onda gördüm. Bu əhvalatdan sonra özümdə jurnalist olmaq qətiyyəti daha da gücləndi.

Xatirimdən heç vaxt çıxmır. Doqquzuncu sinifdə oxuyarkən sovxoz partiya komitəsinin katibi Şadulla Əzimov bizə gəlib dedi ki, dərsdən sonra şəhər Partiya Komitəsinə gedəcəyik, ikinci katib səni görmək istəyir, narahat oldum. Öz-özümə fikirləşdim ki, mən hara, katib hara?

Qəbulda bizdən başqa heç kəs yox idi. Katib bizi görəndə qarşısındakı məktubu əlinə alıb mənə göstərdi:

-Sən yazmısan, yoxsa başqasına yazdırmısan? - soruşdu.

Katib Kamal Axundovu tanımışdım.

-Özüm yazmışam, - dedim. - Bizə komsomol bileti təqdim edəndə dediniz ki, komsomolçu cəsarətli olmalıdır, heç nədən qorxmamalıdır…

Kamal müəllim bu dəfə nədənsə mülayim vəziyyət aldı, buna baxmayaraq oturduğu kresloda qurcalandı. Partkom Şadulla Əzimov məni müdafiə məqsədilə:

-Yoldaş katib, - dedi, - bağışlayın, hələ uşaqdır, onu bağışlayın…

-Uşaq da olsa, düz deyir, bizə belə cəsur, diribaş komsomolçular lazımdır, yoldaş partkom!..

Katib "Kommunist" qəzetinə ünvanladığım məktubu açıb oxumağa başladı:

- "Siçanlar tərəkəmə oynayır".

Sərlövhəni oxuyan yerdə katib gülməkdən özünü saxlaya bilmədi, sonra vəzifəsinə uyğun olmayan bir tərzdə şaqqanaq çəkdi.

- Oyunun olsun, ay uşaq, - deyib şagird vərəqində yazdıqlarımı bərkdən oxumağa başladı:

- "Kəndimizdə Abdulla əminin bir kitab mağazası var. Heç yerdə təsadüf olunmayan siçanları burada tapmaq olur. O gün mağazaya yolum düşmüşdü, kitab almaq istəyirdim. Gördüm ki, ana siçan balalarını başına yığıb kitabın vərəqlərini çevirməyə başladı. Sonra başladılar civildəşməyə. Ana siçan mağazanın ortasında qoşulmuş tələyə yanaşdı və quyruğu ilə tələdəki pendiri yavaşca qırağa çəkdi. Pendir yerə sıçrayanda siçovullar növbə ilə pendirə yaxınlaşıb ondan bir dişdəm qopartdılar. Pendiri yeyən və qarınları dolan bala siçanlar ana siçana qoşularaq başladılar rəqsə. Tərəkəmə oynayan məqamda Abdulla əmi mağazada peyda olundu. Vəziyyəti belə görüb əlindəki daşı siçanlara atmaq istədi. Amma nəsə fikirləşərək dayandı, dedi ki, bu daşı ataram mağazaya rəhbərlik edənlərin kabinetinə, qoy gəlib bir əncam çəksinlər."

Çox keçməmiş məktubum öz təsirini göstərdi. Kitab mağazası üçün yeni bina tikildi.

İllər keçəndən sonra mən də, Kamal Rəhmanov da jurnalist olduq. Kamalın kiçik qardaşı dilçi-alim, "Olimpiya" jurnalının baş redaktoru Cəmaləddin Rəhmanov bizdən daha irəli gedərək respublikanın Əməkdar jurnalisti adına layiq görülüb. Bu, jurnalistika sahəsində ilk fəxri ad almış lənkəranlı - vilvanlıdır.

***

Ana tərəfdən Sürəyya nənəm məni 7-8 yaşlarımda "Quran" dərsinə qoymuşdu. Gələcəkdə məni dindar görmək istəyirdi. Sürəyya nənəm bəstəboy, ağbəniz, xanım-xatın arvad idi. Talış qadınlarına məxsus başına dingə vurardı. İşgüzar, təmizkar qadın idi. Evin səliqə-sahmanına fikir verərdi. Səliqəsiz işlərdən, tör-töküntüdən xoşu gəlməzdi. Mal-qaraya, toyuq-cücəyə baxar, həyətyanı sahədə tərəvəz əkib becərərdi. Toya, yasa getməyə, xəstəyə dəyməyə də vaxt tapardı. Yaxşı xörək bişirməyi vardı. Bişirdiyi plovun dadından doymaq olmazdı. İdarəyə qonaq gələndə çox vaxt xörəyi ona tapşırardılar.

Sinəsi söz boxçası idi. Çoxlu bayatılar, mahnılar bilərdi. Mənə deyərdi ki, bildiklərimi yaz, gələcəkdə lazım olacaq. Mən də yazardım, amma əsgərlikdən sonra onları itirdim. Bu gün də nənəmin şeir dəftərcəsinə heyifslənirəm.

Səkkizinci sinfə qədər kənd məktəbində oxudum. Orta məktəbi Lənkəran şəhər 1 nömrəli məktəbdə davam etdirdim. Mollanın yanında ərəb və fars əlifbasını öyrənmişdim. Şəhər məktəbində xarici fənn kimi fars dilini keçirdilər. Bu, məktəbdə köməyimə çatdı, digər fənlərdə olduğu kimi, fars dili fənnindən də geri qalmamağa çalışırdım.

***

Dördüncü sinifdə oxuyanda kitabxanadan Marksın "Kapital" əsərini istədim. Kitabxana müdiri Uruf Ağayev mənə bu kitabı vermək istəmədi, dedi ki, yaşına uyğun deyil. Məni deyinə-deyinə otaqdan çıxartdı, dedi ki, professora bax, indi də "Kapital"ı oxumaq istəyir. Yadımdan çıxmır, kitabxananın pilləlvarində əyləşib ağlayırdım. Təsadüfən oradan keçən Əmənulla babam məni bu vəziyyətdə görüb qolumdan yapışdı, niyə ağladığımı soruşdu. Dedim ki, "Kapital" kitabını istəyirəm, vermək istəmir. Savadsız babam "Kapital" sözünü başa düşməsə də məni içəri çəkdi və Uruf əminin üstünə qışqıraraq dedi ki, nəvəm nə istəyir ver, buradakılar dədənin malı deyil…

Kitabı oxuyanda başa düşdüm ki, özümü oyuna salmışam, izafi dəyər, məxaric, mədaxil sözlərindən heç nə başa düşmədim. Kitabın birinci, orta və axırıncı səhifələrini əzbərləyib qatladım. Bir həftə sonra kitabxanaya gəlib kitabı təhvil verdim.

Uruf əmi kitabın birinci səhifəsini açıb dedi:

- Hə, professor, danış görək…

Mən də əzbərlədiyim səhifəni danışanda Uruf əmi yerində qurcalandı, təsadüfən kitabın orta səhifəsini açdı, filan səhifədən danış, əzbərlədiyim səhifə idi, onu da həvəslə danışdım. O, yerindən qalxdı, hiss edirdim ki, Uruf əmi özündə deyil, amma udquna-udquna dedi:

-İndi axırıncı səhifədən danış.

Onu da danışıb qurtardıqdan sonra Uruf əmi ayağa qalxdı, kitabxananın açarlarını çıxarıb mənə tərəf uzatdı:

-Daha sənə sözüm yoxdur, bu açarlar, bu da kitabxana, nə vaxt istəsən gəlib kitab götürərsən.

Mən isə Əyyub Abbaszadənin "Zəngəzur" kitabını alıb kitabxanadan çıxdım.

İki günə kitabı oxuyub qurtardım. Kitabxana müdiri

məzuniyyətə çıxdığından kitabın ikinci cildini tapa bilmirdim. Sinif rəhbərimiz Ali Cəfərov növbəti dərsə gələndə əlində "Zəngəzur" kitabının ikinci hissəsini gördüm. Kitabı ondan istəyəndə soruşdu ki, sən də kitab oxuyursan?! Biləndə ki, məndə birinci cildi var, onu məndən istədi. Sonrakı gün kitablarımızı dəyişdik. Bizə ingilis dilindən Cabir Axundov dərs deyirdi. İndi 96 yaşındadır. Bu gün də əlaqələrimiz var. Onun Lənkəranla bağlı iki kitabına redaktorluq etmişəm. Bayram günlərində, ad günlərimizdə bir-birimizi təbrik edirik.

***

Xatirələr qoynunda yenə uzaq illərə çıxmışıq. Ötənləri, keçənləri xatırladıqca, yaddaşımızı təzələdikcə xəyalımız qanadlanır. Həyatın sınaqlarından çıxmış insanlar bir-bir gözlərimizin önündən keçir. Gözlərimiz ətrafı gəzir. Baş-başa verən ağaclar, qırmızı kərpicli evlər, yaraşıqlı, asfalt küçələr bu yerlərə gələnləri mat edir. Bura kəndimizdir, ulularımızın uyuduğu, doğulub boya-başa çatdığım Vilvandır. Bizim hər birimiz üçün Vətən buradan, dünyanın ən gözəl kəndindən, ata-baba yurdundan başlanır…

Kövrək, həzin xatirələr arxada, keçmişdə qalsa da unudulan deyil. Əmənulla babamın dediyi sözlər bu gün də yadımdan çıxayıb: "Atdığımız hər bir addım ömürdən gedir. Həyatı elə yaşa ki, sonrakı günlər üçün peşmançılıq çəkməyəsən". Doğrudan da insanı yaşadan işıqlı, yaxşı əməllər olur. Bu gün belədir, sabah da belə olacaq. Hər keçən gün tarixə çevrilir, Hələ həyata keçiriləsi o qədər işlər var ki…

## MƏN DƏ JURNALİST OLDUM

Dəyişən çox şey var. Hər şey öz axarı ilə gedir. Aradan illər keçsə də, heç nə yaddan çıxmayıb. Yolum tez-tez bu yerlərdən düşür. Hər dəfə buradan keçəndə 1960-cı illəri xatırlayıram. Bura şəhərin mərkəzi hissəsidir. 1931-1983-cü illərdə "Leninçi" (indiki "Lənkəran") qəzeti bu binada yerləşirdi. 1853-1920-ci illərdə isə bura İran dövlətinin konsulluğu olub. Sonralar redaksiyanın yerləşdiyi binanın yerində ilk doqquzmərtəbəli yaşayış binası ucaldıldı.

Doqquzuncu sinifdə oxuduğum vaxtlar idi. Doğulub boya-başa çatdığım Vilvan kəndində orta məktəb olmadığından təhsilimi Lənkəran şəhər 1 saylı tam orta məktəbində davam etdirdim. Sonuncu zəngdən sonra tələsik redaksiyanın qapısında asılmış qəzet lövhəsində öz adımı axtarardım.

Bir dəfə sovxoz təsərrüfatından geniş bir yazı hazırlamışdım. Onu poçtla göndərmədim, qərara aldım ki, məktubu redaksiyaya özüm aparım. Pillələrlə ikinci mərtəbəyə qalxanda duruxub qaldım. İçəri keçməyə cəsarətim çatmadı. Jurnalistləri yenilməz dağa, bütün vəzifələrdən ucada dayanan müqəddəs, bəxtəvər insanlara bənzədirdim. Fikirləşirdim ki, görəsən, onlar da bizim kimi çörək yeyirlər? Bu sualı məndə jurnalistikaya həvəs oyatmış əmim oğlu Vəliağa Əzimova da vermişdim. O, qəribə sualıma qəribə də bir cavab vermişdi: "Yəqin ki, yeyirlər". Bu cavab özü məni çaşdırmışdı. Amma istəyirdim ki, yaxından bir jurnalist görüm və təsəvvürümdə, xəyallarımda canlandırdığım obraza əyani baxmağa çox tələsirdim. Gəlişim istirahət vaxtına düşmüşdü, sakitcə kənarda dayanıb hansısa bir jurnalistin pillələrlə qalxacağını ürək döyüntüsü ilə gözləyirdim. Elə bu vaxt qarabuğdayı, orta yaşlı bir kişi ayağını çəkə-çəkə dəhlizdə göründü, üzünü mənə tutaraq:

- Kimi istəyirsən? - soruşdu. Ciddi görkəmindən, zəhmli

baxışlarından azacıq çaşdım, amma tez də özümü toplayıb:

- Mənə bir jurnalist lazımdır, - dedim.

- Jurnalist? - təəccüblə mənə baxdı, ani sükutdan sonra: - Nə işin var jurnalistlə? - sual etdi.

- Ona məktub verəcəyəm.

- Nədən yazmısan?

- Kənddəki təsərrüfatdan.

- Məktubu ver mənə.

- Verə bilmərəm...

- Niyə?

- Məktubu jurnalistə verəcəyəm.

Dodaqaltı nəsə dedi, amma bir şey anlamadım.

- Onda gəl ardımca.

Fikirləşdim ki, yəqin məni bir jurnalistlə görüşdürmək istəyir, ürəyim atlandı. Əgər ürəyimin səsini dinləyən olsaydı, bəlkə də tappıltısını eşidəcəkdi.

Geniş bir otaqdan keçib pəncərəsi küçəyə açılan kiçik bir otağa keçdik. Özü yuxarı başda əyləşdi, mənə də yer göstərdi. Bir anlığa mənə elə gəldi ki, bu kişi ömründə gülməyib. "Bəlkə də anadan belə ciddi doğulub" - fikirləşdim.

- Məktubu ver baxım, - dedi.

- Yox, onu bir jurnalistə...

Sözümün təsirindən tutulan kimi oldu və cümləmi tamamlamağa imkan vermədi, cavabından əsəbiləşdiyini hiss etdim:

- Jurnalistin bəlkə buynuzu var?! - soruşdu.

- Bilmirəm, bir dəfə də jurnalist görməmişəm.

- Deyirəm, axı! - Bu dəfə nədənsə gülümsündü və sadəlövhlüyümə bərkdən şaqqanaq çəkdi. Ürəyimdə fikirləşdim ki, gör işin harasıdır, sən demə, bu kişi gülməyi də bacarırmış. Bir qədər sonra: - Mən jurnalistəm, - dedi. - Məktubu ver, baxım, görüm necə yazmısan.

- Doğrudan jurnalistsiz?

- Necə bəyəm, oxşamıram?

- Nə bilim...

Tərəddüd içində, ürəyimdə götür-qoy edə-edə məktubu ona uzatdım. Dedim ki, jurnalist gələnədək fikrini söyləsin.

Əvvəl imzama baxdı:

- Deməк, məktubu yazan sənsən? - sualın cavabını gözləmədən sözünə davam etdi. - Yaxşı deyiblər, qəhrəmanın adını eşit, üzünü görmə. İmzanla tanışam, görək bu məktubu necə qələmə almısan.

Az sonra gözlərini şagird dəftərində yazdığım məqalədən çəkərək dedi:

- Bir məqalədə iki məsələdən söhbət açırsan. Həm partiya təşkilatının işindən, həm də əyani təşviqatdan. Yaxşı olar ki, mövzuların hərəsini ayrı-ayrılıqda qələmə alasan.

Belə də etdim. Məqaləyə düzəliş etdikdən sonra ertəsi günü redaksiyaya gəldim. "Partiya həyatı" şöbəsi yazılmış qapını astaca taqqıldatdım.

- Buyurun, - dedi. Başıaşağı nəsə yazırdı. İşdən ayırdığım üçün mənə acığı tutacağını, hirsini məqalənin üstünə tökəcəyini fikirləşdim. Nəfəsimi içəriyə çəkib dayandım, ürəyim şiddətlə döyünürdü. Çeşməyini çıxardıb bir az əvvəl oxuduğu yazımın üstünə qoydu. Nə deyəcəyimi bilmədiyimdən həyəcan keçirirdim. Otaqda qəribə sükut yaranmışdı. Bu sükutu onunla üz-bəüz divara vurulmuş kəfkirli saatın əqrəblərinin səsi, bir də küçədən keçən adamların ayaq tappıltıları, ya da danışıqları pozurdu.

Çeşməyini götürüb taxdı, məni birinci dəfə görürmüş kimi başdan-ayağadək bir də süzdü. Zəhmli baxışları altından özümü itirdim və gəlməyimə peşman oldum.

- Oxuyursan?

- Doqquzda oxuyuram.

- Bəs sonra?

- İstəyirəm universitetin jurnalistika fakültəsinə daxil olum.

Mənə qəribə göründü, qaşqabağı yerlə sürünən bu kişinin

birdən-birə dodaqları qaçdı. Qalın, azacıq ağarmış bığlarından onu məşhur "Əsgər atası" filminin qəhrəmanı Maxaraşviliyə oxşatdım. İllər, onillər keçəcək və bir yerdə işləyəcəyimiz dövrdə bəzən zarafatyana onu belə də çağıracaqdım: Maxaraşvili. Sözümdən inciməzdi, hətta xoşu gələrdi. Amma həmin illərə çox qalırdı. Hələlik 1964-cü ilin fevral ayının son günləri idi.

Nəhayət gözlərini məndən çəkmədən:

- Yaxşı arzudur, - dedi. - Jurnalist peşəsi çətin, məsuliyyətli, həm də şərəflidir. - Bir qədər sükutdan sonra üzünü yenidən mənə tutdu: - Gedə bilərsən!

"Gedə bilərsən!" sözü mənə elə də çatmadı. Axı, adını bilmədiyim, özünü jurnalist adlandıran bu adam mənə demədi ki, yazımın aqibəti necə olacaq... Hətta özümü qınadım ki, niyə mən yazımı ona verdim.

Bir neçə gün sonra "Sovxozda əyani təşviqat" sərlövhəli məqaləmi "Leninçi" qəzetinin ikinci səhifəsində görəndə "Maxaraşvili" dediyim o adam haqqında təsəvvürüm tamam dəyişdi. Jurnalist Əyyub Rzayevlə tanışlığım belə alınmışdı...

Tale elə gətirdi ki, Əyyub müəllimlə 1978-cü ildən 1993-cü il dekabrın 15-dək bir yerdə işləməli olduq. Mən redaksiyada məsul katib vəzifəsində işə başlayanda o, kənd təsərrüfatı şöbəsinin müdiri işləyirdi.

**BİR DƏRS GÜNÜ**. 1971-ci il idi. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində oxuyurdum. Bir dəfə dərsə gələndə dedilər ki, dekan Şirməmməd Hüseynov səni axtarır. Bildim ki, dərsdə olmadığıma görə məni danlayacaq.

Qapısı açıq idi, icazə alıb içəri keçdim. Nəsə soruşmaq istəyəndə telefon səsləndi. Dəstəyi qaldıranda arada yaranmış fasilədən istifadə edib dedim ki, Şirməmməd müəllim, daha gecikmərəm, icazə verin, gedim, bir azdan seminar başlanacaq? O isə telefonda kiməsə: "Axırıncı dəfə olsun, bir də belə olmasın" deyib öyüd-nəsihətə keçdi. Mənsə fürsətdən istifadə edib tələsik otaqdan çıxdım.

Növbəti dərsdə Şirməmməd müəllim qapıda görünəndə dalağım sancdı. Nəzərlərini auditoriyada gəzdirə-gəzdirə üstümdə saxladı və xarakterinə uyuşmayan bir tərzdə dedi:

- "Jurnalistika" məcmuəsində sənin "Molla Nəsrəddin" jurnalı və Lənkəran" adlı elmi məqaləni oxudum, xoşuma gəldi. Yaxşı yazmısan, amma bu əsas vermir ki, dərsdən yayınasan...

Başımı aşağı salıb dinmədim. Şirməmməd müəllim gedəndən sonra müəllimimiz Əliş Nəbili dedi ki, belə olmaz, sən dərsdən yayınırsan, məsul katib işləyəcəyin dövrdə çətinlik çəkəcəyini bilirsənmi? Dedim ki, kimdir mənə məsul katiblik verən, adamım yoxdur ki, qabağa düşsün. Amma tale elə gətirdi ki, universiteti bitirən ili "Leninçi" qəzetinə məsul katib təyin olundum. Bu mənim üçün gözlənilməz idi. Halbuki buna raykomun birinci katibi İsa Məmmədov razılıq verməmişdi. İllər keçəndən sonra İsa Məmmədov haqqında yazdığım "Dəyərli ömrün Lənkəran səhifəsi" kitabını ona təqdim edəndə doluxsundu və gözlərinə aparıb dönə-dönə öpərək dedi:

- Bilmirəm sənə necə minnətdarlıq edim... Bu kitabla mənə mənəvi abidə qoydun.

Sonralar redaktor müavini, daha sonra qəzetin redaktoru oldum. Deməli, vaxtilə Əyyub müəllimin daşıdığı həmin vəzifələri indi mən yerinə yetirirdim.

**HƏDƏLƏR, MANEƏLƏR** vardı. "Lənkəran" qəzetinin redaktoru işlədiyim illər ölkədə ictimai-siyasi hadisələrin gərgin olduğu dövrə təsadüf etmişdi. 90-cı illərin əvvəllərində hadisələrdən baş çıxarmaq o qədər də asan deyildi. Hadisələrin obyektiv işıqlandırılması o vaxt hakimiyyətdə təmsil olunan "cəbhəçilər"in, sonradan isə hümmətovçuların xoşuna gəlmirdi.

"Cəbhəçilər"in hakimiyyəti dövründə tələb etdilər ki, qəzetin hər nömrəsini oxumalıyıq. Halbuki mətbuat haqqında qanunda buna yol verilmirdi. Qəzetin növbəti nömrəsi çapdan çıxandan sonra icra hakimiyyətinin başçısı, müavinləri və şöbə müdirləri qəfildən redaksiyaya gələrək hədə-qorxuya keçdilər.

İcra başçısı qəti şəkildə bildirirdi ki, redaktoru tutduğu vəzifədən kənarlaşdırmaq fikrindəyik, çünki o, göstərişimizə məhəl qoymayaraq qəzeti çap etdirib. Onda şöbə müdiri, ağsaqqal jurnalist Əyyub Rzayev səsini qaldırdı və məni müdafiə etdi. Dedi ki, redaktor düz hərəkət edib, mətbuat haqqında qanunda sizin dediklərinizə yol verilmir. Redaksiyanın digər əməkdaşlarının da redaktoru müdafiə etdiklərini görən icra başçısı hədə-qorxuya keçdi və dedi ki, bundan sonra qəzetə abunədə kömək göstərilməyəcək.

Bu və buna bənzər hadisələr həmin dövrdə az olmamışdı. Hümmətovçuların meydan suladıqları dövrdə qəzetdə şair Allahverdi Zeynalovun "Azərbaycan" şeirini dərc etmişdik. Azərbaycanı parçalamaq istəyənlər şeirdə kəskin tənqid olunurdu. Hədə-qorxuya görə ailəliklə başqa yerdə sığınacaq tapdıq. Sonra qonşular dedilər ki, silahlı iki nəfər səni axtarırdı.

1994-cu ildə baş redaktoru olduğum "Lənkəranın səsi" qəzetinin ilk sayını yerli mətbəədə çap etdirə bilmədik. Qəzet Masallıda işıq üzü gördü. "Aşkarlıq" qəzetini çap etdirərkən də bəzi maneələrlə üzləşməli olduq. Bunlara görə heç kəsi qınamıram, heç kəsdən də inciməmişəm. Dövr belə idi, şükür Allaha ki, bu gün ölkədə möhkəm ictimai-siyasi sabitlik, söz və mətbuat azadlığı var.

YOL davam edir. Qapı astaca açıldı. Məktəbli bir oğlan utana-utana içəri keçdi, dedi:

- Siz jurnalistsiniz?

- Bəli, necə bəyəm?

- Doğrudan jurnalistsiniz? İlk dəfədir jurnalist görürəm...

Bu sualı vaxtilə mən də vermişdim. Onda Əyyub müəllimin simasında ilk dəfə jurnalist görmüşdüm. İndi isə bu sualı mənə verirdilər.

- Mən də jurnalist olacağam!..

Demək, jurnalistikaya yeni nəfəs gəlir.

Gəlişi uğurlu, sözü kəsərli, qələmi iti olsun!.

## "AND OLSUN QƏLƏMƏ!.."

Bu ayəni çoxdan, hələ səkkiz yaşlarında olanda eşitmişdim. Kənddə ikinci sinifdə oxuyarkən məni mollanın yanına qoymuşdular. Biz 7 uşaq idik. 2 il Molla Ağannənin, 4 il Molla Nəsirin yanında "Quran"a yiyələndik. Molla Nəsir bir dəfə "əl-Qələm" surəsini şərh edə-edə dedi:

- Allah-taala qələmə böyük önəm verir və müqəddəsliyinə and içir. Bir diqqət edin. Allah-taala "Quran"da buyurur: "And olsun qələmə, onun yazdıqlarına!..".

Neçə illər əvvəl Molla Nəsirdən eşitdiklərim bu gün də yadımdan çıxmayıb. O, deyərdi ki, yadda saxlayın, Allah-taala yalan danışanları, qeybət edənləri, söz gəzdirənləri bağışlamır.

Sovet dövrü idi, din yasaq edilmişdi. Sən demə, məktəbimizdə mollanın yanına gedib-gələnləri "imtahana" çəkmək də elə buna görə imiş.

Ötən illərin isti nəfəsi ömür yolumuza az sığal çəkməyib. Hər dəfə qələmi əlimə alanda öz-özümə hesabat verib fikirləşirəm ki, bir övlad, bir qələm sahibi kimi bu adın şərəfimi qoruya bilmişəmmi? Həqiqət belədir ki, qələmin saflığını qorumaq vicdanın təmizliyini qorumaq deməkdir. Müəllimimiz Cahangir Məmmədov deyərdi ki, jurnalist harda olursa-olsun, öz mənliyini qorumalıdır. Professor Nurəddin Babayev həmişə xatırladardı: "Qələminə etibar et, qoy səni sevsinlər". Qulu Xəlilov cəsarətlə deyərdi: "Qələmdən çıxan elə sözlər var ki, sahibinə şöhrət qazandırar, elə sözlər var ki, gözdən salar. Qələm yazanı qılınc poza bilməz." Mən deyərdim ki ustad jurnalistlərimiz Şirməmməd Hüseynov, Nəriman Zeynalov, Əliş Nəbili, Famil Mehdi, Ceyran Əbdürrəhmanovadan və başqalarından dərs alanlar heç vaxt qələmə, yazdıqlarına xəyanət etməzlər.

QƏLƏMİN möcüzəsi. Qələmin möcüzəsinə inanırsınızmı? Sizi deyə bilmərəm, amma mənim buna inamım çoxdur. Bir dəfə belə möcüzə ilə müqəddəs Kərbəla ziyarətində üz-üzə gəldim. 9-10 ilin söhbətidir.

İmam Hüseyn məscidindən çıxıb üzü yuxarı qalxanda hiss etdim ki, yolu azmışam. Torpaq yolla gedə-gedə hara gedəcəyimi fikirləşirdim. Qış olsa da, hava bir qədər mülayim keçirdi. Eyni yolu neçə dəfə gedib-gəlsəm də, yerləşdiyimiz hoteli tapa bilmirdim. Zəvvarların məndən ötrü narahat olacağını fikirləşəndə həyəcanım get-gedə artırdı.

Bir qədər aralıda Fərat çayı zümzümə ilə axırdı. Vaxtilə Yezid adamları İmam Hüseynin tərəfdarlarına onun suyundan istifadə etməyə icazə verməmişdilər. Fərat sularına baxa-baxa dərin düşüncələrə dalmışdım. Nədənsə uşaq vaxtlarımda babamdan eşitdiklərimi xatırladım: "O kəs xoşbəxtdir ki, Aşura günü İmam Hüseynin məzarını ziyarət etsin." Budur, illər keçəndən sonra həmin xoşbəxtlik mənə qismət olmuşdu.

Orta məktəbdən sonra əsgər həyatı başladı. Sonra tələbəlik illəri arxada qaldı. 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdim. "Lənkəran" qəzetində məsul katib, redaktor müavini, daha sonra qəzetin redaktoru işlədim. 1995-ci ildə, "Günay" qəzetinin bölgə müxbiri işlədiyim dövrdə Həcc ziyarətində oldum.

Bunları fikirləşə-fikirləşə özümü yarpaqları saralmış bir xurma ağacına dayaq etdim. Az sonra yaxınlıqdakı torpaq təpəciyində əyləşib gedib-gələnlərə baxa-baxa qaldım. Necə yorulmuşdumsa göz qapaqlarımın nə vaxt yumulduğunu hiss etməmişdim. Aradan nə qədər vaxt keçdiyini bilmirdim. Kimsə məni çağırırdı. Mənə elə gəldi ki, yuxu görürəm. Yox, bu yuxu deyildi. Səs təkrar olundu.

Bu dəfə səs lap yaxından gəlirdi. Möcüzə idi. Məni bir neçə nəfər dövrəyə almışdı. Biri o birinə deyirdi: "Hacı bizdə olub", digəri isə "Bizə də gəlib". Başqası təkrar etdi: "Hacını mən də

tanıyıram, Hacı atam haqqında oçerk yazmışdı".

Bəziləri üzdən tanış gəlsələr də, kimliyini təyin edə bilməsəm də, baxa-baxa qalmışdım.

Naxçıvanın Nehrəm kəndinə getdiyim günlər yadıma düşdü. Bu kənd əhalinin sayına görə respublikamızın ən iri yaşayış məntəqələrindəndir. Burada qaldığım üç həftə ərzində çox şeyin şahidi olmuşdum. Adamlar olduqca sadə, mehriban, qonaqpərvər idilər.

- Hacı, - hündürboy, buxara papaqlı, orta yaşlı bir kişi üzünü mənə tutaraq dedi: - Yadınızdadırmı, Mirzə Cəlilin ev muzeyində görüşmüşük. Muzeyin direktoru Akif Hacıyevdən müsahibə götürürdünüz.

Mirzə Cəlilin Xatirə muzeyindən aldığım təəssürat illər keçsə də yadımdan çıxmamışdı. Muzeyin direktoru məlumat verdi ki, burada dahi sənətkarla bağlı iki mindən çox eksponat toplanıb. Eksponatlar üçün dörd otaq ayrılmışdı. Birinci otaq Mirzə Cəlilin Qori Müəllimlər Seminariyasında oxuduğu illərə həsr edilmişdi. İkinci otaq qızı Münəvvər xanımın həyat və fəaliyyətini əks etdirirdi. Münəvvər xanım əvvəl rus dili müəllimi, sonralar Nehrəm kənd xəstəxanasında mama işləmişdi, Çaylaq məhəlləsində yaşayardı.

Muzeyin üçüncü otağı Mirzə Cəlilin 1896-cı ildən sonrakı ədəbi fəaliyyətinə, dördüncü otağı isə ailə üzvlərinə həsr edilmişdi.

Sonrakı günlərdə kənd ağsaqqalları Hacı Həsən Abdullayev, Naxçıvan Səhiyyə naziri, Hacı Əqil Mehdiyev, Hacı Fərzalı Məmmədov, Hacı Muradəli Muradov, Hacı Sultan Novruzov, Hacı Məhəmməd Rzayev, Hacı Heydər Rzayev, Hacı Zeynal Cəfərov, Hacı Cəfər Cəfərov və başqaları ilə görüşlər bizdə xoş təəssürat oyatdı. Odlar yurdu Azərbaycanın ayrılmaz bir parçası olan böyük Atabəylər, memar Əcəmi, ustad Cavid yurdunda gördüklərim bu gün də unudulmaz xatirəyə çevrilib.

QƏLƏMİNƏ etibar et. "Lənkəran" qəzetinin redaktoru Şəkər Aslan deyərdi ki, qələmdən sui-istifadə etmək çox təhlükəlidir. Qələm sahib ləri öz ağlı ilə hərəkət etməlidir, hissləri ilə yox. Hacı Sərdar axund hüzr məclislərindən birində dedi: "Ağıllı adam öz ağlından, daha ağıllı adam başqalarının ağlından da istifadə edər. Odur ki, deyərlər ağıl ağıldan üstün olur". Jurnalist dostum Sərdar Əliyev bir dəfə dedi: "Dəyərsiz insana dəyər vermək pencəkdəki düymələrin yerini səhv salmaq kimidir. Ona görə də həyat həqiqətlərini olduğu kimi qələmə almaq lazımdır". Müəllimimz Əliş Nəbili gənc jurnalistlərə deyərdi ki, başqasının qapısını nahaqdan döymə, gün gələr sənin də qapını nahaqdan döyərlər. Odur ki, qələminə etibar et.

Qələminə etibar edib həyat həqiqətlərini oxucuya çatdıranlar xalq tərəfindən sevilir, hörmət sahibi olurlar.

İnsan yer üzündə yeganə varlıqdır ki, bütün müsbət və mənəvi xüsusiyyətlər onda cəmləşib. Müdriklər deyirlər ki, əsil həyat təkcə yaşamaqda deyil. Gərək elə yaşayasan, elə fəaliyyət göstərəsən ki, özündən sonra yaxşı izlər qoyasan. 60 ilə yaxın professional jurnalist fəaliyyətimdən görmüşəm ki, söz adamları iki ömür yaşayırlar - həm öz ömürlərini, həm də başqalarının. Həqiqətən də kiminsə daxili aləminə girib dərdsərinə şərik olmaq, kömək, qayğı göstərmək böyük xoşbəxtlikdir.

## SİZİ DEYİB GƏLMİŞDİK, MİRZƏ!

Sizi deyib gəlmişdik, Mirzə! Gəldik görək Nehrəmdə nə var, nə yox. Vaxtilə Tbilisidə yaşayan dostun Qurbanəlibəy Şərifova yaşadığın mühitdən şikayətlənərək yazırdın ki, haman Naxçıvan, haman Nehrəm, haman Danabaş kəndi və haman Məmmədhəsən əmi ilə Xudayar bəy, haman qazi... Qərəz, haman göl və haman qurbağa...

Ruhun şad olsun, ustad! Gördüyünüz kənd bu gün həmin kənd deyil, yeniləşib, boy atıb. Hiss edirsən ki, Nehrəm işıqlı yoldadır, nəbzi normal döyünür, adamlarda gələcəyə inam artıb, iş üslubu dəyişib. Savadsızlıqdan əsər-əlamət qalmayıb. Üz-gözlərdə sevinc, ürəklərdə xoş əhval-ruhiyyə var.

Hara getdiksə, hara üz tutduqsa, nəfəsinizi duyduq, izinizi gördük, Mirzə! Nehrəmdə, Naxçıvan şəhərinin özündə, eləcə də Bakıda adınızı daşıyan ev-muzeylərində olarkən bir daha hiss etdik ki, bu yerlərdə çox şey yadigardır, Sizdən yadigar!

### *Nehrəm Xatirə muzeyində*

Xatirələr qoynunda ötən günlər yada düşüb. Unudulan heç nə yoxdur. Bura Nehrəm kəndidir, böyük ədibin doğulub boya-başa çatdığı kənd.

Cəlil Məmmədquluzadənin Nehrəmdəki Xatirə muzeyinə gəlişimiz günün ikinci yarısına təsadüf edirdi. Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Akif Hacıyev bildirdi ki, Mirzə Cəlilin həyatı və fəaliyyəti ilə bağlı burada iki minə yaxın eksponat, o cümlədən, şəxsi məişət əşyaları saxlanır.

Diqqət kəsirik. Onların əksəriyyəti muzeyin direktoru tərəfindən əldə edilib. Eksponatlar dörd otaqda yerləşdirilib. Birinci otaqdakı eksponatlar Cəlil Məmmədquluzadənin Qori

Müəllimlər Seminariyasında oxuduğu illərə həsr edilib, seminariya həyatını əks etdirən şəkillər yan-yana düzülüb.

Muzeyin ikinci otağı qızı Münəvvər xanımın həyatı və fəaliyyətini əks etdirir. Münəvvər xanım əvvəl rus dili müəllimi, sonralar Nehrəm kənd xəstəxanasında tibb bacısı işləyib. Kənddəki doğum evində işləyərkən SSRİ Ali Sovetinə deputat seçilib.

Tibb bacısı Hacı Zümrüd xanım Cəfərova Münəvvər xanımın portreti önündə sakitcə dayanıb, dərin düşüncələrə dalıb. Kim bilir, bəlkə də daxilində Münəvvər xanımla bağlı acılı-şirinli xatirələr canlanıb. Elədir ki, var.

- Yaxın rəfiqə olmuşuq, - deyir. - Bir dəfə ondan soruşdum ki, Münəvvər, ziyalı ailədənsən, nə əcəb başını bizim kimi bağlayırsan? Cavabında bilirsiniz nə dedi? Dedi ki, Nehrəm, onun adət-ənənələri mənə çox yaxındır, kəndin adamlarını da çox sevirəm, özümü nehrəmli qadınlardan fərqləndirə bilmərəm, axı.

- Münəvvər xanım Çaylaq məhəlləsində yaşayırdı, - Zümrüd xanım söhbətini davam etdirir. - Təsərrüfatçı idi, toyuq-cücə, qoyun-quzu saxlayırdı. Xeyir-şər məclislərindən qalmazdı. Bir dəfə danışdı ki, atam vəfat edən ili Kürdəmirdə işləyirdim. Axşam yuxuma girdi, atam dedi ki, Naxçıvana köçüm. Münəvvər xanım 1932-ci ildən həyatını doğulduğu kəndlə bağlamışdı.

Muzeyin üçüncü otağı Mirzə Cəlilin 1896-cı ildən sonrakı ədəbi fəaliyyətinə, dördüncü otağı isə ailə üzvlərinə həsr edilmişdir.

Muzeyin yuxarı başından boylanan mollanəsrəddinçilərin portreti önündə ayaq saxlayırıq. Hər birinin özünəməxsus yaradıcılıq üslubu vardı onların. Hərənin də "Molla Nəsrəddin"in ərsəyə gəlməsində xidmətləri vardı. Baxın, Mirzə Cəlilin yanında dayanan Ömər Faiq Nemanzadədir, yanındakı isə Əli Nəzmidir - "Molla Nəsrəddin" ədəbi məktəbinin




*Cəlil Məmmədquluzadənin Nehrəmdəki ev muzeyində (1990)*
*Sağdan: Etibar Əhədov*

görkəmli nümayəndələri. Bunlar isə Azərbaycan ədəbiyyatının ictimai və bədii fikrinin böyük simalarından olan Əbdürrəhim bəy Haqverdiyev, Əliqulu Qəmküsar, Mirzə Ələkbər Sabir, M.S.Ordubadidir. "Molla Nəsrəddin" hər birinin yaradıcılığında mühüm rol oynamışdır. Yadda qalası işlər çoxdur. Gələcəyə işıq tutaraq onlar cəhalətə, fanatizmə qarşı çıxmış, çarizmin müstəmləkəçilik siyasətini ifşa etmişlər.

Maraqlıdır ki, Mizə Cəlilin Nehrəmdəki muzeyində toplanmış eksponatlar arasında dövrünün ictimai-siyasi bəlalarını əks etdirən maraqlı, dərin məzmunlu karikaturalar da öz əksini tapıb. O.İ.Şmerlinq, İ.Royter, Əzim Əzimzadə fırçasından çıxan bu rəsm əsərləri zaman keçsə də, əhəmiyyətini itirməyib.

### *Naxçıvan şəhərindəki ev muzeyində*

Muzey 1999-cu il oktyabr ayında açılıb. Ümummilli lider Heydər Əliyevin açılışında iştirakı Mirzə Cəlil şəxsiyyətinə və irsinə göstərdiyi diqqət və qayğının nəticəsi idi.

Muzey əməkdaşları böyük ədibin həyat və yaradıcılığına həsr edilmiş ekspozisiya haqqında danışdıqca hiss edirsən ki, burada Mirzə Cəlil irsinə dərin hörmət və ehtiramla yanaşılır, böyük ədibin xatirəsi əziz tutulur. Cəlil Məmmədquluzadə və onun ailəsinə məxsus şəxsi məişət əşyaları, tarixi sənədlər, mütaliə etdiyi kitablar muzeyin eksponatları arasında mühüm yer tutur. Hiss edirsən ki, son illərdə muzeydə Cəlil Məmməquluzadənin həyat və yaradıcılığının öyrənilməsi istiqamətində təqdirəlayiq işlər görülmüşdür. Böyük ədibin 150 illik yubileyi ərəfəsində muzeyə yeni eksponatlar daxil olmuşdur. Tədqiqatçı-müəllim Rafiq Qasımovun ev-muzeyinə təqdim etdiyi və 1888-ci ilə aid, kənarları taxta və oyma ilə işlənmiş güzgü və güzgü altlığı, eyni zamanda dairəvi taxta masası yeni eksponatlar sırasındadır.

Muzey əməkdaşlarının "Molla Nəsrəddin" jurnalının bütün nömrələrinin əldə edilməsi istiqamətində göstərdikləri təşəbbüslər də ürəkaçandır.

### *Bakıdakı ev muzeyində*

Naxçıvan səfərindən sonra Cəlil Məmmədquluzadənin Bakı şəhəri, Süleyman Tağızadə küçəsi, 56 ünvanda yerləşən muzeyinə baş çəkdik. Muzeydə ilk dəfə 1966-cı ildə olmuşduq. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə imtahan verdiyimiz vaxtlar idi. Muzeylə tanışlıqdan sonra Cəlil Məmmədquluzadənin 100 illiyinə həsr edilmiş təntənəli yığıncaqda iştirak etdik.

Lənkəranlı mollanəsrəddinçi Nəsrulla Qənbərli yığıncaqda çıxış edərək keçmiş Astraxanbazar rayonuna Cəlilabad adının verilməsi haqqında məsələ qaldırdı.

Muzey yeni eksponatlarla daha da zənginləşib. Bu gün muzeydə ədibin və digər mollanəsrəddinçilərin həyat və fəaliyyətini əks etdirən 3 minə yaxın eksponat toplanmışdır. Onlara baxdıqca lənkəranlı mollanəsrəddinçi Nəsrulla Qənbərli ilə söhbətini xatırladıq.

- "Molla Nəsrəddin" idarəsi o zaman Starı Poçtovı küçəsində yerləşirdi, - o danışardı. - Mən Mirzə Cəlilə "Cəlil dadaş" deyə müraciət edərdim. Bir dəfə ona dedim:

- Cəlil dadaş, şəkil çəkməyi bacarmıram, yoxsa mollaların məsciddə qurduqları şaxsey-vaxseydən şəkil çəkərdim.

Mirzə Cəlil təbəssüm etdi, üzünü mənə tutaraq:

- Sən ağlaşmanı qur, şəkil ilə işin yoxdur, - dedi.

Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında "Qarnı yırıq", "Uzaq görən", "Sancaq", "Yoldan keçən", "Qənbərli" imzaları ilə çıxış edən Nəsrulla Qənbərli ilə vaxtaşırı məktublaşarmış.

Mirzə Cəlilin Nəsrulla Qənbərliyə 18 sentyabr 1928-ci, 20 oktyabr 1930-cu və 13 iyul 1931-ci illərdə göndərdiyi məktubların foto surəti yarım əsrə yaxındır ki, şəxsi arxivimdədir. Nəsrulla müəllimin Cəlil Məmmədquluzadə ilə çəkdirdiyi bir şəkil də var. Şəkil 1925-ci ildə Azərbaycan müəllimlərinin birinci qurultayında çəkilmişdir və qurultayın davam etdiyi günlərdə respublika qəzetlərində verilmişdir.

Uzun illər partiya və Sovet işində çalışmış Böyükxanım Əhmədbəylinin albomunda Cəlil Məmmədquluzadənin lənkəranlı mollanəsrəddinçilərlə birgə çəkdirdiyi şəkil tarixi baxımından maraqlıdır. Mollanəsrəddinçilərdən İsmayıl və Nəsrulla Qənbərov qardaşları, Rəşid Nurullayev, Mirzağa Əhmədbəyli, Qəni Kazımov, Hüseyn Atakişiyev, Ağahüseyn Kərimov, Qüdrət Xəlilov, Böyükxanım Əhmədbəyli, Məmmədəli Fə-

tullayev, Fərəculla Daşdəmirov Mirzə Cəlilin ətrafına toplaşmışlar.

Başqa şəkildə isə bir neçə gəncin əlində ərəb əlifbası ilə "Molla Nəsrəddin" sözləri yazılmış jurnal təsvir olunur. Tədqiqatçı-alim Mirhaşım Talışlının məlumatına görə, fotoşəkillər yetmişinci illərin axırlarında hansısa dövlət arxivlərindən birinə verilmişdir.

## *Tbilisidə bir muzey var...*

1969-cu ilin yay günlərindən biri idi. Hərbi xidmətimiz Gürcüstanda keçirdi. Xəbər yayıldı ki, Tbilisidə Cəlil Məmmədquluzadənin ev muzeyi yaradılacaq. Az sonra "Qeyrət" mətbəəsində olduq.

Mətbəə Azərbaycanda maarifçilik hərəkatına böyük təkan vermiş, kitab mədəniyyətinin formalaşmasında şərəfli tarix yazmışdır.

Mətbuat xəbər verir ki, muzey 1997-ci il oktyabrın 11-də açılıb. Binanın fasadına vurulmuş lövhədə yazılmışdır: "Azərbaycanın böyük demokrat ədibi Mirzə Cəlil Məmmədquluzadə 1897-1918-ci illərdə bu binada yaşayıb yaratmışdır. 1906-1918-ci illərdə məşhur "Molla Nəsrəddin" məcmuəsini nəşr etdirmişdir (1866, Naxçıvan - 1931, Bakı)".

Mirzə Cəlilin Tbilisidəki ev muzeyi yaradılandan Gürcüstanın paytaxtına yolum düşməyib. Amma maraq həmişə güc gəlib. Görəsən, bu gün muzeydə vəziyyət necədir? Jurnalist dostum Nizami Hüseynov 4-5 il əvvəl bir qrup jurnalistlə Tbilisidə səfərdə olmuşdu. Danışırdı ki, Cəlil Məmmədquluzadənin evmuzeyində təmir işləri başlanıb.

***

Haqqınızda deyiləsi, yazılası sözlər çoxdur, Mirzə! Tələ-

bəlik illərində "Molla Nəsrəddin" jurnalının az qala bütün nömrələrini oxumuşduq. Araşdırmaların nəticəsi idi ki, 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinin kafedra müdiri, professor Nəriman Zeynalovun rəhbərliyi ilə "Molla Nəsrəddin" jurnalının Lənkəran müxbirləri" mövzusunda yazdığım diplom işi yüksək qiymətləndirildi.

İctimai fikir tariximizdə müstəsna xidmətləriniz var, Mirzə! Təkcə "Molla Nəsrəddin" jurnalı kifayətdir ki, Cəlil Məmmədquluzadə adı yaşasın!.. 150 illik yubileyinizin qeyd edildiyi günlərdə də doğulub boya-başa çatdığınız, fəaliyyət göstərdiyiniz yerlər qürur ünvanınıza dönmüşdü.

"Molla Nəsrəddin"in ayrı-ayrı nömrələrini vərəqlədikcə sevimli müəllimimiz, professor Cahangir Məmmədovu xatırladıq: "Molla Nəsrəddin"i "Molla Nəsrəddin" eləyən, onu Azərbaycanla yanaşı, bütün Şərq aləminin mədəni həyatında mühüm hadisəyə çevrilən, bir tərəfdən jurnalın son dərəcə mütərəqqi xarakteri idisə, digər tərəfdən sadə və aydın dili, orijinal üslubu idi" *(C.Məmmədov. Satira dili, BDU-nun "Jurnalistika" Elmi əsərləri, 1977, № 1, səh. 66).* Həqiqətən də "Molla Nəsrəddin" sadə, anlaşıqlı, xalqın başa düşəcəyi dildə nəşr olunurdu. Mirzə, təsadüfi deyildir ki, yazırdın: "Məndən soruşsalar ki, dövlətdən, naz-nemətdən nəyin var, qürur hissi ilə deyərdim: - bütün kainatı, yer üzünü təsvir və tərənnüm etməyə qadir sözüm, ana dilim var!"

Sizi deyib gəlmişdik, Mirzə! Gəldik və Sizə olan məhəbbəti, ehtiramı bir daha yaxından gördük. Gördük ki, satirik jurnalistikamızın bayraqdarı, qüdrətli sənətkarı, ictimai xadim kimi yaddaşlarda həmişəlik qalmısan, ustad! Ruhun şad olsun...

## *MÜNDƏRİCAT*

I BÖLMƏ

Milli mətbuatımızın Lənkəran nəşrləri . . . . . . . . . . . . . . . . .3

II BÖLMƏ

"Lənkəranın səsi" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .19

III BÖLMƏ

"Aşkarlıq" – 30 yaşlı qəzet

Qəzetin başlıca mövzuları
və onlara verilən tələblər . . . . . . . . . . . . . . . . . . . . . . . . .36
Qəzetdə sosial həyat məsələləri . . . . . . . . . . . . . . . . . . . . . .53
Həmrəylik, tolentrantlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . .59
Məktəb və təhsil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .63
Lənkəran ədəbi mühiti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .68
Qəzetin şöbələri, müəlliflər, müxbirlər . . . . . . . . . . . . . . . . .73

IV BÖLMƏ

YADDAŞIMDA YAŞATDIQLARIM

*Hacı Mirhaşım Talışlı,*
Həyatı və mühiti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .79
*Zəfər Orucoğlu,*
Jurnalist adının ucalığında . . . . . . . . . . . . . . . . . . . . . . . .97
*Sevda Əlibəyli,*
Sözə, mətbuata həsr olunan ömür . . . . . . . . . . . . . . . . . . .104

V BÖLÜM

JURNALİSTİKADA KEÇDİYİM YOL

Mən, babam, bir də xatirəmdə yaşayanlar . . . . . . . . . . . . . .111
Mən də jurnalist oldum . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .126
And olsun qələmə!.. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .133
Sizi deyib gəlmişdik, Mirzə! . . . . . . . . . . . . . . . . . . . . . . .137

*Korrektor*
İlqar ƏHƏDOV,
“Tərəqqi” medallı

*Texniki redaktor*
Hacı Məhəmməd ƏZİMOV

*Kompüter tərtibatı və dizaynı*
Araz ƏHƏDOV

*Yığılmağa vepilib: 04.05.2025*
*Çapa imzalanıb: 30.05.2025*
*Formatı: 60/84 $^{1}/_{16}$*
*Ofset kağızı*
*Həcmi: 9,0 ç.v. Tiraj: 100*

Kitab “3 saylı Bakı Mətbəəsi” ASC-də hazır diopozitivlərdən ofset üsulu ilə çap edilib

Ünvan: Bakı şəhəri, A.Məhərrəmov küç,4.

Tel.: (050) 424 58 10 ***(müəl.)***